RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 13 (10033) 23 yanvar 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# SÜLH ŞURASI




## Prezident İlham Əliyev Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimində iştirak edib

**Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib.** AZƏRTAC **xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzaladılar.




## Davosda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə görüşü olub




**Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

2

## Ədaləti və barışı təmin edən lider



### "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycan Prezidentinin sülhü bərqərar edən siyasətinə verilən yüksək dəyərdir

BMT Baş Assambleyasının 80-ci sessiyasına Prezident İlham Əliyevin Qarabağ məsələsini məhz öz qətiyyəti və uzaqgörən siyasəti sayəsində nizama salan və elə BMT TŞ-nin onilliklərdir kağız üzərində qalan qətnamələrini yerinə yetirən və sülh yaradan lider kimi yollanması da dünya tarixində rastlanmamış hal idi.

Otuz ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllindən sonra rəsmi Bakının seçdiyi siyasi xətt də elə barış və qarşılıqlı anlaşma oldu.

6

## Azərbaycan Avrasiyada dəyər yaradır



Avrasiya çox böyük bir coğrafi məkandır. Müxtəlif güc mərkəzləri ilə paralel ziddiyyətsiz əməkdaşlıq imkanları bu məkanı qapalı bloklardan fərqli olaraq açıq, çoxtərəfli və rəqabətədavamlı iqtisadi platformaya çevirir. Ona görə də Azərbaycan öncə öz regionunu, daha doğrusu, qonşularını düşünməlidir. Ötən 30 ildə ölkəmiz Ermənistan istisna olmaqla, bütün qonşularla münasibət qura bilib. Amma hazırda sülh bərqərar olduğu üçün Ermənistanla da iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlanılıb. Azərbaycan Qazaxıstan və Rusiya vasitəsilə Ermənistana yük daşımalarındakı bütün məhdudiyyətləri aradan qaldırıb. Həmin addım nəticəsində artıq Ermənistandan Rusiyaya yüklərin daşınması üçün müraciətlər daxil olub. Hazırda bu daşımalar Gürcüstan ərazisindən həyata keçirilir, lakin gələcəkdə Ermənistan ərazisindən birbaşa yük daşımalarının mümkün olacağı gözlənilir.

8

## *Ağ Evin etimadı:* Azərbaycan qlobal aktor statusunda çıxış edir



ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycanı təşkilata təsisçi üzv dövlət olmağa dəvət edib. Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda qeyd olunub ki, gələcək illərdə dünyada dayanıqlı sülhün, rifahın və hamı üçün qüdrətin bərqərar olunması məqsədi naminə Azərbaycan lideri ilə əməkdaşlıq etməyi səbirsizliklə gözləyir. Ağ Ev rəhbəri məktubunda bildirib ki, göstərilən səylər yaxın gələcəkdə əksəriyyəti yüksək hörmətə sahib dünya liderləri olan möhtəşəm və etibarlı tərəfdaşları bir araya gətirəcək.

9

## Azərbaycan yeni dünya nizamında ədalətli siyasət yürütməsi ilə tanınır



Prezident İlham Əliyevin yanvarın 20-də Davosda "Euronews" televiziyasına verdiyi müsahibə isə Azərbaycanın regional deyil, qlobal miqyasda tanınan, təqdir edilən dövlət olduğunu bir daha nümayiş etdirdi. Bu gün biz beynəlxalq münasibətlərin yeni mərhələyə qədəm qoyduğu bir dövrdə yaşayırıq. Təəssüf ki, dövlətlərin suverenliyi və ərazi bütövlüyü kimi fundamental prinsiplərin hamı tərəfindən birmənalı qəbul olunmaması müasir beynəlxalq sistemin əsas problemlərindəndir. Bu reallıq Azərbaycan üçün xüsusilə tanışdır. Məhz beynəlxalq hüquqa ikili standartlarla yanaşma nəticəsində ölkəmizin ərazilərinin iyirmi faizi otuz ilə yaxın Ermənistanın işğalı altında qaldı. Lakin Azərbaycan bütün haqsızlıqlara rəğmən öz mövqeyindən geri çəkilmədi, bu ədalətsizliyə də beynəlxalq hüquq çərçivəsində son qoydu, BMT tərəfindən tanınmış əraziləri işğaldan azad etdi.

5

# Davosda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə görüşü olub







*Əvvəli 1-ci səh.*

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxundu. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirdi. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğuladı.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd etdi.

Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunuldu, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edildi. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirildi.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd etdilər.






## Prezident İlham Əliyevin Davosda səsləndirdiyi fikirlər Yaponiya mediasının diqqət mərkəzindədir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda keçirilən Ümumdünya İqtisadi Forumu çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında və "Euronews" telekanalına müsahibəsində səsləndirdiyi fikirlər Yaponiyanın telekanalları, informasiya agentlikləri, qəzet və xəbər portallarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, Yaponiyanın rəsmi "Kyodo" və "Oita-Press" agentlikləri, "Nara Sinbun" qəzeti, "Kanaloko" telekanalı, "Tokyo-np", "Sanyon News", "Hokkaydo-np", "Nara-np", "Chibanippo", "Ninpo", "İbaraki- news", "Kochi-news", "Chunichi", "47-news", "News-jp" portalları Azərbaycanın dövlət başçısının regional sülhün bərqərar olması ilə bağlı fikirlərini ön plana çıxarıb.

Materiallarda qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycanın 30 il münaqişə vəziyyətində olduğu qonşu Ermənistanla münasibətlərin normallaşması prosesindən bəhs edib.

Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı artıq müharibə səhifəsinin bağlandığını vurğulayaraq deyib: "Bəli, həmin fəsli bağlamaq və sülh üçün imkanları görməklə bağlı qərar Azərbaycan və Ermənistan liderlərinin birgə qərarı idi. Dediyim kimi, artıq bu, rekord bir sürətlə baş verdi - müharibədən, 2023-cü ilin sentyabr ayının ciddi hərbi toqquşmasından 2025-ci ilin avqust ayınadək. Həmin vaxt mən və Ermənistanın Baş naziri bəyannaməni imzaladıq və sülh sazişi Prezident Trampın iştirakı ilə paraflandı. O isə həmin bəyannaməni şahid kimi imzaladı. Dediyim kimi, biz həmin müharibəyə dünyanın bir nömrəli ofisində son qoyduq".

Yapon mətbuatı diqqətə çatdırıb ki, Prezident İlham Əliyev bu gün paralel şəkildə gedən Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə yaxınlaşmasına toxunub. Dövlət başçısı deyib: "Bu, mütləq paralel şəkildə və eyni vaxtda Türkiyə ilə Ermənistan və Azərbaycan ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulması ilə nəticələnəcək. Bununla da biz geniş coğrafi ərazidə, Avrasiyanın bir




hissəsində bağlantı, enerji təhlükəsizliyi, sülh və sabitlik baxımından olduqca əhəmiyyətli addım atırıq. Bu, uzun illər davam edən müharibələrin əməkdaşlığa və tərəfdaşlığa çevrilməsinin nümunəsidir".

"Rəsmi Kyodo agentliyi yazıb: "Cənab İlham Əliyev Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərin əvvəllər dərin münaqişədə olan ölkələr üçün əməkdaşlıq mərhələsinə keçmək üzrə yaxşı bir nümunəyə çevrildiyini bildirib".

## İspaniya Krallığı Deputatlar Konqresinin sədri ölkəmizə səfərə gəlib

İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosias yanvarın 22-də ölkəmizə rəsmi səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında İspaniya parlament nümayəndə heyətini Milli Məclisin İspaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sevil Mikayılova, Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov,



İspaniyanın Türkiyə və Azərbaycandakı səfiri Kristina Latore, Azərbaycandakı müvəqqəti işlər vəkili Xose Pedro Torrubia və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Fransina Armenqol Sosiasın ölkəmizin rəsmiləri ilə bir sıra görüşləri keçiriləcək, ikitərəfli əlaqələrimizin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparılacaq.

***"Azərbaycan"***

## "Azərbaycan Prezidentinin Davosda söylədiyi fikirlər alqışlanmalıdır"

"Davosdakı çıxışında Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Gürcüstanda və Türkiyədə müvafiq investisiyalar həyata keçirir, enerji daşıyıcıları və tranzit yolları Gürcüstan üzərindən keçir. Əlavə marşrutlara gəldikdə isə, təbii ki, ölkəmiz bunu yalnız və yalnız alqışlayır. Bu, Gürcüstanın vaxtilə mühüm töhfə verdiyi sülhün möhkəmlənməsi fonunda baş verir. Alternativ marşrutun açılmasını Gürcüstan yalnız və yalnız müsbət qarşılayır".



AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Parlamentinin Prosedur Məsələləri və Reqlament Komitəsinin sədri Davit Matikaşvili jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, tranzit baxımından Gürcüstanın rolu və funksiyası faktiki olaraq alternativsizdir. "Prezident İlham Əliyevin Davosda səsləndirdiyi fikirləri oxuyan hər kəs anlayır ki, söhbət Gürcüstanın tranzit rolunun əvəzlənməsindən deyil, əlavə marşrutun yaradılmasından gedir və bu, yalnız alqışlanmalıdır. Yəni Gürcüstanın rolu azalmaq əvəzinə daha da artır", - deyə D.Matikaşvili bildirib.

## MEDİA "Meta"nı Prezidentin adından yayılan zərərli "deepfake" məzmunu aradan qaldırmağa çağırıb

"Feysbuk" sosial şəbəkə platformasındakı bir sıra hesablarda Azərbaycan Prezidentinin adından "deepfake" texnologiyası ilə hazırlanmış, reallığı əks etdirməyən açıqlama yayılıb. Süni intellektin köməyi ilə hazırlanmış, ictimai rəyi çaşdırmağa yönələn bu dezinformasiya nümunəsi vətəndaşların fərdi məlumatlarını ələ keçirərək onlara maddi ziyan vurmaq məqsədi daşıyır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Medianın İnkişafı Agentliyinin (MEDİA) açıqlamasında əksini tapıb.

"Qeyd edək ki, son zamanlar oxşar məzmunlu kiberdələduzluq hallarına "Feysbuk" platformasında tez-tez rast gəlinir. Bununla əlaqədar olaraq "Feysbuk" platformasının sahibi "Meta" şirkətini zərərli məzmunu aradan qaldırmaq üçün operativ tədbirlər görməyə çağırırıq. Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi informasiyaya inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların, "deepfake" texnologiyaları ilə məzmunyaratma tendensiyasının vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik", - deyə açıqlamada qeyd olunub.

## “Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının rəsmi dərc edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 aprel tarixli 80 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 20** **Bakı şəhəri, 21 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının rəsmi dərc edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 aprel tarixli 80 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 392 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarının rəsmi dərc edilməsi Qaydası" üzrə:

2.1. 2-ci hissənin birinci cümləsindən "qəzeti" sözü çıxarılsın;

2.2. "Qeyd" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nda və 2024-cü il 20 fevral tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 21** **Bakı şəhəri, 21 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605, № 10, maddələr 967, 976, 982, № 11, maddə 1101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 dekabr tarixli 403 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci, 2.5-ci bəndlərdə və 2.2.7-ci yarımbənddə "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi" sözləri "Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu" sözləri ilə əvəz edilsin;

1.2. 4.3-cü bənddə "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" 1992-ci il 23 noyabr tarixli 631" sözləri "Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu barədə məlumatların təqdim olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 27 avqust tarixli 135" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 fevral tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 223;2025, № 6, maddə 592) ilə təsdiq edilmiş "Dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinin dövlət qulluğu stajına və dövlət qulluğu stajının dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) illərinə daxil edilməsi Qaydası və şərtləri"nin 2.3-cü bəndində "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 noyabr tarixli 631 nömrəli Qərarının 2-ci" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu barədə məlumatların təqdim olunması Qaydaları"nın 2-2-ci" sözləri ilə əvəz edilsin.

3. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Özəl tibb fəaliyyəti haqqında” və “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 23** **Bakı şəhəri, 22 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 445 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1907 (Cild I) ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası"nın 1.6-cı bəndində "peşəkarlıq səviyyəsinin" sözləri "peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 615 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2560 (Cild I); 2025, № 2, maddə 196, № 9, maddə 877) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in 7.1-ci bəndinin "İnformasiya sistemindən əldə olunan məlumatlar" sütununda "şəxsin həkim, yaxud orta tibb işçisi olması" sözləri "şəxsin həkim, orta tibb işçisi, əczaçı olması" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 354 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Tibbi-iqtisadi ekspertizanın aparılması Qaydası"nın 6.1.2-ci yarımbəndində "praktiki tibbi" sözləri "praktik tibb" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 355 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Tibbi xidmətin keyfiyyətinin ekspertizasının aparılması Qaydası"nın 5.1.2-ci yarımbəndində "praktiki tibbi" sözləri "praktik tibb" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 oktyabr tarixli 456 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1168) ilə təsdiq edilmiş "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.5-ci yarımbənddə "tibb mütəxəssislərinin" sözləri "və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin" sözləri ilə əvəz edilsin;

5.2. 3.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.4. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 49-1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin peşə bilik və bacarıqlarının qorunub saxlanılması, inkişaf etdirilməsi və peşə yararlılığının yoxlanılması məqsədilə sertifikasiyasını həyata keçirmək, onların davamlı peşəkar inkişafı istiqamətində tədbirlər görmək;".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 aprel tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 391) ilə təsdiq edilmiş "Aviasiya personalının dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, psixoloji müayinələrdən keçirilməsi, peşəyə yararlılığını müəyyən edən tibb müəssisələrinin və onların əməkdaşlarının sertifikatlaşdırılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1-ci bənddə "praktiki" sözü "praktik" sözü ilə əvəz edilsin;

6.2. 5.6.3-cü yarımbənddə "praktiki" sözü "praktik" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "olmadıqda" sözündən sonra "və ya qüvvədə olmadıqda" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova NATO Baş katibinin müavini ilə görüşüb



Yanvarın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova NATO Baş katibinin müavini Radmila Şekerinskanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanla NATO arasında 30 ildən artıq müddətdə davam edən əməkdaşlıq vurğulanaraq, Alyansın beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında oynadığı rol yüksək qiymətləndirilib.

Söhbət zamanı tərəflər arasında mövcud davamlı və məzmunlu siyasi dialoqun əhəmiyyəti vurğulanaraq bildirilib ki, Prezident İlham Əliyevin NATO mənzilqərargahına səfərləri, NATO-nun sabiq Baş katibi Yens Stoltenberqin 2024-cü ildə Azərbaycana səfəri, aparılan danışıqlar və müntəzəm təmaslar tərəfdaşlığa yeni dinamika gətirib və bu addımlar siyasi dialoqun intensivliyinin göstəricisi kimi qiymətləndirilib. Azərbaycanın NATO üçün etibarlı və öhdəliklərinə sadiq tərəfdaş olduğu qeyd edilərək, ölkəmizin Alyansın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyəti, regional nəqliyyat-logistika mərkəzi kimi əhəmiyyəti vurğulanıb.

Görüşdə daha sonra Azərbaycanın Alyansın enerji təhlükəsizliyinə verdiyi töhfə diqqətə çatdırılaraq bildirilib ki, ölkəmiz hazırda NATO üzvü olan 10 dövlətə və 2 tərəfdaş ölkəyə təbii qaz tədarük edir ki, bu da enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Spiker həmçinin Azərbaycanın Orta dəhlizdə mühüm tranzit rolunu vurğulayaraq, bunun regionda sabitliyə və əməkdaşlığa mühüm töhfə verdiyini qeyd edib.

Sahibə Qafarova Azərbaycan və Ermənistan arasında sülh prosesinə toxunaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin öz suverenliyini bərpa edərək, bölgədə yeni reallıqlar yaratdığını bildirib. Qeyd olunub ki, məhz Azərbaycan sülh təşəbbüsü ilə çıxış edib, Vaşinqton Sammitindən sonra Ermənistanla əməkdaşlığın irəlilədilməsi üzrə ardıcıl və praktik addımlar atıb.

NATO Baş katibinin müavini Radmila Şekerinska Alyansın Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini və tərəflər arasındakı sıx siyasi dialoqu yüksək qiymətləndirdiyini bildirərək, bu münasibətlərin yeni Tərəfdaşlıq Proqramı çərçivəsində daha da dərinləşəcəyinə əminliyini ifadə edib. O, Azərbaycanın NATO ilə əməkdaşlığa və Alyansın üzv ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması istiqamətində verdiyi mühüm töhfələrə görə təşəkkürünü çatdırıb və tərəfdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini vurğulayıb.

Baş katibin müavini Azərbaycan və Ermənistan arasında sülh və münasibətlərin normallaşdırılması üzrə proses ilə bağlı təbriklərini çatdırıb.

Söhbətdə Milli Məclislə NATO Parlament Assambleyası arasında əlaqələrin əhəmiyyəti qeyd olunub, gələcək əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

*“Azərbaycan”*

# YAP Veteranlar Şurasının iclası keçirilib

Yanvarın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib.



YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə gündəlikdə duran məsələlər haqqında məlumat verərək şuranın 2025-ci ildə də fəaliyyətini partiyanın Proqram və Nizamnaməsi çərçivəsində, müvafiq Tədbirlər Planına uyğun şəkildə davam etdirdiyini vurğulayıb.

Görülən işlərdən bəhs edən Arif Rəhimzadə 2026-cı ilin Tədbirlər Planında nəzərdə tutulan məsələlərə nəzər yetirərək ideoloji işin, o cümlədən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin - milli şüurun gücləndirilməsinin diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova, şuranın üzvləri Tahir Rzayev, Elbay Qasımzadə, Zərifə Quliyeva, Adilə Abasova, Əli Həsənov, Tahir Quliyev, Vahid Novruzov, Urxan Ələkbərov, Xeyrəddin Qoca, Nazim İsmayılov, Fidumə Hüseynova, Arif Qaraşov və Zahid Xəlilov çıxış edərək müzakirə olunan məsələlərə münasibətlərini bildiriblər. YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunları qənaətbəxş qiymətləndirilib. 2026-cı ilin Tədbirlər Planı ilə bağlı müxtəlif təkliflər səsləndirilib və yekunda müvafiq qərar qəbul olunub.

*"Azərbaycan"*

# "Ermənistanla münasibətlərin normallaşması Bakı ilə İrəvan arasında sülh sazişindən asılıdır"

Türkiyə ilə Ermənistan arasında münasibətlərin tam normallaşması yalnız Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması şərti ilə mümkündür. Başqa heç bir ssenari Ankaranı Cənubi Qafqazda istədiyi məqsədlərə doğru aparmayacaq.



AZƏRTAC xəbər verir ki, bu fikri Ankarada yerləşən Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) direktoru və Türkiyənin bir sıra Avropa ölkəsindəki və beynəlxalq təşkilatlardakı sabiq səfiri Alev Kılıç ifadə edib. O bildirib ki, Türkiyə Ermənistanın Qərbə açdığı yeganə "pəncərə"dir və İrəvan bunu başa düşür.

Ekspert əlavə edib: "Ankara İrəvan tərəfinə Türkiyənin prioritetinin Ermənistanla münasibətlərin normallaşması deyil, regionda uzunmüddətli sülh və sabitlik olduğunu aydın şəkildə bildirir".

AVİM direktorunun sözlərinə görə, hazırkı Ermənistan hökuməti və şəxsən Baş nazir Nikol Paşinyan diasporun ənənəvi radikal ritorikasını və tabularını rədd edərək praqmatik mövqe tutur, bununla da Türkiyəni düşmən kimi qəbul etməkdən imtina edir. A.Kılıç erməni diasporunu Ermənistanın hazırkı kursunun qarşısında əsas maneə adlandırıb.

Türkiyənin sabiq səfiri Ankara ilə İrəvan arasındakı dialoqun diasporun bütövlüyünün pozulması ilə əlaqəli olduğu fikrini bildirib. "Bu gün diaspordakı bəzi ermənilərin Türkiyə və Azərbaycanın tərəfdarlarına yönəlmiş radikal ritorikaya qarşı çıxdığını, belə bir kursun ermənilərin özlərinə zərbə olduğunu bəyan etdiyini görürük. ABŞ-də bir sıra ermənilər Amerika Erməni Milli Komitəsini (ANCA) açıq şəkildə tənqid etməyə başlayıblar, İsraili tənqid etməyin yolverilməzliyini, eləcə də Donald Tramp administrasiyasının Azərbaycanla dialoqda atdığı addımları qeyd ediblər", - deyə AVİM rəhbəri bildirib, O, kilsənin mövqeyinin Ermənistanın dövlətçiliyinə zərərli olduğu barədə fikirlərin də səsləndirildiyini qeyd edib.

A.Kılıç daha sonra uzun müddətdir Türkiyənin maraqlarını sarsıtmaq üçün bir vasitə kimi istifadə edilən 1915-ci il hadisələrinə toxunub. Mərkəzin rəhbəri qeyd edib ki, Osmanlı imperiyasının son illərində baş verən hadisələrlə bağlı Ankaranın mövqeyi həm hüquqi, həm də tarixi cəhətdən güclüdür və bu, çoxsaylı arxiv sübutları ilə təsdiqlənir. Onun sözlərinə görə, Avropa məhkəmələrinin hökmləri Ankaranın bu məsələ ilə bağlı tezislərinin doğruluğunun əyani sübutudur.

A.Kılıç həmçinin Vətən Partiyasının sədri Doğu Perinçekin İsveçrəyə qarşı qaldırdığı iş üzrə Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarını misal gətirib. Qərarda türk siyasətçinin qondarma "erməni soyqırımını" tanımaqdan imtina etdiyinə görə məsuliyyətə cəlb edilməsi istənilib.

AVİM rəhbəri qeyd edib ki, hətta diasporun təzyiqi altında AİHM-ə apellyasiya hazırlayan İsveçrə hakimiyyətinə qarşı güclü təzyiqlər də faydasız olub. "Nəticədə Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatası AİHM-in 17 dekabr 2013-cü il tarixli qərarını qüvvədə saxladı. Beləliklə, hüquqi presedent yarandı. Bu məsələ ilə bağlı Avropa məhkəmələri tərəfindən başqa qərarlar qəbul edilib", - deyə Türkiyənin sabiq səfiri "soyqırımı" termininin hüquqi termin olduğunu vurğulayaraq bildirib.

A.Kılıç Ankaranın arxivlərin qarşılıqlı şəkildə açılması ilə bağlı çoxsaylı təşəbbüsünü xatırladıb və diqqətə çatdırıb ki, həmin təkliflər Ermənistan tərəfindən qəbul olunmayıb. "Heç kim müharibə şəraitində Anadoluda qarşıdurma və toqquşmalar faktını inkar etmir, amma "soyqırımı" faktından danışmaq həqiqətə zidd getmək deməkdir", - deyə o bildirib. Ekspert onu da qeyd edib ki, siyasi müstəvi Türkiyənin hələ də "erməni məsələsi"nə qarşı dezinformasiya və təzyiq axınına müqavimət göstərmək məcburiyyətində qaldığı sahədir.

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat müşavirəsi keçirilib



Yanvarın 22-də baş prokuror Kamran Əliyevin sədrliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2025-ci il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirə iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar.

Müşavirədə çıxış edən baş prokuror bildirib ki, Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbənin 5-ci ildönümünün keçirildiyi 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilməsi beynəlxalq hüququn effektivliyinə və qlobal idarəetmə mexanizmlərinə etibarın sarsıldığı bir vaxtda Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq dövlət quruculuğu fəlsəfəsinin ən ali və ülvi niyyəti kimi qəbul edilmiş, humanizm dəyərləri ilə zəngin olan Konstitusiyamızın və onun əsasında formalaşan milli qanunvericiliyimizin beynəlxalq hüququn ən mütərəqqi prinsipləri və fundamental insan hüquqları ilə mükəmməl bir vəhdət halında tətbiqinin formasıdır.

Qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi və diqqəti, habelə Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə işğaldan azad edilmiş Azərbaycan ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Həmin proses ölkəmizin həm daxili resurslara əsaslanan inkişaf modelinə sadiqliyini, həm də suverenliyini möhkəmləndirməkdə qətiyyətli olduğunu nümayiş etdirir. 2026-cı ildə bərpa və quruculuq işləri artıq keyfiyyətcə yeni, daha genişmiqyaslı mərhələyə keçib.

Ötən ilin dövlətimiz və Azərbaycan xalqı üçün bir sıra mühüm, eyni zamanda əlamətdar siyasi hadisələrlə yadda qalmasını xatırladan baş prokuror 2025-ci il avqustun 8-də Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanmasını xüsusi vurğulayaraq, həmin uğurun ölkəmizin və xalqımızın gələcək təhlükəsizliyinə hesablanmasını, bununla da uzun illər ikili siyasət zəminində müzakirə predmeti olmuş milli maraqlarımızın beynəlxalq səviyyədə rəsmiləşdirilməsini, eyni zamanda müqavilənin regional iqtisadi münasibətlərin inkişafına əhəmiyyətli təkan verəcəyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

Sonra korrupsiyadan azad mühit və şəffaflıq kimi komponentlərin daim diqqətdə saxlanıldığı, bu sahədə müntəzəm olaraq hüquqi-institusional və normativ-hüquqi tədbirlərin həyata keçirildiyi, müasir qloballaşma şəraitində transmilli mütəşəkkil cinayətkarlığın artan tendensiyaları və potensial təhlükələrin aktuallığı fonunda, hesabat dövrü ərzində beynəlxalq tərəfdaşlar və təşkilatlarla əməkdaşlığın dərinləşdirildiyi vurğulanıb. Eləcə də mövcud kommunikasiya platformalarının təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin davam etdirildiyi qeyd olunub. Ötən il mayın 19-dan 23-dək BMT-nin 128 ölkənin korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış 237 qurumunu və müşahidəçi statusa malik 18 beynəlxalq təsisatı bir araya gətirən Qlobal Əməliyyat Şəbəkəsinin Altıncı Plenar İclasının və İdarəetmə Komitəsinin Onuncu İclasının paytaxt Bakıda yüksək peşəkarlıqla keçirilməsinin cinayətkarlığa və onun korrupsiya təzahürünə qarşı mübarizə sahəsində ölkəmizin beynəlxalq nüfuzu baxımından xüsusi əhəmiyyət kəsb etdiyi bildirilib.

Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov öz məruzəsində hesabat dövrü ərzində Baş İdarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, Baş İdarədə başlanılmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Bildirilib ki, həmin dövrdə Baş İdarə tərəfindən vətəndaşların 11 min 671 müraciətinə baxılıb.

Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin olunub, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülüb.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması sahəsində prokuror təsir tədbirlərinin tətbiqindən də müvafiq dövr ərzində istifadə edilib, yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 133 təqdimat göndərilib. Həmin təqdimatlara əsasən bir sıra işçilər intizam məsuliyyətinə cəlb ediliblər. Bununla yanaşı, müvafiq dövr ərzində Baş İdarədə 910 vətəndaşın qəbul edilməsi təmin olunub.

Hesabat dövrü ərzində Baş İdarədə 315 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılıb, 267 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılıb, 48 material, o cümlədən 14-ü üzrə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanılmasının rədd edilməsi haqqında qərarlar qəbul olunub və digər prokuror təsir tədbirləri tətbiq edilib.

Əməliyyat qurumları tərəfindən 114 cinayət işi başlanılıb, keçirilmiş əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 18 şəxs cinayət başında yaxalanıb.

Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 174 şəxs barəsində 104 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılıb, qalanları isə hazırda məhkəmə baxışındadır.

Hesabat ili ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 35 milyon 391 min 465 manat məbləğində maddi ziyandan 11 milyon 634 min 316 manatının ödənilməsi təmin olunub.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 27 milyon 439 min 745 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunub.

Hesabat dövrü ərzində Baş İdarənin fəaliyyətinin və antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi də daxil olmaqla beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən bir sıra tədbirlər müsbət dəyərləndirilib.

Əməliyyat müşavirəsinə yekun vuran baş prokuror vətəndaşların müraciətlərinə baxılması, xüsusilə "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da gücləndirilməsi, korrupsiyaya daha çox məruz qalan sahələrlə bağlı davamlı təhlillərin aparılması, digər hüquq-mühafizə orqanları və Baş Prokurorluğun aidiyyəti struktur qurumları ilə birgə fəaliyyətin səmərəliliyinin artırılması istiqamətində müvafiq işlərin davam etdirilməsi, zəruri əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinin diqqətdə saxlanılması, cinayət işlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsinin təmin edilməsi, əmlakın bərpası, qətimkan tədbirlərinin səmərəli tətbiqinə nail olunması məsələlərinə xüsusi əhəmiyyət verilməsi, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi istiqamətində zəruri işlərin görülməsi, əməkdaşların müvafiq sahələr üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması və digər bu kimi məsələlər ətrafında təhlillər apararaq tapşırıq və tövsiyələrini verib.

# Milli Məclisin komitələrinin iclaslarında

Yanvarın 22-də Milli Məclisin Gənclər və idman komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Şahin İsmayılov sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb. Komitə sədri diqqətə çatdırıb ki, bugünkü iclasın gündəliyinə iki məsələ - komitənin 2025-ci ilin payız sessiyası dövründə gördüyü işlər barədə hesabatı və komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi daxil edilib.

Şahin İsmayılov komitənin ötən sessiyada gördüyü işlər barədə hesabatı ilə bağlı məlumat verərkən 2025-ci ildə ölkə həyatının əlamətdar hadisələrini və uğurlarını xüsusi vurğulayıb. O bildirib ki, möhtərəm Prezident tərəfindən müəyyən edilmiş strateji xəttə uyğun olaraq il ərzində parlamentin fəaliyyəti milli dövlətçiliyimizin konstitusiya əsaslarının daha da möhkəmləndirilməsinə, qanunvericilik bazasının və hüquq sisteminin ardıcıl şəkildə təkmilləşdirilməsinə istiqamətlənib.

Komitə sədri diqqətə çatdırıb ki, hesabat dövründə Gənclər və idman komitəsinin 10 iclası keçirilib və 11 məsələyə baxılıb. Ötən payız sessiyası dövründə komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan ümumilikdə daxil olan 89 müraciətlə bağlı müvafiq tədbirlər görülüb.

Bildirilib ki, komitə üzvləri ictimai dinləmələrdə və digər tədbirlərdə fəal iştirak ediblər. Hesabat dövründə komitə sədri və üzvləri seçicilərlə, cəmiyyətin həssas qrupları, şəhid ailələri və qazilərlə, yarışlarda uğur qazanmış idmançılarla görüşüblər, onların qayğıları ilə maraqlanıblar.

Diqqətə çatdırılıb ki, Gənclər və idman komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsində qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, gənclərin və idmanın aktual məsələləri ilə bağlı dinləmələrin, görüşlərin keçirilməsi və digər tədbirlər nəzərdə tutulub.

İclasda komitə üzvləri Asif Əsgərov, Vüqar İskəndərov, Müşfiq Cəfərov, Ülvi Quliyev, Göydəniz Qəhrəmanov, Mahir Süleymanlı, Eyvaz Qurbanov, Səbinə Xasayeva çıxış ediblər, müzakirə olunan məsələlərlə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiq edilib.

❖ ❖ ❖

Milli Məclisin Elm və təhsil komitəsinin 2026-cı il yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Anar İsgəndərov iclasın gündəliyinə 2025-ci ilin payız sessiyası ərzində Elm və təhsil komitəsində görülmüş işlərin hesabatının, komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsinin, habelə "Patent haqqında" Qanununda dəyişiklik edilməsi barədə" (ikinci oxunuş) və "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihələrinin daxil edildiyini söyləyib.

Sonra komitə sədri payız sessiyası ərzində Elm və təhsil komitəsində görülmüş işlərin hesabatını təqdim edib. O, sessiyanın məhsuldar olduğunu, bu müddətdə komitənin 9 iclasının keçirildiyini, 12 məsələnin müzakirə edildiyini bildirib.

Sonra Anar İsgəndərov komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi barədə məlumat verib. O, iş planına qanunvericilik təşəbbüsü qaydasında təqdim olunacaq qanun layihələrinin, habelə qanunlarda ediləcək dəyişikliklərlə bağlı məsələlərin daxil olduğunu, həmçinin sessiya ərzində təhsillə




bağlı ictimai dinləmələrin keçirilməsinin və digər tədbirlərin nəzərdə tutulduğunu söyləyib.

Hər iki məsələ ətrafında müzakirələrdə komitənin sədr müavini Fariz İsmayılzadə, üzvləri Elçin Mirzəbəyli, Ceyhun Məmmədov, Vasif Qafarov, Elnarə Akimova çıxış edərək qeyd və təkliflərini səsləndiriblər.

İclasda komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab edilib, 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

Sonra iclasda "Patent haqqında" Qanunda dəyişiklik edilməsi barədə" (ikinci oxunuş) və "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihələri təqdim edilib.

Nəzərə çatdırılıb ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" Qaydasına əsasən, təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili yalnız ödənişli əsaslarla həyata keçirilir və müvafiq maliyyə xərcləri kadrın çalışdığı təşkilat və yaxud kadrın özü tərəfindən ödənilir. Bunu nəzərə alaraq, normativ hüquqi aktlar arasında ziddiyyətin aradan qaldırılması məqsədilə "Təhsil haqqında" qanunun 14.8-1-ci maddəsində dəqiqləşdirmə xarakterli müvafiq dəyişikliklərin təsbit olunması təklif edilir.

"Patent haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edən şöbə müdiri layihə barədə birinci oxunuşda ətraflı məlumat verildiyini, sənədə dair heç bir əlavə qeydin olmadığını bildirib.

Hər iki qanun layihəsi Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

❖ ❖ ❖

Milli Məclisin Səhiyyə komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. İclası açan komitə sədri Əhliman Əmiraslanov gündəliyə 2025-ci ilin payız sessiyası ərzində Səhiyyə komitəsində görülmüş işlərin hesabatının, komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsinin, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.

Məlumat verilib ki, 2025-ci ilin payız sessiyası ərzində komitənin 15 iclası keçirilib, ümumilikdə 20 məsələ müzakirə olunub. Ötən sessiya dövründə komitəyə vətəndaşlardan 170 müraciət daxil olub. Bunlardan bir qisminin icrası təmin edilib, digər qismi isə baxılması üçün aidiyyəti orqanlara göndərilib.

Səhiyyə komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsi barədə məlumat verən Əhliman Əmiraslanov qeyd edib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələri müzakirə olunacaq və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək.

Məsələlərlə bağlı müzakirələrdə komitənin sədr müavini Rəşad Mahmudov, üzvləri İlham Məmmədov, Müşfiq Məmmədli, Məlahət İbrahimqızı, Günay Əfəndiyeva çıxış edərək fikirlərini söyləyiblər, təkliflərini bildiriblər.

İclasda komitənin 2025-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul hesab edilib, 2026-cı ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

Daha sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, qanun layihələrinə edilən dəyişikliklər onkoloji yardımın göstərilməsi sahəsində mövcud məhdudiyyətlərin aradan qaldırılmasını, bu xidmətlərin "Lisensiyalar və icazələr haqqında" qanunun tələblərinə əsasən onkoloji yardım üzrə lisenziyaya malik özəl tibb müəssisələri tərəfindən də həyata keçirilməsini nəzərdə tutur. Dəyişikliklər onkoloji xəstələrin həkim və tibb müəssisəsi seçmək hüququnun genişləndirilməsinə və tibbi xidmətlərə çıxış imkanlarının artırılmasına xidmət edəcək.

Müzakirələrdə komitənin sədr müavini Rəşad Mahmudov və üzvü Pərvanə Vəliyeva çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər, təkliflərini irəli sürüblər.

İclasın sonunda birinci oxunuşda olan qanun layihəsi baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

❖ ❖ ❖

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2026-ci ilin yaz sessiyasında ilk iclası keçirilib. Komitə sədri Sadiq Qurbanov qarşıdakı sessiyada komitə üzvlərinə fəaliyyətlərində uğurlar diləyib və gündəliyə 3 məsələnin daxil edildiyini bildirib.

Komitə sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin dövlətimizin enerji və ekologiya sahələrində yeni mərhələyə qədəm qoymasına, enerji təhlükəsizliyində beynəlxalq etibarlılığın artmasına və regional əməkdaşlığın inkişafına xidmət etdiyini vurğulayıb.

Gündəliyin birinci məsələsi olan Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2025-ci ilin payız sessiyası ərzində fəaliyyəti barədə hesabatı təqdim edilib. Bildirilib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib və 19 məsələyə baxılıb. 3 qanun layihəsi üçüncü oxunuşda, 3 qanun layihəsi isə birinci oxunuşda baxılaraq, Milli Məclisin müzakirəsinə tövsiyə olunub.

Sonra komitə sədri Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində 2026-cı ilin yaz sessiyasında görüləcək işlər barədə məlumat verib.

Daha sonra iclas cari məsələlərin müzakirəsi ilə davam edib.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Fatma Yıldırım, komitə üzvləri Asif Əsgərov, Afət Həsənova, Naqif Həmzəyev, Vüqar Rəhimzadə, Rövşən Muradov çıxış edərək rəy və təkliflərini bildiriblər.

İclasda müzakirə olunan məsələlər təsdiqlənib.

❖ ❖ ❖

Milli Məclisin Aqrar siyasət komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. Komitənin sədri Tahir Rzayev komitə üzvlərinə növbəti sessiyada fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Tahir Rzayev bildirib ki, iclasın gündəliyinə 3 məsələ - 2025-ci ilin payız sessiyası dövründə Aqrar siyasət komitəsində görülən işlər barədə hesabat, komitənin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsi və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi daxil edilib.

Komitə sədri payız sessiyasında görülmüş işlər barədə məlumatı təqdim edərək, 2025-ci ilin ölkənin sosial-iqtisadi həyatında əlamətdar hadisələrlə yadda qaldığını, Azərbaycan Prezidentinin düşünülmüş müdrik siyasətinin ölkənin iqtisadi inkişafına, insanların rifah halının yaxşılaşmasına, perspektiv vəzifələrin daha dolğun yerinə yetirilməsinə böyük təkan verdiyini vurğulayıb. Qeyd edib ki, dövlət başçısının qarşıya qoyduğu vəzifələr parlament tərəfindən yüksək səviyyədə həyata keçirilir. O, bu baxımdan ötən ilin Aqrar siyasət komitəsi üçün də uğurlu olduğunu söyləyib.

Diqqətə çatdırılıb ki, Aqrar siyasət komitəsi ötən sessiya dövründə qanunvericilik işləri planına uyğun fəaliyyət göstərib. Bu müddətdə komitənin 8 iclası keçirilib, 8 məsələyə, o cümlədən 6 qanun layihəsinə baxılıb. Hesabat dövründə komitə tərəfindən aidiyyəti qurumların nümayəndələrinin də iştirakı ilə "İxtisaslı kadr hazırlığı aqrar sektorun inkişafının əsasıdır" mövzusunda ictimai dinləmə təşkil olunub, geniş müzakirələr aparılıb.

Qeyd olunub ki, payız sessiyası ərzində komitənin ünvanına 64 məktub, təklif, ərizə daxil olub, müraciətlərdəki məsələlərin həlli ilə bağlı aidiyyəti təşkilatlara məktublar göndərilib, ərizələrin əksəriyyəti müsbət cavablandırılıb.

Sonra Tahir Rzayev komitənin 2026-cı il yaz sessiyası üçün iş planının layihəsindən söhbət açıb. O bildirib ki, bu sessiya ərzində qanunvericilik təşəbbüsü qaydasında təqdim ediləcək qanun layihələrinə, bir sıra qanunlarda dəyişikliklərin edilməsi haqqında sənədlərə baxılacaq. Habelə komitəyə müvafiq orqanlardan və vətəndaşlardan daxil olan təkliflərin təhlili, işğaldan azad olunmuş ərazilərdə görülən işlər və aqrar sahədə əldə olunan nəticələrin təbliği ilə bağlı mediada çıxışların edilməsi nəzərdə tutulub. Bununla yanaşı, aidiyyəti qurumlarla, sahibkarlarla əməli əməkdaşlığın davam etdirilməsi, görüşlərin keçirilməsi planlaşdırılır.

Sonra komitə sədri "Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsini birinci oxunuşda təqdim edib.

Bildirilib ki, qanun layihəsi dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və aerodromların inşası zərurətinin torpağın alınmasına əsas verən dövlət ehtiyacları siyahısına daxil edilməsi məqsədilə hazırlanıb və sənəddə adıçəkilən qanunlarda müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Təqdim olunan məsələlər ətrafında aparılan müzakirələrdə komitənin sədr müavini Razi Nurullayev, üzvləri Eldar İbrahimov, Cavanşir Paşazadə, Azər Badamov, Vüqar İskəndərov, Novruzəli Aslanov, Aydın Hüseynov çıxış ediblər, qeyd və təkliflərini açıqlayıblar.

İclasda payız sessiyasında komitədə görülmüş işlər məqbul hesab olunub, yaz sessiyası üçün komitənin iş planının layihəsi təsdiq edilib, gündəlikdəki qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Dövlətimizin başçısının sülh gündəliyi qlobal miqyasda qəbul olunur

Prezident İlham Əliyev dünyada Azərbaycanın ərazi bütövlüyünü bərpa edən və milli maraqlarını qətiyyətlə qoruyan güclü lider kimi qəbul olunur. Bu, dövlətimizin başçısının qüdrətli siyasətçi kimi beynəlxalq imicini formalaşdırıb. Prezident İlham Əliyevin siyasəti daxili sabitliyə, ölkənin inkişafına və Azərbaycanın mühüm regional aktor kimi tanınmasına yönəlib. Dövlətimizin başçısının qətiyyət, iradə, prinsipiallıq, alicənablıq kimi keyfiyyətləri bu strateji məqsədlərə çatmaq üçün əsas olub.



Burada alman dövlət xadimi Otto fon Bismarkın bir fikrini qeyd etmək istərdim. O deyirdi: "Bir millətin taleyi onun liderinin xarakteri ilə müəyyən edilir". Azərbaycan üçün bu tezis mücərrəd deyil, praktikdir. Mürəkkəb regional və qlobal mühitdə dövlətimizə siyasətin davamlılığını, daxili sabitliyi və milli maraqların ardıcıl qorunmasını təmin etməyi bacaran bir lider - Prezident İlham Əliyev rəhbərlik edir.

Dövlət strategiyasını müəyyən edən bütün bu göstəricilərin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi sevindirici haldır. Bunun bariz nümunəsi Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən 2026-cı il "İnsan Qardaşlığı üzrə Zayed Mükafatı"nın Azərbaycan Prezidentinə verilməsidir. Xüsusilə diqqətəlayiqdir ki, fondun rəsmi saytında yerləşdirilən məlumatda bu mükafatın Qafqazda onilliklər boyu davam edən münaqişələrə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Sülhün Qurulması və Dövlətlərarası Münasibətlər haqqında Saziş"in paraflanmasına görə verildiyi vurğulanır. "İnsan Qardaşlığı üzrə Zayed Mükafatı" münsiflər heyətinin üzvü və mükafatın baş katibi Məhəmməd Əbdülsəlamın vurğuladığı kimi, "Bu il İnsan Qardaşlığı üzrə Zayed Mükafatı Komitəsi Ermənistan və Azərbaycan arasında tarixi sülh müqaviləsini seçdi. Bu müqavilə mükafatın dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişaf etdirilməsi missiyasını və məqsədlərini təcəssüm etdirir. Bu, qlobal sülhün inkişafında mühüm mərhələ və böyük diplomatik nailiyyət hesab olunur". Bu qiymətləndirməyə yalnız əlavə etmək olar ki, bu nüfuzlu mükafat təkcə Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətlərini əks etdirmir, həm də münaqişədən sonrakı dövrdə Azərbaycan dövləti tərəfindən hazırlanmış sülh gündəliyinin qlobal miqyasda tanındığını nümayiş etdirir.

2020-ci ilin payızında Vətən müharibəsində qalib gələn və 2023-cü ilin sentyabrında birgünlük antiterror əməliyyatını uğurla həyata keçirən Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etdi və dünyaya ərazi mübahisələrinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll edilə biləcəyini göstərdi. Bütün bunlar Azərbaycan dövlətinin həm əməkdaşlıq mühitinin yaradılması üçün ilkin şərtlərin yaradıldığı Cənubi Qafqaz regionunda, həm də qlobal miqyasda mövqeyini gücləndirdi.

Sonrakı dövrdə rəsmi Bakı sülh və təhlükəsizliyə yönəlmiş gündəliyini məqsədyönlü şəkildə irəli sürdü. Bu yolda Cənubi Qafqazda yeni gərginlik ocağı yaratmağa çalışan Ermənistandakı revanşist qüvvələr müqavimət göstərməyə çalışsalar da, niyyətlərinə çata bilmədilər. Prezident İlham Əliyev bu prosesdə Azərbaycanın maraqlarını qətiyyətlə təmin etdi.

Prezident İlham Əliyev bəyan etdiyi mövqelərdən bir an və ya bir addım da olsun yayınmadan beynəlxalq səviyyədə Bakının sülh gündəliyinin fundamental prinsiplərini ardıcıl olaraq təmin etdi. Bu, 8 avqust 2025-ci ildə "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün qurulması və dövlətlərarası münasibətlər haqqında Saziş" layihəsinin paraflanması ilə nəticələndi.

Bu hadisə Azərbaycanın qlobal səhnədə qalib ölkə kimi statusunu bir daha təsdiqlədi. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Cənubi Qafqaz və bəlkə də daha geniş region üçün mövcudluq təhlükəsi yaradan münaqişə tarixin arxivinə göndərildi.

Prezident İlham Əliyevin təşəbbüsləri regionda sülhün və sabitliyin təmin edilməsinə yönəlmişdir və dövlətimizin başçısı bunu real addımlarla nümayiş etdirir. Onun Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasındakı rolu qlobal səhnədəki mürəkkəb problemlərin uğurla həll edilməsinin nümunəsi kimi vurğulanır.

Bu gün Azərbaycanda sabitlik hökm sürür. Bu, onun milli liderinin böyük şəxsiyyət olduğunu göstərir. Liderin siyasi iradəsi və qətiyyəti həm inkişaf vektorlarını, həm də daxili sabitliyi, eləcə də ölkənin beynəlxalq arenadakı qələbələrini müəyyən edir. Prezident İlham Əliyevə nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın verilməsi Azərbaycana bütün beynəlxalq ictimaiyyət tərəfindən hörmət edilən bir lider tərəfindən rəhbərlik edildiyini bir daha təsdiqləyir.

Ümummilli Liderimiz Heydər Əliyev deyib: "Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz təmin edilsin, Azərbaycan müharibə şəraitindən çıxa bilsin". Ulu Öndərin özü qədər inandığı Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq, bu tarixi missiyanı yüksək vətəndaşlıq mövqeyi və vətənpərvərlik hissi ilə uğurla həyata keçirdi. Hər kəs Prezident İlham Əliyevin ikili standartlara, ədalətsizliyə, bərabərsizliyə qarşı apardığı mübarizəni və onun real nəticələrini təsdiq edir.

***Hicran HÜSEYNOVA,***
***Milli Məclisin komitə sədri, professor***

# Prezident İlham Əliyevin misilsiz fəaliyyəti Azərbaycanı nüfuzlu dövlətə çevirib

Prezident İlham Əliyev yanvarın 20-də Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclasında iştirak edib. İclasda dövlətimizin başçısı regional təhlükəsizlik, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin indiki vəziyyəti, tarixi Vaşinqton razılaşmaları və onun icrası prosesi, iki dövlət arasında etimad mühitinin formalaşması istiqamətində atılan addımlar, regionun coğrafi mövqeyi və digər məsələlər ətrafında mövqeyini ifadə edib.



Milli Məclisin deputatı Elman Nəsirov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev, ilk növbədə, diqqəti 1991-ci ildə müstəqillik əldə etdikdən sonra heç vaxt dinc şəraitdə yaşamadığımıza, həmişə müharibə vəziyyətində olduğumuza çəkib: "Ölkə rəhbəri bildirib ki, yalnız son 5-6 ay ərzində müharibəsiz regionun necə olduğunu dərk edirik, artıq atəşkəs pozulmur və Vaşinqton razılaşmaları icra edilir. Bir çox hallarda beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar icra olunmur. Bu gün müasir beynəlxalq sistemin özündə köklü dəyişikliklər baş verməkdədir. Beynəlxalq hüquq işləmir, dövlətlər öz aralarında ikitərəfli formatda münasibətlərin tənzimlənməsi ilə bağlı daha ciddi nailiyyətlərə imza ata bilirlər. Azərbaycan-Ermənistan münasibətləri də bu baxımdan istisna deyil".

Deputat qeyd edib ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülh prosesinə töhfələr verib, artıq sülh sazişi paraflanıb. ABŞ-nin bu prosesə böyük dəstəyi var. Prezident İlham Əliyev bu baxımdan TRIPP layihəsinə diqqəti cəlb etdi. Dövlət başçısı Zəngəzur dəhlizinin açılmasının icra prosesindən bəhs edərək bildirdi ki, bu layihə də reallaşacaq və sözün həqiqi mənasında, Cənubi Qafqaz regionuna uzunmüddətli və dayanıqlı sülh gələcək. "Cənab Prezidentin bu mövqeyi Ermənistan Prezidenti tərəfindən də dəstəkləndi. İlham Əliyevin "biz sülh şəraitində yaşamağa öyrəşməliyik" fikrinin çox ciddi mənası və əhəmiyyəti var. Çünki sülh şəraitində yaşamaq üçün etimad mühiti olmalıdır və bunu qazanmaq və formalaşdırmaq lazımdır. Bu istiqamətdə də proseslər davam edir. Bir neçə il bundan qabaq bu gün baş verən prosesləri proqnozlaşdırmaq mümkün deyildi", - deyə E.Nəsirov əlavə edib.

E.Nəsirov bildirib ki, Azərbaycanın neft məhsulları da Ermənistan bazarına daxil olub və bunun sayəsində orada benzinin qiyməti aşağı düşüb. Bu, onun göstəricisidir ki, iki ölkə əməkdaşlıq etdikdə, kommunikasiyaların bərpası istiqamətində real addımlar atdıqda daha yüksək nəticələr əldə etmək olur.

Deputat vurğulayıb ki, Orta dəhliz və onun mühüm tərkib hissəsi olan TRIPP layihəsi vasitəsilə Asiyadan yüklər Zəngəzur dəhlizindən keçməklə, Naxçıvana, oradan Türkiyə və Avropa bazarına çatdırılacaq: "Burada bütün tərəflər uduşlu vəziyyətdədir. Yəni əməkdaşlıq mühiti ona gətirib çıxaracaq ki, Ermənistan da öz mallarını Azərbaycan ərazisindən tranzit yolu ilə ixrac edə biləcək. Bununla Ermənistan iqtisadiyyatı canlanacaq və əməkdaşlıq, etimad mühiti nəticə etibarilə iki xalqın, dövlətin sülh şəraitində yaşamasını təmin edəcək. Ölkəmizin rəhbərinin bu mövqeyini Serbiya Prezidenti Vuçiç də dəstəkləyib. O, çıxışının sonunda fikrini belə ifadə etdi: "Cənab Prezident İlham Əliyevin söylədiyi fikirlərlə bağlı bir mövqe var: o, həqiqətən də müasir dünyada böyük, dahi liderlərdən biridir və indiki dövrdə belə bir lideri çox nadir halda görmək olur. Bunun çox böyük təsir effekti var və bu, danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük".

Bu, Serbiya Prezidenti Aleksandar Vuçiçin Prezident İlham Əliyevə verdiyi yüksək qiymətdir. Dünyanın əksər liderləri də bu mövqeyi bölüşürlər. Prezident İlham Əliyevin beynəlxalq aləmdə misilsiz fəaliyyəti sayəsində Azərbaycanın sözünün məna və çəkisi xeyli yüksəlib. Dövlətimizin başçısının Davos forumunda iştirakı və burada keçirdiyi görüşlər, təmaslar, panel müzakirələrdə səsləndirdiyi fikirlər və bunlara çox böyük önəm verilməsi təsdiqləyir ki, cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünyada çox böyük nüfuza və hörmətə malik dövlətə çevrilib. Ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması prosesinə də böyük töhfələr verir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan yeni siyasi reallıqlara uyğun praqmatik və çevik diplomatiya həyata keçirir

Davos İqtisadi Forumu 1971-ci ildə əsası qoyulduğu vaxtdan etibarən iqtisadi və maliyyə məsələlərinin dominantlıq təşkil etdiyi platforma olsa da, son illərdə, xüsusilə də bu il siyasi mövzularla daha çox gündəmdədir. Ayrı-ayrı regionlarda münaqişələrin artması, qeyri-sabitlik, tarif siyasətindən doğan təlatümlər və ümumi geosiyasi gərginlik fonunda bu mövzular Davos Forumunun müxtəlif sessiyalarında əsas müzakirə predmetinə çevrilib.



Xüsusilə forum ərəfəsində keçirilən sorğuda respondentlərin böyük hissəsi növbəti onillikdə dünyanı ən çox narahat edəcək iki əsas risk faktoru kimi, geoiqtisadi çəkişmələri və bunun yaratdığı qeyri-müəyyənlikləri və dövlətlərarası münaqişələri və onların mümkün fəsadlarını göstərib. Bu da onu deməyə əsas verir ki, Davos artıq təkcə iqtisadi platforma deyil, eyni zamanda qlobal siyasi risklərin müzakirə edildiyi mühüm beynəlxalq məkandır. Məhz bu mövzuların da əhatə olunduğu "Avrasiyanın kimliyi" mövzusuna həsr edilən sessiyada cənab Prezident İlham Əliyev "Euronews" televiziya kanalının müxbirinin moderatorluğu ilə keçirilən sessiyada çıxış edib, eyni zamanda "Euronews" kanalına müsahibə verib.

"Euronews"la müsahibədə ünvanlanan əsas suallardan biri regionda risklərlə potensial arasında tarazlığın yaradılması məsələsi ilə bağlı olub. Cənab Prezidentin verdiyi cavab bir daha göstərdi ki, Azərbaycan dövləti təkcə riskləri idarə etmək bacarığını nümayiş etdirməyib, eyni zamanda riskləri resursa çevirməyi də bacarıb. Buna nümunə kimi, 30 il işğalçı siyasət yürütmüş və bütün parametrlər üzrə ciddi risk mənbəyi olan Ermənistanın bu gün regional sabitlik və əməkdaşlıq müstəvisində tərəfdaşlığa cəlb edilməsi istiqamətində aparılan siyasəti göstərmək olar. Belə ki, Azərbaycan işğal faktorunun regionda yaratdığı riskləri aradan qaldırmaqla yanaşı, sülh gündəliyi vasitəsilə regional sabitliyi, iqtisadi əməkdaşlığı və inteqrasiyanı təmin etməyə çalışır. Bu kontekstdə Ermənistan Azərbaycanın irəli sürdüyü sülh və əməkdaşlıq gündəliyi çərçivəsində əməkdaşlıq modelinə cəlb olunub. 30 il regional təhlükəsizliyə və əməkdaşlığa təhdid olan Ermənistan Azərbaycanın ardıcıl və mərhələli sülh təşəbbüsləri sahəsində tərəfdaş olmaq yolunda addımlayır, iki tərəfli münasibətlər mərhələli şəkildə əməkdaşlıq istiqamətində irəliləyir. Beləliklə, Azərbaycan Ermənistanın işğalına son qoymaqla həm də riski idarə etmək və onu resursa çevirmək imkanlarını sübut etdi.

Təbii ki, bu yanaşma Azərbaycan Respublikasının sülh gündəliyinin müxtəlif beynəlxalq platformalarda təqdir olunmasına səbəb olur. Azərbaycan Prezidentinin 2025-ci il ərzində Yaxın Şərq Sülh Sammitində iştirakı, Avropa Siyasi Birliyinin Kopenhagen və Tirana Zirvə görüşlərində bu məsələlərə göstərilən diqqət də bunu təsdiqləyən məqamlardandır. Eyni zamanda ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılması təklif edilən "Sülh Şurası"na Azərbaycanın təsisçi dövlət kimi dəvət olunması da ölkəmizin malik olduğu sülh gündəliyinə verilən yüksək dəyərin göstəricisi hesab oluna bilər.

ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə "Sülh Şurası" adlı beynəlxalq təşkilatın yaradılması və Azərbaycanın bu quruma təsisçi üzv dövlət qismində dəvət olunması Prezident İlham Əliyevin prinsipial və ardıcıl sülh gündəliyinin beynəlxalq səviyyədə qəbul olunduğunu təsdiqləyən mühüm siyasi hadisədir. Bu dəvət təsadüfi deyil, şanli zəfərimizdən sonra Azərbaycanın regional miqyasda formalaşmış yeni siyasi reallıqlarda konstruktiv, məsuliyyətli və etibarlı aktor kimi çıxış etməsinin nəticəsidir.

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa ünvanladığı məktub Azərbaycanın beynəlxalq sülh gündəliyində tutduğu mövqenin və yeni formalaşmaqda olan qlobal siyasi arxitekturada oynamaq istədiyi rolun aydın ifadəsidir. Məktub həmçinin Azərbaycanın prinsipial, balanslı və məsuliyyətli xarici siyasət xəttini əks etdirir. Eyni zamanda məktubda ABŞ Prezidentinin Sülh Şurasının sədri kimi təqdim olunması və onun liderliyinə verilən yüksək qiymət Azərbaycanın yeni siyasi reallıqlarda praqmatik və çevik diplomatiya yürütmək qabiliyyətini göstərir. Bu, Azərbaycanın qlobal güc mərkəzləri ilə əməkdaşlıq və dialoq xəttini seçdiyini bir daha təsdiqləyir. Prezident İlham Əliyevin bu məktubu Azərbaycanın sülhü institusional və beynəlxalq mexanizmlər vasitəsilə dəstəkləmək niyyətində olduğunu göstərən mühüm siyasi mesajdır. Bu addım həm də Azərbaycanın yeni dünya nizamında sülh, sabitlik və əməkdaşlıq gündəliyinin formalaşmasına töhfə vermək, tərəfdaş olmaq niyyətinin təzahürüdür.

Yeni beynəlxalq siyasi şəraitdə - klassik təhlükəsizlik institutlarının effektivliyinin zəiflədiyi, regional münaqişələrin qlobal təsirlərə çevrildiyi bir dövrdə - alternativ sülh mexanizmlərinə ehtiyac açıq şəkildə hiss olunur. Bu kontekstdə Azərbaycanın Sülh Şurasının təsisçiləri sırasında yer alması ölkəmizin beynəlxalq münasibətlər sistemində artan çəkisini və normayaratma proseslərində iştirak imkanlarını genişləndirir.

Prezident İlham Əliyevin sülh gündəliyi regional kommunikasiyaların açılması, suverenliyin və ərazi bütövlüyünün tanınması, beynəlxalq hüquqa əsaslanan münasibətlər modeli üzərində qurulub. Azərbaycan bu yanaşmanı yalnız bəyanat səviyyəsində deyil, real siyasi və diplomatik addımlarla nümayiş etdirir. Sülh Şurasında təmsilçilik də məhz bu strateji xəttin davamına xidmət etmiş olar.

Azərbaycanın beynəlxalq sülh təşəbbüslərində iştirakı ölkəmizin yeni dünya nizamında passiv müşahidəçi deyil, proseslərə təsir göstərən fəal tərəf olduğunu bir daha təsdiqləyir. Bu addım Prezident Əliyevin liderliyinin beynəlxalq etimad qazandığını, həm də Azərbaycanın sülh, sabitlik və əməkdaşlıq platformalarında milli maraqlarımıza uyğun məsuliyyət götürmək potensialına malik olduğunu göstərir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı, siyasi elmlər doktoru***

# Azərbaycan yeni dünya nizamında ədalətli siyasət yürütməsi ilə tanınır

Dünya İqtisadi Forumunun İsveçrənin Davos şəhərində keçirilən illik toplantısı qlobal siyasi və iqtisadi gündəmin müəyyənləşdirdiyi əsas platformalardan biri kimi bu il də diqqət mərkəzində oldu. Forum çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi görüşlər və "Euronews" televiziyasına verdiyi müsahibə ölkəmizin beynəlxalq mövqeyini, regional və qlobal proseslərə baxışını aydın şəkildə ortaya qoydu.

Davosda keçirilən builki forumda rekord sayda dövlət və hökumət başçısının iştirakı tədbirin qlobal nüfuzunun artdığını bir daha təsdiqləyir. Belə ki, bu il Davos Dünya İqtisadi Forumu 130-dan çox ölkədən 3000-ə yaxın nümayəndəni bir araya gətirib. Forumun əsas mövzusu "A Spirit of Dialogue" ("Dialoq ruhu") kimi müəyyən edilib. Geosiyasi, iqtisadi və texnoloji parçalanmanın dərinləşdiyi bir dövrdə dialoqun vacibliyini ön plana çıxaran bu mövzu Azərbaycanın xarici siyasət prioritetləri ilə səsləşir.

Prezident İlham Əliyevin yanvarın 20-də Davosda "Euronews" televiziyasına verdiyi müsahibə isə Azərbaycanın regional deyil, qlobal miqyasda tanınan, təqdir edilən dövlət olduğunu bir daha nümayiş etdirdi.

Bu gün biz beynəlxalq münasibətlərin yeni mərhələyə qədəm qoyduğu bir dövrdə yaşayırıq. Təəssüf ki, dövlətlərin suverenliyi və ərazi bütövlüyü kimi fundamental prinsiplərin hamı tərəfindən birmənalı qəbul olunmaması müasir beynəlxalq sistemin əsas problemlərindəndir. Bu reallıq Azərbaycan üçün xüsusilə tanışdır. Məhz beynəlxalq hüquqa ikili standartlarla yanaşma nəticəsində ölkəmizin ərazilərinin iyirmi faizi otuz ilə yaxın Ermənistanın işğalı altında qaldı. Lakin Azərbaycan bütün haqsızlıqlara rəğmən öz mövqeyindən geri çəkilmədi, bu ədalətsizliyə də beynəlxalq hüquq çərçivəsində son qoydu, BMT tərəfindən tanınmış ərazilərini işğaldan azad etdi. Prezident İlham Əliyevin "Euronews"a müsahibəsində əsas mesajlarından biri də məhz beynəlxalq hüquq normalarının hamı üçün eyni dərəcədə işləməsinin vacibliyi oldu. Dövlətimizin başçısı qeyd etdi ki, biz elə bir vəziyyətlə üzləşirik ki, beynəlxalq hüquq normaları dünya ictimaiyyətinin bütün üzvləri üçün artıq mütləq görünmür: "Buna görə strateji məqsədimiz milli maraqlar əsasında nəticələri əldə etməkdən ibarət idi və beynəlxalq hüquqa tam riayət edərək düzgün hesab etdiyimizi həyata keçirmək idi. Gördüyümüz hər bir iş - istər siyasi inkişaf, istərsə də suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası beynəlxalq hüquqa və ümumi dəyərlərə uyğun idi. Beləliklə, qeyd etdiyiniz kimi, beynəlxalq münasibətlər bu gün yeni eraya qədəm qoyur. Bu erada vəziyyəti qanunun aliliyi deyil, güc qaydası idarə edir. Biz bunu dünyanın müxtəlif yerlərində görə bilərik. Buna görə o, bir daha göstərir ki, hər ölkə öz strategiya və siyasətini özünün potensialına uyğunlaşdırmalıdır, o cümlədən mümkün qədər çox ölkələrlə, ilk növbədə öz bölgəsində, sonra isə qlobal müstəvidə yaxşı münasibətlər qurmalıdır. Azərbaycan məhz buna nail oldu".

Müsahibədə xüsusilə diqqət çəkən məqamlardan biri də Cənubi Qafqazda yeni formalaşan sülh mühiti ilə bağlıdır. Azərbaycanın xarici siyasətinin əsas məqsədi sülh şəraitində yaşamaqdır. Təəssüf ki, XX əsrin sonlarında müstəqilliyinə qovuşan respublikamız uzun illər buna nail ola bilməmişdi. 1990-cı illərdə, SSRİ-nin dağıldığı, ittifaqa daxil olan respublikaların azadlığa çıxdığı, öz müqəddəratlarını müəyyən etmək hüququ qazandığı bir vaxtda Azərbaycan Ermənistanla münaqişəyə cəlb olundu. Birinci Qarabağ müharibəsi baş verdi. Qarabağ və Şərqi Zəngəzur ərazilərimiz Ermənistan tərəfindən qəsb edildi. Azərbaycan dövlətinin qətiyyətli mövqeyi, gücü sayəsində münaqişəyə son qoyuldu. 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin təxribatı səbəbindən başlayan İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun Zəfəri ilə başa çatdı. Qalib Azərbaycan dövləti Ermənistanla sülh sazişinin imzalanmasının da təşəbbüskarı oldu. Artıq bu istiqamətdə məqsədyönlü addımlar atılmaqdadır.

Dövlətimizin başçısı "Euronews" televiziyasına müsahibəsində Cənubi Qafqazda yaranmış reallıqlara da toxundu. Bildirdi ki, bu gün Cənubi Qafqaz həmçinin yeni inkişaf mərhələsinə daxil olur: "Biz beş-altı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir". Prezident İlham Əliyev bu gün Azərbaycan ilə Ermənistan arasında artıq əməkdaşlığa çevrilən münasibətlərdən də bəhs etdi və ölkəmizin bu məsələ ilə bağlı məqsədini açıqladı: "Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri götürdük. Bundan əlavə, biz Ermənistanın əsasən asılı olduğu əsas malların, ilkin növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq. Bu vəziyyətdən hamı udur. Beləliklə, düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq. Məqsədimiz budur".

Cənubi Qafqazda sülhün uğurla, addım-addım irəliləməsi, bütün regiona sirayət etməsi dünyada sevindirici hal kimi dəyərləndirilməlidir. Ancaq Azərbaycan ilə Ermənistan arasında sülh prosesindən narahat olan xarici dairələrin fəaliyyəti təəssüf doğurur. Sözügedən müsahibədə Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi birtərəfli və qərəzli qərarların beynəlxalq hüquqa zidd olduğu vurğulandı. Prezident İlham Əliyev "Euronews" televiziyasına müsahibəsində Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyasının Azərbaycana qarşı uzun illərdir davam edən qərəzli mövqeyinə münasibətini açıq və prinsipial şəkildə ifadə etdi. Dövlətimizin başçısı bildirdi ki, artıq uzun illərdir biz Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası ilə istənilən əməkdaşlığı dayandırmışıq, biz Avropa Komissiyası ilə əməkdaşlıq edirik və bununla kifayətlənirik: "Düşünürəm ki, Ermənistanın özünün Azərbaycanla əlaqələri yüksək qiymətləndirdiyi bir vaxtda, bizi heç vaxt etmədiyimizdə, o cümlədən Ermənistana qarşı "təcavüzkar mövqedə" olmağımızda ittiham etməklə Avropa Parlamenti özünü çox qəribə vəziyyətə salır".

Prezident İlham Əliyevin Davosda "Euronews" televiziyasına verdiyi müsahibə göstərdi ki, Azərbaycan yeni beynəlxalq reallıqlar fonunda öz strateji xəttini milli maraqlara əsaslanaraq müəyyənləşdirib. Güc amilinin ön plana çıxdığı bir dövrdə ölkəmiz beynəlxalq hüquqa sadiqliyini qoruyaraq, balanslaşdırılmış xarici siyasət yürüdür. Bu yanaşma Azərbaycanın regional sabitliyə və beynəlxalq əməkdaşlığa verdiyi töhfənin əsasını təşkil edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Baş verən müharibələrin, dərinləşən münaqişələrin, beynəlxalq münasibətlər sistemində etimad böhranının yaşanmasının fonunda da aydın görünür ki, bu gün dünyanın qarşısında duran ən vacib çağırışlardan biri davamlı sülhün təmin olunmasıdır. Bəzi siyasi analitiklərin proqnozlarına görə hətta bəşəriyyətin Üçüncü Dünya müharibəsinin astanasında olduğu bu qarmaqarışıq dövrdə sülhə xidmət edən liderlərin fəaliyyəti xüsusilə ön plana çıxır. Bu mənada Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də təsadüfi olmadı.**




# Ədaləti və barışı təmin edən lider

## "Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycan Prezidentinin sülhü bərqərar edən siyasətinə verilən yüksək dəyərdir

Bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, ölkəmizin sülh gündəliyinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsinin bariz nümunəsi olan bu mükafat Azərbaycan Prezidentinin qlobal sülh səylərinə, şəxsi əzmi, qətiyyəti və prinsipiallığı ilə Cənubi Qafqazda de-fakto sülhü təmin etməsinə verilən yüksək qiymət, dövlətimizin rəhbərinə göstərilən beynəlxalq ehtiramın təzahürü kimi dəyərləndirilməlidir.

Yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsi zamanı Prezident İlham Əliyev söylədi ki, belə nüfuzlu mükafatı almaq onun üçün böyük şərəfdir: "Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm".

Yalnız regional deyil, beynəlxalq miqyasda da daim sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edən Azərbaycanın sülh modeli bu gün dünyada təqdirlə qarşılanır, nümunə götürülür. Ümumiyyətlə, ərazilərinin 20 faizi işğal altında olduğu üç onilliyə yaxın müddətdə də Azərbaycan münaqişənin dialoq və sülh yolu ilə həllinin tərəfdarı oldu. Ancaq Ermənistan və ona himayədarlıq edən bəzi beynəlxalq təşkilat və ölkələr bu münaqişənin həll olunmasında maraqlı deyildilər və sülhə gedən yola daim maneələr qoymaqla məşğul olurdular. İşğal faktını heç zaman qəbul etməyən Azərbaycan isə süni şəkildə dondurulmuş bu vəziyyəti güc yolu ilə dəyişdi. İkinci Qarabağ müharibəsində BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsini özü icra edərək ərazilərinin işğalına son qoyan ölkəmiz bununla həm beynəlxalq hüququ, həm də ədaləti bərpa etdi.

2025-ci ilin 25 sentyabr tarixində Nyu Yorkda keçirilən BMT Baş Assambleyasının 80-ci sessiyasına Prezident İlham Əliyevin Qarabağ məsələsini məhz öz qətiyyəti və uzaqgörən siyasəti sayəsində nizama salan və elə BMT TŞ-nin onilliklərdir kağız üzərində qalan qətnamələrini yerinə yetirən və sülh yaradan lider kimi yollanması da dünya tarixində rastlanmamış hal idi.

Otuz ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllindən sonra rəsmi Bakının seçdiyi siyasi xətt də elə barış və qarşılıqlı anlaşma oldu.

Bu isə bir daha göstərdi ki, Azərbaycan üçün müharibə heç vaxt məqsəd olmayıb, əsas hədəf dayanıqlı sülhün bərqərar olması idi ki, bu gün praktik müstəvidə də bunun həllini tapdığını görürük.

"Biz dayandıq. Otuz il əziyyət çəkmiş ölkənin lideri olaraq lazımi vaxtda dayanmaq olduqca məsuliyyətli və vacib qərar idi. Biz davam edə bilərdik. Mən sizinlə və burada əyləşənlərlə çox açıq danışmaq istəyirəm. Ancaq belə olduğu halda, bu sonsuz müharibələr daha çox əziyyət və qurbanlar ilə nəticələnəcəkdi. Beləliklə, müharibə heç vaxt bitməyəcəkdi. Kimsə bunu dayandırmalı idi və biz buna son qoymaq qərarına gəldik", - deyə yanvarın 20-də Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclası zamanı bu məqamla bağlı Prezident İlham Əliyev fikirlərini bildirdi.

Bölgədə formalaşdırılmış sülh mühiti, regional kommunikasiyaların açılması, qarşılıqlı etimad mühitinin yaradılması istiqamətində mühüm addımların atılması Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi sülh gündəliyi sayəsində mümkün olub. Prezident İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti bölgədə sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, eləcə də Cənubi Qafqaz regionunun inkişaf, tərəqqi və əməkdaşlıq məkanına çevrilməsinə xidmət edir.

Ərazi bütövlüyünü və suverenliyini öz gücünə təmin edən Azərbaycanın qətiyyətli siyasəti nəticəsində münaqişə edən tərəflər bu gün bütün problemlərini masa arxasında həll etmək yolunu seçiblər.

Qlobal arenada siyasi müstəvidə də qələbəsini qəbul etdirən Azərbaycanın səyləri ötən il 8 avqust tarixində Vaşinqton Sammitində sülh sazişinin mətninin paraflanmasına gətirib çıxardı. Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin paraflanması bölgədə münaqişə səhifəsini bağladı, tərəqqi və inkişaf vəd edən geniş qapılar açdı.

Azərbaycan sülh prosesi çərçivəsində atdığı konstruktiv addımlarla həm də kommunikasiya əlaqələrinə əlavə töhfələr verir. Ötən il Azərbaycanın Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırması, eyni zamanda ölkəmizdən neft məhsullarının tədarükünə başlanılması, həmçinin iki ölkənin vətəndaş cəmiyyətlərinin İrəvan və Bakıya qarşılıqlı səfərləri, bu günlərdə təqsirləndirilən 4 erməniəsilli şəxsin İrəvana təhvil verilməsi kimi çoxsaylı nümunələr də sülhə xidmət edən əməllərdir.

Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasda Prezident İlham Əliyev vurğuladı ki, paraflanmış sənəd bu gün praktiki nəticələrə çevrilir: "Biz sülh şəraitində nəinki cəmi 5-6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq, o cümlədən nə Ermənistan, nə Azərbaycan müstəqil ölkələr kimi heç zaman sülhdə yaşamayıblar. 1991-ci ildə müstəqil ölkəyə çevrildiyimiz zaman biz artıq hərbi toqquşmada idik. Lakin bu gün sülhün faydası əməkdaşlığın başlanmasında əks olunur".

Bu kontekstdə Azərbaycan liderinin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi həm də Bakının liderliyi ilə irəlilədilən sülh gündəliyinin beynəlxalq səviyyədə də diqqətlə izlənildiyini və təqdir edildiyini göstərir. Bu ali mükafat, eyni zamanda Azərbaycanın haqq və ədalətə əsaslanan mövqeyinin beynəlxalq aləmdə qəbul edildiyini ortaya qoyur.

Prezident İlham Əliyev sülhə aparan yolun ən çətin mərhələlərində belə prinsipial mövqedən geri çəkilməyərək onu təmin etmək üçün böyük səy nümayiş etdirdi. Elə bu sayədə əldə olunan nəticələr də bir daha göstərdi ki, Azərbaycan sülhpərvər siyasət yürüdən ölkədir.

O da reallıqdır ki, ölkəmiz təkcə bölgədə deyil, dünyada barışın əldə olunması üçün hər zaman mühüm təşəbbüslərlə çıxış edir, qlobal çağırışlara yüksək töhfələr verir, münaqişələrin, qarşıdurmaların aradan qaldırılması üçün çalışır. Dövlətimizin başçısı İlham Əliyevin dünyada sülh yaradan lider kimi tanınması dəfələrlə müharibənin kənarına gələn ölkələr arasında vasitəçilik etməklə tarixi barışdırıcılıq missiyası həyata keçirməsi, bir sözlə, bütün fəaliyyəti ilə dünyada sülhə xidmət etməsi ilə də birbaşa əlaqədardır.

Bu il yanvarın 9-da Prezident İlham Əliyev Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib.

Görüş zamanı Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamın "Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün zati-alinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir.

Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın həqiqətən buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir. Cənab Prezident, Sizə həqiqətən təşəkkürümüzü bildiririk", - deməsi də Prezident İlham Əliyevin sülh missiyasına verilən böyük dəyəri özündə ehtiva edir.

Bir sözlə, "Zayed İnsan Qardaşlığı Mükafatı" Prezident İlham Əliyevin qlobal miqyasda sülhə töhfə verən siyasi xadim kimi qəbul olunduğunu, nümunə yaratdığını bir daha təsdiqləyir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Prezidentinin mükafata layiq görülməsi ədalətli sülhü tərənnüm edir

Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi dövlət başçısının sülhpərvər siyasətinə verilən yüksək dəyərdir. Bu mükafat, sadəcə diplomatik uğur deyil, həm də Azərbaycanın sülh gündəliyinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilməsinin parlaq ifadəsidir.

Milli Məclisin deputatı Pərvin Kərimzadə "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, Şeyx Zayed Fondu BƏƏ-nin qurucusu Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib və fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir: "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər var. Bundan başqa, fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir. Dövlətimizin başçısı yanvarın 9-da Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib. Onlar 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə Prezident İlham Əliyevə təqdim olunacağını bildiriblər. Münsiflər heyətinin üzvləri bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mükafatın təntənəli təqdimat mərasiminin keçiriləcəyini deyərək, həmin tədbirdə fəxri qonaq qismində iştirak üçün dəvət məktubunu Prezident İlham Əliyevə təqdim etməkdən şərəf hissi duyduqlarını vurğulayıblar. Görüşdə sülhün regional sabitlik və firavanlıq baxımından önəminə toxunan Prezident İlham Əliyev isə işğal zamanı xalqımızın üzləşdiyi əziyyətlərə, verdiyi qurbanlara baxmayaraq, Azərbaycanın dayanıqlı sülhün bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirdiyini bildirib. "Prezident İlham Əliyev sülh razılaşmasının məhz Azərbaycan tərəfindən hazırlanaraq Ermənistana təqdim olunduğunu və bu istiqamətdə səylərin davam etdiriləcəyini diqqətə çatdırıb. Son aylar sülh artıq ticarət sahəsi də daxil olmaqla, praktik müstəviyə keçib. Azərbaycan Prezidenti bu xüsusda 2025-ci il avqustun 8-də Vaşinqton görüşündə sülh gündəliyi ilə bağlı əldə olunmuş razılaşmaların tarixi əhəmiyyətini qeyd edib, bu məsələdə ABŞ Prezidenti Donald Trampın səylərini yüksək qiymətləndirib. Vaşinqton görüşündə məsələyə faktiki olaraq nöqtə qoyulması Azərbaycanın iradəsinin



dünya gücləri tərəfindən qəbul edildiyini göstərdi. Bu, sadəcə bir sülh sazişinin paraflanması deyil, həm də Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam və şərtsiz tanıması, revanşist xülyalardan rəsmən imtina etməsi demək idi", - deyə deputat əlavə edib.

Pərvin Kərimzadə qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiya döyüş meydanında qazanılan uğurun, həm də uzaqgörən diplomatik manevrlərlə möhkəmləndirilməli olduğunu göstərib. Azərbaycan sadəcə torpaqlarını azad etməyib, həm də regionda yeni geosiyasi reallıq yaradaraq uzunmüddətli sülhün təməlini qoyub. Bu prosesdə hərbi gücün beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılması ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsinə şərait yaradıb.

Deputat bildirib ki, şanlı zəfərdən sonra həyata keçirilən genişmiqyaslı quruculuq işləri və Böyük qayıdış proqramı hərbi qələbənin mülki tərəqqiyə çevrilməsinin ən bariz nümunəsidir: "Beləliklə, Azərbaycan dövləti sübut etdi ki, əsl sərkərdəlik məharəti yalnız müharibədə qalib gəlmək deyil, həm də sülh yaratmaq və gələcək nəsillər üçün sabitliyi təmin etməkdədir. Prezident İlham Əliyevin Şeyx Zayed Fondunun mükafatına layiq görülməsi böyük siyasi iradəni, ədalətli sülhü və Azərbaycanın seçdiyi əməkdaşlıq yolunu tərənnüm edir. Dövlətimizin başçısının diplomatik məharəti sayəsində Cənubi Qafqaz artıq münaqişə zonası deyil, sabitlik, logistika və enerji mərkəzinə çevrilməkdədir. Buna görə də, dünya ictimaiyyəti Prezident İlham Əliyevin təqdim etdiyi sülh gündəliyini birmənalı olaraq qəbul edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Amerikalı konqresmenlər 20 Yanvar faciəsinin ildönümü ilə bağlı bəyanat veriblər

Amerikalı konqresmenlər Stiv Kohen və Robert Aderholt 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə bağlı bəyanat veriblər.

AZƏRTAC-ın məlumatına görə, Nümayəndələr Palatasının Tenesse ştatından olan üzvü Stiv Kohen bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə təxminən 26 min sovet qoşunu tanklar və digər zirehli texnikalarla paytaxt Bakıya basqın edərək mülki əhaliyə qarşı hücuma keçib. O qeyd edib ki, sovet qüvvələri günahsız azərbaycanlıları ağır texnikanın altında əzib, qadınlar və uşaqlar da daxil olmaqla dinc əhaliyə atəş açıb. Bu qəddar hərəkətlər nəticəsində 147 nəfər həlak olub, təxminən 800 nəfər yaralanıb, 841 nəfər həbs edilib və 5 nəfər itkin düşüb.

Konqresmen əlavə edib ki, Amerika Birləşmiş Ştatları (ABŞ) 1992-ci il fevralın 28-də Azərbaycanın müstəqilliyini tanıyan və diplomatik münasibətləri tam quran ilk ölkələrdən biri olub. Strateji müttəfiqlər olan ABŞ ilə Azərbaycan bu gün regionda və qlobal



miqyasda ortaq maraqları bölüşürlər.

"Konqresin Azərbaycan qrupunun həmsədri olaraq, həmkarlarımı Azərbaycan xalqının müstəqilliyə doğru atdığı addımlar uğrunda verdiyi qurbanları qəbul etməyə və bir çox azərbaycanlının həyatını fəda etdiyi demokratik dəyərlərə yenidən sadiq qalmağa çağırıram", - deyə o əlavə edib.

Alabama ştatından olan Nümayəndələr Palatasının üzvü Robert Aderholt isə bəyanatında bildirib ki, dost və tərəfdaş olan Azərbaycan Respublikası Qara Yanvarın 36-cı ildönümünü qeyd edir və bu dövr Azərbaycan üzərində sovet hakimiyyətinin sonunun başlanğıcını simvolizə edir. O əlavə edib ki, bu faciədən 36 il sonra, Azərbaycan bu ili müstəqilliyini qazandıqdan bəri davamlı sülhün ilk ili kimi qeyd edir.

"Amerika Prezidentinin köməyi ilə Ermənistan-Azərbaycan münaqişəsinin sona çatması region üçün dönüş nöqtəsi olacağını vəd edir. Həmkarlarımdan Azərbaycanda Qara Yanvar hadisələrini anmaqda və azadlıq uğrunda həlak olanların xatirəsini yad etməkdə mənə qoşulmalarını xahiş edirəm. Bundan əlavə, dostumuz və tərəfdaşımız arasında sülhün və rifahın təmin edilməsi üçün gördüyü işlərə görə Prezident Donald Trampa təşəkkür etməkdə mənə qoşululmağınızı xahiş edirəm. Amerika Birləşmiş Ştatları Azərbaycan xalqı və onun azad yaşamaq hüququnu dəstəkləməyə davam edir", - deyə konqresmen vurğulayıb.

Hər iki bəyanatın mətni ABŞ Konqresinin saytında dərc olunub.

# Vyana Universitetinin Hüquq fakültəsində 20 Yanvar mövzusunda elmi konfrans keçirilib

Azərbaycanın Avstriyadakı səfirliyinin təşəbbüsü ilə Vyana Universitetinin Hüquq fakültəsində "beynəlxalq hüquqda kollektiv cəzalandırmanın qadağan edilməsi kontekstində "20 Yanvar"a hüquqi baxışlar" mövzusunda elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, professor Auqust Raynişin moderatorluğu ilə baş tutmuş konfransı giriş sözü ilə açan səfir Rövşən Sadıqbəyli 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə keçmiş sovet ordusu tərəfindən müstəqillik, suverenlik, milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan Azərbaycan xalqına qarşı misli görünməmiş qətliam törədildiyini bildirib. Diplomat bildirib ki, qanlı gecədə 147 nəfər şəhid olub, 744 nəfər yaralanıb və xəsarət alıb,



841 nəfər qanunsuz olaraq həbs edilib. Nəticədə beynəlxalq humanitar hüquqda kollektiv cəzalandırılmanın qadağan edilməsi prinsipi pozulub. R.Sadıqbəyli 20 Yanvar hadisələrinin beynəlxalq müstəvidə hələ də hüquqi və siyasi qiymət almadığını, bu səbəbdən də 20 Yanvar hadisələrinin hüquqi təhlili üçün məsələyə həm də beynəlxalq humanitar hüquq prizmasından baxılmasının vacibliyini vurğulayıb. Sonra professor Hans-Yoaxim Hayntse çıxış edərək 20 Yanvar hadisələrini Azərbaycan xalqının öz azadlığı uğrunda mübarizə aparması və sovet hökuməti tərəfindən bu mübarizənin qarşısının alınması üçün mülki əhaliyə qarşı misli görünməyən silahlı zor tətbiq etməsi kontekstində təhlil edilməli olduğunu bildirib. Onun nəzərincə, sovet hökuməti bir tərəfdən 1977-ci ildə qəbul edilmiş konstitusiyanı (müttəfiq respublikaların öz müqəddəratını təyin etməsi), digər tərəfdən isə zor tətbiq edilməsinə və kollektiv cəzalandırmanın qadağan edilməsinə dair özünün də qoşulmuş olduğu bir sıra beynəlxalq hüquq konvensiyalarını, xüsusilə 1975-ci ildə qəbul edilmiş Helsinki Yekun Aktının bir sıra müddəalarını kobud şəkildə pozub. Daha sonra avstriyalı hüquqşünas Qabriel Lanski çıxış edb. O, prof. Hayntsenin yuxarıda qeyd edilən tezislərini təsdiq edib, məsələyə beynəlxalq humanitar hüquqla yanaşı, həm də beynəlxalq xüsusi hüquq prizmasından baxılmalı olduğunu vurğulayıb.

Konfrans məruzəçilərlə iştirakçılar arasında interaktiv dialoq şəklində sona çatıb.

Konfransda Vyana Universitetinin tələbə-müəllim heyəti, müstəqil ekspertlər, habelə yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Dövlətin gənclər siyasəti

# İnsan kapitalına strateji yanaşma



**Müasir dövrdə ölkələrin dayanıqlı inkişaf səviyyəsi təkcə iqtisadi resurslarla deyil, eyni zamanda güclü insan kapitalı ilə ölçülür. Bu kontekstdə gənclər siyasəti dövlətlərin uzunmüddətli strateji baxışının əsas sütunlarından biri hesab olunur. Azərbaycan dövləti də gənclərin inkişafını siyasətində prioritet istiqamət kimi müəyyənləşdirərək, onların təhsilinə, məşğulluğuna, liderlik bacarıqlarının formalaşmasına, cəmiyyətə uğurla inteqrasiyasına xüsusi önəm verir. Bu siyasətin praktik və sistemli alətlərindən biri 2019-cu ildən ölkəmizdə keçirilən və minlərlə Azərbaycan gəncinin həyatında müsbət dəyişikliklər yaradan "Yüksəliş" müsabiqəsidir.**

## İnstitusional əsaslara söykənən siyasət

Azərbaycanda gənclər siyasəti dövlət səviyyəsində formalaşdırılmış, güclü institusional əsaslara söykənir. Bu siyasətin başlıca məqsədi gənclərin intellektual, fiziki və mənəvi inkişafını təmin etmək, onların ölkənin ictimai-siyasi və iqtisadi həyatında fəal iştirakını stimullaşdırmaqdır. Yerli və beynəlxalq təhsil proqramları, təqaüdlər, mübadilə layihələri vasitəsilə gənclərə təhsil və özünüinkişaf imkanlarının yaradılması, onların məşğulluğu, uğurlu karyera yolu üçün startap ekosisteminin qurulması, gənclər arasında biznes və sahibkarlıq ruhunun təşviqi, dövlət idarəçiliyinə və ictimai qərarverməyə cəlb edilməsi yolu ilə gənc nəslin vətəndaş fəallığının, liderlik bacarıqlarının artırılması, eləcə də hər kəs üçün bərabər imkanlar mühitinin təmin edilməsi bu siyasətin əsas istiqamətlərindəndir. Bu istiqamətlər gəncləri ölkənin gələcəyini formalaşdıran, bununla bağlı ictimai məsuliyyətini dərk edən aktiv vətəndaşlar kimi mövqeləndirir.

"Yüksəliş" müsabiqəsi bu baxımdan Azərbaycanın gənclər siyasətində keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa nəzarəti ilə həyata keçirilən bu müsabiqənin əsas ideyası perspektivli, yüksək potensiala malik gəncləri aşkar etmək, onları peşəkar inkişaf proqramları vasitəsilə dəstəkləmək və dövlət-özəl sektor üçün strateji kadr ehtiyatı formalaşdırmaqdır.

Öz məqsədlərinə uyğun olaraq "Yüksəliş" müsabiqəsi bu layihədə iştirak edənlərin liderlik potensialını üzə çıxarır. Onların strateji düşüncə və qərarvermə bacarıqlarını inkişaf etdirir. Gənclərə şəxsi və peşəkar inkişaf üçün mentorluq imkanları yaradır, bu təbəqənin dövlət idarəçiliyinə və korporativ sektora hazırlanmasını təmin edir.

Xatırladaq ki, ötən il dekabrın 10-da Prezident İlham Əliyev 2026-cı ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.

2019-2021-ci illərdə keçirilmiş ilk müsabiqədə 27 qalib, 2022-ci il ikinci müsabiqədə 22, 2023-cü il üçüncü müsabiqədə 22, 2024-cü il dördüncü müsabiqədə 25 və 2025-ci il beşinci müsabiqədə 20 qalib müəyyən olunub. Beləliklə, ötən beş müsabiqə üzrə ümumilikdə 70 minə yaxın müraciət qəbul edilib, 40 minə yaxın Azərbaycan vətəndaşı prosesdə iştirak edib və nəticədə 116 nəfər qalib elan edilib.

## Uzunmüddətli inkişaf platforması

"Yüksəliş"in belə yüksək səviyyədə təşkili təsadüfi deyil. Azərbaycan Prezidentinin müxtəlif çıxışlarında da vurğuladığı kimi, inkişaf etmiş cəmiyyətin təməli güclü insan resurslarıdır. Bu müsabiqə də belə resursların formalaşdırılmasını hədəfləyir.

Cənab İlham Əliyevin yanaşmasına görə, dövlət idarəçiliyi sisteminin səmərəliliyi yalnız qanunlarla deyil, bu sistemdə çalışan insanların keyfiyyəti ilə müəyyən olunur. "Yüksəliş" bu baxımdan dövlətin gələcək liderlərini indidən müəyyənləşdirir, hazırlayır və istiqamətləndirir.

"Yüksəliş" müsabiqəsi çoxpilləli və obyektiv qiymətləndirmə mexanizmi ilə seçilir. Bu mexanizmin əhatə etdiyi onlayn testlər, situasiya və məntiq əsaslı tapşırıqlar, idarəetmə və liderlik bacarıqlarını ölçən mərhələlər, fərdi müsahibələr mükəmməl seçim modeli kimi iştirakçıların yalnız bilik səviyyəsini deyil, eyni zamanda davranış tərzini, analitik düşüncə və komanda ilə işləmə bacarıqlarını da qiymətləndirməyə imkan verir.

Belə bir mexanizm sayəsində yüksək hazırlıqlı gənclər arasından ən layiqliləri qalib olur, amma eyni zamanda digər iştirakçılar da çox faydalı təcrübə qazanırlar. Onlar növbəti müsabiqələrdə özlərini sınaya bilirlər, yaxud təhsil və karyera həyatlarında rastlarına çıxan başqa fürsətlərin dəyərləndirilməsi zamanı "Yüksəliş" təcrübəsi gənclərə çox böyük kömək göstərir. Bu mənada, müsabiqənin gənc nəsil üçün yaratdığı dəyər sadəcə bilik və bacarıq yarışmasının hüdudlarından çox-çox kənara çıxır. "Yüksəliş" müsabiqəsi sadəcə bir yarış deyil, uzunmüddətli inkişaf platformasıdır. Bu platforma çərçivəsində təqdim olunan mentorluq proqramları, təlimlər, işgüzar şəbəkələşmə, biznes icmasının tanınmış bir üzvünə çevrilmək gənclərin karyera trayektoriyasına real təsir göstərir.

Gənclər "Yüksəliş" vasitəsilə özlərini, imkanlarını, bilik və bacarıqlarını yenidən kəşf edirlər. Bu, onlara özlərini təmsil etdikləri dəyərlərlə birgə tanımaq, liderlik bacarıqlarını nəzərdən keçirmək, peşəkar əlaqələr şəbəkəsi qurmaq, dövlət qurumlarında, eləcə də böyük şirkətlərdə karyera imkanları qazanmaq imkanı verir, uzunmüddətli inkişaf perspektivi yaradır.

## İstedadların cəlbi və idarə edilməsi

Bu müsabiqə dövlət üçün də hər cəhətdən strateji əhəmiyyət kəsb edir. İstedadların cəlbi və idarə edilməsi tarixin bütün dövrlərində güclü dövlətin görünməyən dayağı olub. Müasir dünyamızda isə istedadların cəlbi, idarə edilməsi klassik kadr siyasətindən daha geniş, strateji idarəetmə aləti kimi nəzərə çarpır və bu, əsla təsadüfi deyil. Dövlət qərarlarının keyfiyyəti birbaşa onları hazırlayan, icra edən insanların bacarıqları ilə bağlıdır. Analitik düşüncə, liderlik və innovativ yanaşma olmadıqda islahatlar formal xarakter daşıyır, dəyişən qlobal reallıqlara adaptasiya zəifləyir. İstedadlı kadrlar isə dövlətə çeviklik, strateji baxış, uzunmüddətli düşünmə qabiliyyəti qazandırır.

Digər mühüm məqam davamlı liderliyin təmin edilməsidir. İstedadların sistemli şəkildə aşkarlanması, inkişafı gələcək idarəçilər üçün möhkəm varislik mexanizmi yaradaraq institusional sabitliyi qoruyur. Bu yanaşma həm də gənclərin dövlətə inamını gücləndirir: şəffaf və meritokratiyaya əsaslanan seçim mexanizmləri beyin axınının qarşısını alır, gəncləri ölkənin inkişaf prosesinə cəlb edir.

Nəticə etibarilə, istedadların idarə edilməsi dövlət üçün idarəetmənin keyfiyyətini müəyyən edən əsas faktorlardandır. Güclü dövlət modeli güclü institutlarla yanaşı, həmin institutları formalaşdıran və inkişaf etdirən istedadlı insanlara söykənir. "Yüksəliş" müsabiqəsi də Azərbaycan dövləti üçün effektiv istedad cəlbi və idarəçiliyi alətidir. Bu mexanizm vasitəsilə gələcək idarəçilər və liderlər yetişdirilir, qərarvermə proseslərində yeni düşüncə tərzi formalaşır, insan kapitalına investisiya sistemli şəkildə həyata keçirilir. Bu yanaşma qısa müddətli nəticələrdən daha çox, institusional davamlılığa yönəlir.

## Gənclər üçün örnəklər niyə vacibdir?..

"Yüksəliş" müsabiqəsinin gənclərlə iş sahəsində daha bir əhəmiyyətli rolunu da xüsusi vurğulamaq istərdik. Məlumdur ki, gənclərin inkişafında örnəklər - yəni rol modellər həlledici psixoloji, sosial funksiyaya malikdirlər. Rol modellər mücərrəd uğur anlayışını öz real nailiyyətləri ilə gənclər üçün konkret hekayələrə çevirir, onlarda "mümkündür" hissini formalaşdırır və istiqamət verirlər. Xüsusilə təhsil, karyera, liderlik və ictimai fəallıq kontekstində hər bir gənc özünə bənzər, real və əlçatan nümunələr görəndə fərqli potensialını reallaşdırmaqdan ötrü dərhal hərəkətə keçməyə həvəslənir. Bu baxımdan, rol modellər, ilk növbədə, gənclərdə yüksək motivasiya yaradaraq uğurun yalnız istisna şəxslərə aid olmadığını göstərirlər.

Digər tərəfdən, onların yaratdıqları uğur nümunəsi hansı bacarıqların, dəyərlərin, seçimlərin müsbət nəticə verdiyini nümayiş etdirir. Ən mühümü isə rol modellər inam yaradırlar, onların təqdim etdikləri parlaq nümunələr hər bir gəncin öz yoluna və sistemə olan etibarını gücləndirir.

"Yüksəliş" müsabiqəsi də seçim və inkişaf platforması olmaqla yanaşı, eyni zamanda rol model yaradan mexanizmdir. Müsabiqədə önə çıxan qaliblər və finalçılar "əlçatmaz elita" təmsilçiləri deyil, müxtəlif regionlardan, fərqli sosial və peşəkar mühitlərdən gəlmiş real həmyaşıdlardır. Bu, gənclər üçün güclü identifikasiya, özünü tanıtma imkanı yaradır, "o bacardısa, mən də bacara bilərəm" düşüncəsini gücləndirərək fərdləri əzmkarlığa sövq edir.

Ən vacib məqamlardan biri isə ondan ibarətdir ki, "Yüksəliş" formalaşdırdığı rol modelləri yalnız uğur hekayələri ilə deyil, davamlı inkişaf yolları ilə təqdim edir. Mentorluq, öyrənmə, məsuliyyət və ictimai dəyər yaratma kontekstində onların inkişaf yollarının davamını da görə bilirik. Bu yanaşma gənclərə uzunmüddətli, sağlam liderlik modelini aşılayır. "Yüksəliş" müsabiqəsi öz rol modellərini təsadüfi deyil, sistemli və dövlət baxışına uyğun şəkildə formalaşdıraraq gənclərlə dövlət arasında güclü psixoloji və dəyər körpüsü yaradır.

## Dövlətin gənclərə açıq çağırışı

Azərbaycanda gənclərin "Yüksəliş" müsabiqəsinə çox böyük marağı var. Elan edildiyi ilk ildən bəri hər il on minlərlə gənc bu müsabiqədə özünü sınamağa çalışır. Belə bir maraq qətiyyən təsadüfi olmayıb, bir neçə dərin sistemli amilin kəsişməsindən formalaşır.

İlk növbədə, müsabiqə gənclərə şəffaf və ədalətli seçim mexanizmi təqdim edir. Cəmiyyətdə uzun illər ərzində formalaşmış "imkanlar məhduddur" düşüncəsi fonunda "Yüksəliş" bilik, bacarıq və potensiala əsaslanan real rəqabət mühiti yaradır. Bu da gənclər üçün cəlbedici fürsətdir.

Bundan başqa, müsabiqə gənclər arasında sosial lift funksiyasını yerinə yetirir, daha yüksək həyat standartlarına çatmasını təmin edir. Regionlardan, fərqli peşə və sosial mühitlərdən olan iştirakçılar üçün "Yüksəliş" özünü göstərmək və təsdiqləmək, inkişaf etmək imkanı yaradır. Bu, inklüzivlik marağın kütləvi xarakter almasının əsas səbəblərindən biridir.

Eyni zamanda "Yüksəliş" yalnız qalibiyyət və titul vəd etmir, mentorluq, təlimlər, şəbəkələşmə və uzunmüddətli karyera perspektivi ilə inkişaf ekosistemi təklif edir. Bu yanaşma onu klassik müsabiqələrdən fərqləndirərək daha dərin motivasiya yaradır.

Nəhayət, müsabiqə dövlətin gənclərə açıq çağırışıdır. Dövlətimiz bu müsabiqə vasitəsilə hər bir istedadlı, bacarıqlı gəncimizə "Səni görürük və səninlə gələcəyi qurmaq istəyirik" dəvətini yetirir. Məhz bu psixoloji, institusional mesaj "Yüksəliş"ə olan marağı həm yüksək, həm də davamlı edir.

Azərbaycanın gənclər siyasəti və "Yüksəliş" müsabiqəsi bir-birini tamamlayan, strateji baxımdan uyğunlaşdırılmış mexanizmlərdir. Bu model gəncləri Azərbaycan dövlətinin gələcəyinin birbaşa qurucuları kimi yetişdirir. "Yüksəliş" müsabiqəsi belə bir baxışın praktik, ölçülə bilən nəticələr verdiyi ən uğurlu nümunələrindəndir.

Müsabiqə Azərbaycanın insan kapitalının inkişafında yeni səhifə açır və gələcək nəsil dövlət xadimlərinin, menecerlərin və liderlərin formalaşmasında strateji alət kimi tarixə düşür. Bu təşəbbüs təkcə bir layihə olmayıb, bir dövlət ideologiyasının - bacarığa əsaslanan inkişaf yolunun təzahürü kimi qiymətləndirilməlidir.

İnsan kapitalının yüksəlişinə yönəlmiş bu yanaşma Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında mühüm rol oynamaqda davam edəcəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "SOCAR Karbamid" nümunə göstərməkdə davam edir

Sumqayıtda yerləşən "SOCAR Karbamid" zavoduna daxil olanda diqqətimizi çəkən ərazinin səliqə-sahmanı, texnologiyanın müasirliyi yox, insanların üzlərindəki isti təbəssüm, xoş münasibət oldu. Media turuna qatılan jurnalistləri qarşılayan rəhbərlik və əməkdaşlar havanın soyuq olmasına baxmayaraq, səmimi və mehriban münasibətləri ilə işgüzar mühit yaratmışlar.



Zavodun dəqiq planlaşdırılmış istehsal sahələri və təhlükəsizlik nişanları, hər detalın diqqətlə işlənməsi də başqa aləm idi. İşçilər üçün yaradılmış rahat istirahət zonaları, modern geyim otaqları və nəzarət mərkəzlərini müəssisənin insan amilinə verdiyi diqqətin yüksək göstəricisi hesab etmək olardı.



"SOCAR Karbamid" zavodu Dünya İqtisadi Forumunun "Qlobal mayak" şəbəkəsinə daxil edilib və "Rəqəmsal mayak" mükafatına layiq görülüb. Zavodun direktoru Kutay Durna jurnalistlərə açıqladı ki, bu nailiyyət müəssisənin istehsal proseslərinin rəqəmsal əsaslar üzərində qurulması, süni intellekt və innovativ texnologiyaların tətbiqi, eləcə də enerji effektivliyinin artırılması sahəsində beynəlxalq səviyyədə tanınmasının nəticəsidir: "Prezident İlham Əliyevin müəyyən etdiyi strateji hədəflər çərçivəsində Sənaye 4,0 konsepsiyasının tətbiqi, emissiyaların azaldılması və istehsal proseslərinin modernləşdirilməsi əsas prioritetlərimiz olub. Ardıcıl fəaliyyət nəticəsində zavod "Global Mayak" şəbəkəsinə üzv seçilib. Bu nailiyyət yalnız SOCAR ailəsi üçün deyil, region üçün də böyük qürurdur".





Mediatur çərçivəsində jurnalistlər zavodun qabaqcıl texnologiyalarla təchiz olunmuş data mərkəzi və panellərini görməklə yanaşı, karbamid istehsalı prosesini izləyə bildilər. SOCAR Downstream Management MMC-nin baş direktoru Emil Alxaslı qeyd etdi ki, zavodda həyata keçirilən rəqəmsallaşma və Sənaye 4,0 prinsipləri istehsal səmərəliliyini artırıb, planlı dayanma hallarını minimuma endirib və bir çox innovativ həlləri mümkün edib. E.Alxaslı onu da vurğuladı ki, bu yanaşma sadəcə trend deyil, gündəlik fəaliyyətdə təhlükəsizliyin maksimum səviyyədə təmin olunması, istehsal edilən məhsulların keyfiyyətinin yüksəldilməsi və iqtisadi göstəricilərin yaxşılaşdırılması üçün əsas alətdir. Layihə iki il ərzində icra olunub və bu dövr ərzində istehsal gücü 21 faizdən çox artıb. Hər ton karbamid üçün istifadə olunan təbii qaz sərfiyyatı isə 24 faizdən çox azaldılıb.

Öyrəndik ki, zavodun bəzi sahələri yüksək riskli ərazilər olduğundan insan əməyinin minimuma endirilməsi əsas hədəfdir. Elə bu məqsədlə də müəssisədə "Boston Dynamics" şirkətinin robotlarının imkanlarından istifadə olunur və bu, həm məlumatların toplanması prosesini sürətləndirir, həm də işçilərin təhlükəsizliyini maksimum təmin edir. İstehsal proqramı isə xüsusi proqram təminatı ilə optimallaşdırılır, hər 15 dəqiqədən bir 1 milyondan çox ssenari təhlil olunur.

Jurnalistlərə məlumat verildi ki, karbamidə olan yüksək tələbat onun aşağı maya dəyəri, qənaətcil və təhlükəsiz daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlıq verməsi ilə əlaqədardır. Karbamid yanğın və ya partlayış təhlükəsi yaratmadığına görə saxlanılma və daşınma baxımından etibarlı və qənaətcil məhsul hesab olunur. Ən yüksək azot tərkibinə (46.3 faiz) və suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidin başqa bir üstünlüyü onun həm ayrı, həm də digər gübrələrlə birgə istifadə oluna bilməsidir. Bundan başqa, karbamiddən mal-qara yemi və digər kimyəvi maddələrin istehsalında, eləcə də əczaçılıqda geniş istifadə olunur. Onu da qeyd edək ki, Azərbaycanın karbamidə olan tələbatı SOCAR-ın Karbamid zavodu tərəfindən təmin edilir.

Təməli 2011-ci ildə qoyulan zavodun açılış mərasimi 2019-cu il yanvarın 16-da Prezident İlham Əliyevin iştirakı ilə baş tutub. Zavodun layihələndirilməsi və tikintisi Danimarkanın "Haldor Topsoe" və Niderlandın "Stamicarbon B.V" şirkətlərinin texnologiyası əsasında Cənubi Koreyanın "Samsung Engineering" şirkəti tərəfindən həyata keçirilib. Finlandiyanın "Neste Engineering Solutions" şirkəti isə layihənin idarə edilməsi üzrə məsləhət və müstəqil təftiş xidmətləri göstərib. Tikintinin pik vaxtında zavodun inşasına ümumilikdə 3600 nəfərdən artıq işçi cəlb olunub.

Karbamid zavodu istismara verildiyi dövrdə ölkənin qeyri-neft sektorunda həyata keçirilmiş ən böyük layihə olub. Layihənin maliyyələşdirilməsi ilkin dövrdə dövlət büdcəsindən ayrılan vəsait hesabına həyata keçirilib. Sonra Cənubi Koreyanın İxrac-İdxal Bankından (KEXIM), habelə "Societe Generale" (Fransa), "Deutsche Bank" (Almaniya) və "UniCredit" (Avstriya) banklarından dövlət zəmanəti əsasında 500 milyon avro məbləğində vəsait cəlb edilib. Həmçinin layihə ilə bağlı vergi və rüsumların, habelə digər xərclərin ödənilməsi məqsədilə SOCAR tərəfindən təxminən 100 milyon avro məbləğində vəsait ayrılıb.

Müəssisə il ərzində 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücünə malikdir. Zavod istismara verilənədək azot gübrələri Azərbaycana idxal edildiyi halda, hazırda bu müəssisə daxili bazarın tələbatını tam ödəyir. Direktor Kutay Durna jurnalistlərə verdiyi açıqlamasında bildirdi ki, "SOCAR Karbamid" daxili tələbatı 100 faiz qarşılayır və bu, ümumi istehsalın 12 faizini təşkil edir: "Zavod 2024-cü ildə Ukrayna, Rumıniya, Bolqarıstan, Türkiyə və Kanadaya məhsul ixrac edib. Logistik çətinliklər olmasa, məhsulumuzu hətta ABŞ-yə də göndərə bilərik. Çünki bizim zavod keyfiyyətli məhsul istehsal edir. Zavodun istehsal gücü ildə 650 min ton təşkil edir. Müştərilərin 95 faizindən çoxu kənd təsərrüfatı sektorunda işləyənlərdir". Direktor onu da vurğuladı ki, karbamid istehsalının yerli xammal - təbii qazdan əldə olunması məhsulun dəyərini iki dəfə artırır: "Əgər qazı xarici bazarlara satsaydıq, təqribən 80 milyon dollar əldə edərdik, karbamid məhsulu isə 150-160 milyon dollar dəyərindədir. Bu, kənd təsərrüfatına, o cümlədən qeyri-neft sənayemizə böyük töhfədir".

Beləliklə, "SOCAR Karbamid" zavodu yalnız daxili istehsal və ixrac potensialı yaratmır, həm də rəqəmsal və innovativ texnologiyaları tətbiq edərək Azərbaycanın sənaye modernizasiyasına nümunə göstərir. Media turunun sonunda jurnalistlər həm texnologiyanın yüksək səviyyəsini, həm də işçilərin səmimi və səmərəli əməyini canlı şəkildə gördülər. Bu, təkcə zavodun deyil, bütün ölkənin strateji uğurudur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# Azərbaycan Avrasiyada dəyər yaradır

**Dünya iqtisadiyyatının taleyinin müzakirə olunduğu Davos platformasında bu dəfə diqqətlər Avrasiyaya yönəldi. "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclası qlobal güc balansının dəyişdiyi bir dövrdə yeni iqtisadi mərkəzlərin formalaşdığını göstərdi. Uzun illər kənar müşahidəçi kimi qəbul olunan Avrasiya artıq qlobal iqtisadi dialoqun əsas iştirakçılarından biridir.**




"İqtisadi özünəməxsusluq" nə deməkdir? Bu mövzu Davosda keçirilən panelin əsas fəlsəfəsini təşkil edirdi və əslində, daha geniş bir sualı gündəmə gətirirdi: Avrasiya qlobal iqtisadi sistemdə hansı rolu oynayır və onu digərlərindən fərqləndirən cəhətlər nələrdir? İqtisadi özünəməxsusluq yalnız ümumi daxili məhsulun (ÜDM) göstəriciləri və ya ticarət dövriyyəsi ilə ölçülmür. Bu anlayış hər şeydən əvvəl coğrafi mövqe, tarixi inkişaf yolu, resurs potensialı və regional əməkdaşlıq modelinin sintezidir. Avrasiya məkanı Şərqin istehsal gücünü, Qərbin texnologiya və bazar təcrübəsini, Cənubun isə resurs imkanlarını özündə birləşdirən iqtisadi zonadır.

Panel müzakirələrində vurğulanan əsas məqamlardan biri Avrasiyanın nəqliyyat və logistika baxımından unikal mövqeyi idi. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas dəhlizlər bu məkandan keçir. Bu da Avrasiyanın sadəcə keçid zonası deyil, həm də dəyər yaradan iqtisadi mərkəz olduğunu ortaya qoyur. Enerji resursları, sənaye potensialı və artan daxili bazar isə bu özünəməxsusluğun iqtisadi əsaslarını daha da gücləndirir. Amma bütün bu potensiala baxmayaraq, qlobal proseslər göstərir ki, mövcud imkanlardan səmərəli istifadə hər zaman düzgün idarəetmə və ortaq yanaşma ilə müşayiət olunmur. Bu da beynəlxalq münasibətlər sistemində etimadın zəifləməsinə və əməkdaşlıq mexanizmlərinin səmərəsinin azalmasına gətirib çıxarır. Bir çox hallarda dar milli maraqlar ümumi faydanı üstələyir və uzunmüddətli sabitliyə xidmət edən qərarların qəbulunu çətinləşdirir.

Panel iclasda müzakirə olunan digər mühüm məqamlardan biri də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin səsləndirdiyi bu fikir idi: "Müasir dünyada müəyyən prinsiplərə riayət edilmir. Heç kəs çoxtərəflilik prinsiplərinə hörmət etmir, bu isə böyük bir xətadır, keçmişdə yol verilən səhvdir". Bu fikirlər fonunda Prezident İlham Əliyevin mövqeyi mövcud beynəlxalq münasibətlərə daha realist və praqmatik yanaşmanı əks etdirdi. Dövlət başçısı vurğuladı ki, qlobal qeyri-müəyyənliklərin artdığı bir şəraitdə ölkələrin uğuru beynəlxalq təsisatlara kor-koranə arxalanmağa deyil, milli maraqlara əsaslanan siyasət, güclü liderlik və cəmiyyətin vahid mövqeyi ilə təmin olunur: "Biz beynəlxalq təsisatlara arxalanmamalıyıq. Mən Aleksandar ilə razılaşıram ki, bu gün vəziyyət heç vaxt olmadığı qədər mürəkkəbdir. Ancaq mən onun bədbinliyini bölüşmürəm, çünki vəziyyət nəzarətə götürülürsə, milli maraqlara və rəhbərlik etdiyin xalqa bağlılıq varsa, o zaman uğura nail olmaq mümkündür. O ki qaldı, çoxtərəflilik, birtərəflilik və proteksionizmə, biz bütün bunların iflasa uğradığını görürük. Ümumdünya Ticarət Təşkilatı iflic olub. Yeri gəlmişkən, 30 il ərzində edilmiş dəvətlərə rəğmən biz Ümumdünya Ticarət Təşkilatına qoşulmadıq, çünki öz iqtisadi suverenliyimizi qorumaq istəyirdik. Biz siyasi suverenliyə malik olmaqla yanaşı, müxtəlif tərəflərlə yaxşı münasibət saxlamaq istəyirik. Biz Avropa İttifaqının 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq. Eyni zamanda Çin ilə hərtərəfli strateji tərəfdaşlıq sazişinə malikik və ABŞ ilə Strateji tərəfdaşlıq nizamnaməsini müzakirə edirik. Bütün bunlar mümkündür və bir-biri ilə ziddiyyət təşkil etmir. Ölkə və onun gələcəyi ilə bağlı aydın baxışa malik olduqda, gücə sahib olduqda və vahid mövqedən çıxış edən cəmiyyətin olduğu təqdirdə haqqınızda və gördüyünüz işlər barəsində kimin nə dediyinin və nə məqalə dərc etdirməsinin heç bir əhəmiyyəti yoxdur".

Avrasiya çox böyük bir coğrafi məkandır. Müxtəlif güc mərkəzləri ilə paralel ziddiyyətsiz əməkdaşlıq imkanları bu məkanı qapalı bloklardan fərqli olaraq açıq, çoxtərəfli və rəqabətədavamlı iqtisadi platformaya çevirir. Ona görə də Azərbaycan öncə öz regionunu, daha doğrusu, qonşularını düşünməlidir. Ötən 30 ildə ölkəmiz Ermənistan istisna olmaqla, bütün qonşularla münasibət qura bilib. Amma hazırda sülh bərqərar olduğu üçün Ermənistanla da iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlanılıb. Azərbaycan Qazaxıstan və Rusiya vasitəsilə Ermənistana yük daşımalarındakı bütün məhdudiyyətləri aradan qaldırıb. Həmin addım nəticəsində artıq Ermənistandan Rusiyaya yüklərin daşınması üçün müraciətlər daxil olub. Hazırda bu daşımalar Gürcüstan ərazisindən həyata keçirilir, lakin gələcəkdə Ermənistan ərazisindən birbaşa yük daşımalarının mümkün olacağı gözlənilir.

"Bizim üçün qardaş ölkə olan Türkiyə ilə çox sıx müttəfiqlik münasibətləri qurmuşuq, Türkiyəyə nəhəng sərmayələr yatırmışıq. Bizim Türkiyəyə sərmayələrimizin həcmi 20 milyard dollardan çoxdur. Hazırda biz Gürcüstana ən böyük sərmayə qoymuş ölkələr sırasındayıq. Gürcüstan ərazisindən keçən dəhlizlərlə yanaşı, Amerika Birləşmiş Ştatlarının himayəsi altında həyata keçirilən və TRIPP adlanan bağlantı layihəsi Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana, Ermənistana, Azərbaycanın bir parçası olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanan yeni bir nəqliyyat dəhlizi olacaqdır. Marşrutların çoxluğu istehlakçıların, təchizatçıların və tranzit ölkələrin xeyrinədir", - Prezident İlham Əliyevin Davosdakı panel müzakirələrdə ortaya qoyduğu bu mövqe Avrasiyanın iqtisadi özünəməxsusluğunu formalaşdıran əsas amillərdən birini - strateji mövqe və çevik tərəfdaşlıq imkanlarını açıq şəkildə göstərir.

Marşrutların çoxluğu, investisiya həcmləri və beynəlxalq layihələr Avrasiyanın iqtisadi əlaqələr şəbəkəsini genişləndirir, tranzit imkanlarını artırır və regional inteqrasiyanı gücləndirir.

Davosda səsləndirilən fikirlər bir daha təsdiqlədi ki, Avrasiyanın iqtisadi özünəməxsusluğu onun fərqli inkişaf modelində, çoxşaxəli əməkdaşlıq imkanlarında və dəyişən dünya düzənində tutduğu strateji mövqedə öz əksini tapır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Davos Forumunun Azərbaycan üçün real nəticəsi

"Bu dünyada kiçik dövlətlər qlobal güclərin qarşıdurmasında tərəf seçərək yanlışlığa yol versələr, böyük güclərin ambisiyalarının qurbanı olarlar".




AZƏRTAC xəbər verir ki, bu ifadəni ABŞ-nin Çikaqo Universitetinin professoru, tanınmış politoloq Con Mirşaymer Ukrayna, Moldova, Gürcüstan, keçmiş Yuqoslaviya və başqa dövlətləri misal çəkərək deyib.

Vaxtilə Azərbaycan da böyük dövlətlərin geosiyasi burulğanına düşərək ərazisinin 20 faizini itirmişdi. Zəngin neft və qaz ehtiyatlarına malik olmasına baxmayaraq, ölkədə iqtisadi inkişafdan əsər-əlamət yox idi. Lakin Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasətində köklü dəyişiklik baş verdi və ölkəmiz balanslaşdırılmış, heç bir tərəf tutmadan müstəqil siyasət həyata keçirməyə başladı. Bu gün bu siyasətin nəticələrini ölkəmiz hiss edir və Azərbaycan nəinki tərəf tutaraq ərazi itkisinə məruz qalmadı, tam əksinə, işğal altındakı ərazilərini işğaldan azad edərək yeni reallıqlar yaratdı, inkişaf istiqamətini seçdi, region və dünyaya qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq mesajları verərək Orta dəhliz, Zəngəzur dəhlizi kimi Asiya ilə Avropanı birləşdirən beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin təşəbbüskarı oldu.

Yanvarın 21-də Davosda keçirilən ənənəvi Dünya İqtisadi Forumu çərçivəsində "Euronews" kanalına müsahibə verən Prezident İlham Əliyev rasional fikirləri ilə beynəlxalq aləmdə gündəm oldu. ABŞ-nin Hardson Universitetinin elmi əməkdaşı, ABŞ Milli Təhlükəsizlik Şurasının keçmiş baş direktoru, siyasi tədqiqatçı Maykl Skott Doranın Prezident İlham Əliyev haqqında dedikləri fikirləri də təsadüfi deyil. Prezidentin müsahibəsində səsləndirdiyi - "Bu erada vəziyyəti qanunun aliliyi deyil, güc idarə edir. Biz bunu dünyanın müxtəlif yerlərində görə bilərik. Hər ölkə öz strategiya və siyasətini özünün potensialına uyğunlaşdırmalıdır, o cümlədən mümkün qədər çox ölkələrlə, ilk növbədə, öz bölgəsində, sonra isə qlobal müstəvidə yaxşı münasibətlər qurmalıdır. Azərbaycan məhz buna nail oldu", fikrini şərh edən tədqiqatçı bildirib ki, "Bu insan müasir dünyada ən istedadlı, hətta ən görkəmli dövlət xadimlərindən biridir. Beynəlxalq münasibətlərin reallıqda necə işlədiyini başa düşməsi misilsizdir".

Hər bir dövlət müstəqil siyasət yürüdüb, təsirsiz fəaliyyət göstərməyə can atır. Lakin hər dövlətin rəhbəri buna nail ola bilmir. Azərbaycan Prezidentinin Davosdakı görüşləri və apardığı danışıqlar tərəf tutmaqdan, hansısa liderə xoş gəlib onun "çox sağ olunu" qazanmaqdan ibarət deyildi. Milli maraqları qorumaqdan, balanslı siyasət aparıb tərəfsiz olmaqdan və dünyanın bu qarışıqlıq dövründə ölkəni inkişaf etdirməkdən ibarət idi. Bu siyasəti dünya görür və qiymətləndirir. Təsadüfi deyilir ki, Avropa İttifaqının genişlənmə üzrə komissarı Marta Kosa Prezident İlham Əliyev ilə görüşü zamanı Azərbaycanın humanitar minatəmizləmə sahəsində fəaliyyətinə, həmçinin Naxçıvanın dəmir yolu xəttinin bərpası layihələrinə dəstək göstərməyə hazır olduğunu vurğuladı. Bu real nəticədir və Azərbaycan üçün olduqca əhəmiyyətlidir.

Böyük dövlətin iddialı lideri olmaq o qədər də çətin məsələ deyil. Məsələ kiçik dövlətin böyük lideri olmaqdır ki, buna da hər siyasi xadim nail ola bilmir. Dünyada kiçik dövlətlərin sayı böyük dövlətlərin sayından xeyli çoxdur.

# Qarabağ və Şərqi Zəngəzura dönən soydaşlarımız işsiz qalmırlar

## Ötən il ölkə üzrə 567 min nəfər aktiv məşğulluq tədbirləri ilə əhatə edilib

Prezident İlham Əliyevin yerli telekanallara verdiyi müsahibədə dediyi "İş yerləri yaradılır, o cümlədən Qarabağ və Şərqi Zəngəzur da böyük tikinti meydançasıdır. Yəni işləmək istəyən Azərbaycanda özü üçün iş tapa bilər, ya inşaatda, ya kənd təsərrüfatında, ya başqa sahələrdə" sözləri ölkəmizdə yeni iş yerlərinin yaradılması, aktiv məşğulluq proqramlarının genişləndirilməsi sahəsində aparılan ardıcıl işlərdə öz əməli təsdiqini tapır.



2025-ci ildə də aktiv məşğulluq proqramlarının əhatə dairəsi daha da genişlənib. Ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi 567 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib, onlardan 189 min şəxs münasib işlərlə təmin olunub. Ümumiyyətlə, Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan özünəməşğulluq proqramı əhalinin işlə təmin olunmasına, kiçik biznesə çıxış imkanlarına yiyələnməsinə mühüm dəstəkdir. Təkcə 2025-ci ildə 16,8 min nəfər kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.



Proqramın əhatə etdiyi iqtisadi fəaliyyət sahələrinin sırasının genişləndirilməsi işləri də davam edir. Ötən il bu sıraya daha 5 yeni fəaliyyət istiqaməti əlavə olunub. Yeri gəlmişkən, qeyd edək ki, özünüməşğulluq proqramı üzrə iştirakçılara istehsal, xidmət və kənd təsərrüfatı üzrə 30-dan çox zərf təqdim edir. Onu da bildirək ki, özünüməşğulluq proqramının genişlənməsində Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" əhəmiyyətli paya malikdir. Konkret desək, layihə çərçivəsində 26,7 min şəxs üçün kiçik təsərrüfatlar yaradılıb. Layihənin 2025-2029-cu illəri əhatə edəcək 2-ci mərhələsi isə 30 min şəxsi əhatə edəcək.

Məşğulluğun təminatında mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də işsiz və işaxtaran şəxslərin əmək bazarının tələblərinə uyğun peşə və ixtisaslara malik olmasıdır. Bu baxımdan, Dövlət Məşğulluq Agentliyinin təşkil etdiyi peşə kursları onlara əmək bazarına çıxış imkanı qazandırır. Həmin istiqamətdə görülən işlərin davamı olaraq agentlik ötən il daha 18,4 min şəxsi peşə hazırlığı kurslarına cəlb edib. Gənc nəslin əmək bazarına uyğun düzgün peşə seçiminə dəstək verilməsi üçün göstərilən peşəyönümü xidmətlər də davam edir. Son bir ildə 343 min nəfər şəxs bu xidmətlərlə əhatə olunub.

Keçən il paytaxt və bölgələrimizdə gənclərin peşə seçiminə dəstək olmaq, onların karyera



istiqamətində doğru addım atmalarını təmin etmək məqsədilə "PeşəFest" tədbirləri davam etdirilib. Bu tədbirlərlə paralel olaraq, Bakı və Naxçıvan şəhərlərində ölkəmizdə ilk dəfə olmaqla və gələcək əmək bazarına hazırlığına dəstək məqsədi daşıyan, əmək bazarında baş verən dəyişikliklərin müzakirə edildiyi Gələcəyin Peşələri Sammiti də keçirilib.

Agentliyin təşkil etdiyi əmək yarmarkaları isə işaxtaranlara işəgötürənlərlə birbaşa ünsiyyət imkanı yaradır. Yarmarkalarda işsiz və işaxtaran şəxslərə müəssisələrdə mövcud olan vakansiyalar, həmin vakansiyalara dair tələblər barədə məlumat verilir, işəgötürənlər tərəfindən mövcud vakansiyalar təqdim olunur. Ötən il Dövlət Məşğulluq Agentliyi tərəfindən paytaxt və bölgələrimizdə daha 218 əmək yarmarkası təşkil edilib.

Aktiv məşğulluq proqramlarının istiqamətlərindən biri də işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərinə öz doğma yurd yerlərində iş imkanları yaratmaqdır. Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri aparılmaqla məşğulluq imkanları da daim genişlənir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən işəgötürənlərlə sıx əməkdaşlıq qurur və bu hesaba doğma yurdlarına qayıdan sakinlər işədüzəltmə, özünüməşğulluq proqramı, peşə hazırlığı proqramı, əmək yarmarkaları və s. kimi məşğulluq proqramları ilə əhatə olunurlar.

Keçmiş məcburi köçkün olan vətəndaşlarımız doğma yurdlarına köçürülməzdən əvvəl nazirliyin elektron sistemləri üzərindən təhlillər aparılır və köçürülməzdən əvvəl onlarla görüşlər keçirilir, məşğulluq imkanları qiymətləndirilir. Köçürüldükdən sonra isə onlar məşğulluq proqramlarına cəlb olunurlar. Doğma yurda dönən iqtisadi fəal soydaşlarımızın artıq 8 min nəfərdən çoxunun məşğulluğu təmin edilib. Bundan savayı, özünüməşğulluq proqramı həmin sakinləri də əhatə edir və bu hesaba 700-dək şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində öz doğma yurdlarında kiçik ailə biznesləri qurulub. Habelə 6200-dək şəxs müxtəlif istiqamətlər üzrə peşə hazırlığı və təlimlərə cəlb edilib. Ümumilikdə Böyük qayıdış proqramı üzrə Qarabağ və Şərqi Zəngəzura köçürülən sakinlərdən əmək qabiliyyətli olanların məşğulluğunun təminatı göstəricisi 90 faizdən çoxdur, hətta bir sıra yaşayış məntəqələrində ölkə üzrə orta göstəricidən yüksəkdir.

Sosial sahədə elektronlaşma işləri çərçivəsində əmək və məşğulluq xidmətlərinin göstərilməsində əvəzolunmaz platforma rolunu oynayan ƏMAS-ın funksiyalarının genişləndirilməsi ilə məşğulluğun təmin olunmasında geniş elek-



tron imkanlar da yaradılıb. Həmin xidmətlər həm işsiz və işaxtaran şəxslər, həm də işəgötürənlər üçün daha da əlçatan olub. Elə ötən ay Dövlət Məşğulluq Agentliyi tərəfindən peşəyönümü və karyera planlamasına dəstək göstərən "Mərkəzi Karyera Portalı" istifadəyə verilib. Portal əmək bazarına dair məlumatların vahid rəqəmsal platformada toplanması, gənclərin peşə seçimi və karyera inkişafı prosesinin dəstəklənməsi, işəgötürənlərin hansı bacarıqlara malik işçi qüvvəsinə tələblərinin olduğu barədə onların məlumatlılığının artırılmasını hədəfləyib.

Bu günlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən işədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərə dair vahid informasiya bazasının yaradılması məqsədilə "Əmək və Məşğulluq" altsistemində (ƏMAS) "İşədüzəlmədə vasitəçilik" modulu istifadəyə verilib. Bununla da əmək bazarında şəffaflığın artırılması, işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi üçün həmin hüquqi şəxslərin reyestrinin aparılması və işədüzəlmədə vasitəçilik fəaliyyəti üzrə hesabatlılıq prosesi elektronlaşdırılıb.

2026-cı ildə də aktiv məşğulluq proqramlarının genişləndirilməsi əsas prioritetlərdən biridir və cari ildə daha 450 minədək şəxsin bu proqramlara cəlb edilməsi planlaşdırılır.

***Rüstəm KAMAL, "Azərbaycan"***



# "ABŞ-Azərbaycan münasibətlərinin sürətli inkişafını müşahidə etmək məmnunluq doğurur"

**ABŞ-nin Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili xanım Emi Karlonun AZƏRTAC-a müsahibəsi**

*- Xanım Karlon, ABŞ və Azərbaycan arasında hazırkı siyasi dialoqu necə qiymətləndirirsiniz? Təsadüfi deyil ki, 2025-ci il sentyabrın 25-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı avqustun 8-də keçirilmiş Vaşinqton Sammitinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarə olduğunu söylədi. Sizin fikrinizcə, Vaşinqtonda Prezident İlham Əliyevin və Prezident Donald Trampın görüşündən, Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunun imzalanmasından sonra iki dövlət arasında əməkdaşlıqda hansı əsas çağırışlar və imkanlar mövcuddur?*

- Məlumat üçün xatırladım ki, mən Azərbaycana 2025-ci ilin iyun ayında gəlmişəm. Ötən yeddi ayda ABŞ-Azərbaycan münasibətlərinin sürətli inkişafını müşahidə etmək məndə məmnunluq doğurur. Əlbəttə, bu dövrün ən yaddaqalan məqamı 8 avqust sammiti idi. Həmin sammitdə Prezident Tramp Prezident İlham Əliyevi və Baş nazir Paşinyanı Vaşinqtona dəvət etmişdi və orada bir sıra tarixi sənədlər imzalandı. Birincisi və ən əsası isə, əlbəttə ki, Azərbaycan və Ermənistan arasında sülhə dair saziş layihəsinin paraflanması idi.

İkincisi, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) barədə oldu. Bu məsələ imzalanmış Birgə Bəyannamənin vacib bir hissəsidir.

Üçüncüsü, bizim üçün çox mühüm olan, gələcəkdə strateji əməkdaşlığın qurulması məqsədilə ikitərəfli tərəfdaşlıq haqqında sənəd idi. ABŞ və Azərbaycan arasında gələcək əməkdaşlıq üçün çərçivəni müəyyən edən Anlaşma Memorandumu imzalandı.

Beləliklə, ötən aylar ərzində artıq bu sənədlərin faydalarını görməyə başlamışıq. Ötən il dekabrın 19-da hökumətlərimizin nümayəndələri Strateji Tərəfdaşlıq Xartiyası üzrə Strateji İşçi Qrupunun ilk iclasını keçirərək gələcək əməkdaşlığımızın müəyyənləşdirilməsi məsələlərini müzakirə etdilər.

Avqustun 8-dən sonra formalaşan yeni münasibətlər ABŞ şirkətləri üçün də imkanlar yaradıb. Mən bu imkanlar barədə bir sıra ABŞ şirkətləri ilə danışmışam və bu, Azərbaycanla münasibətlərimizin gələcək mərhələsində diqqət mərkəzində olacaq. Onu da qeyd etmək istəyirəm ki, ABŞ şirkətləri innovasiya və texnologiya sahələrində dünyada liderdirlər və biz bu imkanları ölkələrimizin qarşılıqlı rifahı naminə Azərbaycana gətirmək istəyirik.

*- Doğrudan da, Vaşinqton Sammiti bütün dünyanın diqqətini çəkən müsbət bir hadisə oldu. Sizin də bəhs etdiyiniz kimi, həmin gün Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülhə dair saziş layihəsini parafladılar, həm də Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar, Prezident Donald Tramp da buna şahid qismində imza atdı. Bütün bunların əhəmiyyəti barədə çoxlu sayda bəyanatlar, açıqlamalar verilib. Bununla bağlı ABŞ-nin Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkilinin fikirlərini də eşitmək istərdik.*

- İlk növbədə, deyərdim ki, son otuz ildən artıq müddətdə Cənubi Qafqazda sülh üçün ən yaxşı fürsət avqustun 8-də keçirilən sammit və Prezident İlham Əliyev ilə Baş nazir Nikol Paşinyanın Prezident Donald Trampın iştirakı ilə göstərilən təşəbbüsdür.

Bu, tarixi bir nailiyyətdir və Birləşmiş Ştatlar bunun bir parçası olmaqdan böyük qürur duyur. Eyni zamanda avqust ayında Prezident Donald Tramp və Prezident İlham Əliyev tərəfindən imzalanmış strateji tərəfdaşlığımıza dair Anlaşma Memorandumu da münasibətlərimizi irəli aparmaq üçün, - xüsusilə iqtisadi sahədə, - çox böyük bir fürsətdir.

Avqustun 8-dən bəri biz süni intellekt, rəqəmsal infrastruktur, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrdə əməkdaşlıq üçün yeni imkanları fəal şəkildə müəyyənləşdirir və inkişaf etdiririk. Düşünürəm ki, bu yeni imkanları görmək hər iki ölkə üçün həqiqətən sevindiricidir. İrəliyə doğru hərəkətimizin və əməkdaşlığımızın sübutu olaraq, hər iki tərəfdən çoxsaylı səfərlərin şahidi olmuşuq.

Belə ki, Azərbaycan tərəfindən, bildiyiniz kimi, xarici işlər naziri, təhsil, iqtisadiyyat, rəqəmsal inkişaf və nəqliyyat, enerji sahələrinə cavabdeh nazirlər, həmçinin müdafiə və təhlükəsizlik üzrə nümayəndə heyəti ölkəmizə səfər edib. ABŞ tərəfindən isə açığı, ziyarətçilərin siyahısı çox genişdir. Avqust ayından bəri biznes nümayəndə heyətimiz səfər edib. Onlar Orta dəhlizi müzakirə etmək üçün Qazaxıstanda, Azərbaycanda və Gürcüstanda olublar. ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya Məsələləri üzrə Bürosunun baş rəsmisi Brendan Hanrahan səfər edib. Sülh missiyaları üzrə xüsusi elçi Aria Laytstoun da Azərbaycanda səfərdə olub.

Mərkəzi Komandanlığın komandanı, admiral Bred Kuperin və digər şəxslərin də səfərlərini xatırlatmaq istərdim. ABŞ Dövlət Departamentindən Azərbaycana ən yüksək səviyyəli ziyarətçilərdən biri ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Huker idi. O, Federal Rabitə Komissiyasının üzvü ilə birlikdə gəlmişdi. Onlar Azərbaycanın Bakıda çox uğurla evsahibliyi etdiyi Beynəlxalq Telekommunikasiya İttifaqının Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransında iştirak edən ABŞ-nin böyük nümayəndə heyətinə rəhbərlik edirdilər. Bunu da qeyd edim ki, biz, həmçinin hərbi və təhlükəsizlik sahəsində onilliklərdir davam edən tərəfdaşlığı yenidən başlatmaq üçün Oklahoma Milli Qvardiyasının rəhbərlərini də qarşıladıq. Gördüyünüz kimi, ABŞ tərəfindən Azərbaycana çox ciddi maraq var.

Biz artıq 2026-cı ildə çox yaxşı bir başlanğıc etmişik. Prezident İlham Əliyev yanvarın 4-də Konqresin nümayəndə heyətini çox səmimi şəkildə qəbul edib. Nümayəndə heyətinə ABŞ-nin Oklahoma ştatından senator Markveyn Mallin rəhbərlik edirdi. Bu, ikipartiyalı nümayəndə heyəti idi və onlar ikitərəfli münasibətlərimizi genişləndirməkdə çox maraqlı olduqlarını bildiriblər.

Qeyd etmək istəyirəm ki, azərbaycanlı tərəfdaşlarımız ABŞ nümayəndələrini qarşılamaqda son dərəcə səmimi və qonaqpərvər olublar.

Mən şəxsən ABŞ-dən gələn ziyarətçilərlə danışmışam. Onların bir çoxu səfərlərindən təsirləndiklərini bildirərək, buraya yenidən qayıtmaq niyyətində olduqlarını söyləyiblər. Düşünürəm ki, 2026-cı il ABŞ-dən gələn ziyarətçilərin ili olacaq və qarşıdakı aylarda daha çox səfər gözləyirik. Bu, ABŞ-Azərbaycan münasibətləri üçün çox yaxşı haldır.

*- Prezident İlham Əliyevin BMT tribunasından müasir dünya üçün verdiyi çox mühüm mesajları ABŞ-nin Azərbaycandakı diplomatik korpusunun rəhbəri olaraq necə dəyərləndirirsiniz?*

- Biz Prezident İlham Əliyevin və Baş nazir Paşinyanın avqustun 8-də keçirilən sammit barədə bəhs etməsindən məmnunuq. Onlar ötən il Birləşmiş Ştatlarda imzalanmış tarixi sənədlərdən bəhs etdilər. Düşünürəm ki, bu, həmin xalqların malik olduğu nikbinliyi, regionun bütün ölkələrinin gələcəyi ilə bağlı bölüşdüyü ümidləri və artıq həyata keçirildiyini gördüyümüz davamlı sülh perspektivlərini açıq şəkildə əks etdirir. Biz, həmçinin Prezident İlham Əliyevin Anlaşma Memorandumunu və ikitərəfli münasibətlərin yüksəldilməsini qeyd etməsindən də xeyli məmnunuq.

Əlbəttə ki, regional enerji təhlükəsizliyi və regional bağlantı məsələləri də bizim üçün son dərəcə vacibdir. Buna görə də bu məsələlərin qeyd olunmasını da vurğulamaq istərdim.

*- Xanım Karlon, Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Bu barədə də fikirləriniz maraqlı olardı.*

- Bəli, biz Azərbaycan və Ermənistan hökumətləri tərəfindən ticarət əlaqələrinin bərpası istiqamətində atılan



bu son addımları alqışlayır və məmnuniyyətlə qarşılayırıq. Bunlar 2025-ci il avqustun 8-də Prezident Trampın iştirakı ilə paraflanan sülhə dair saziş layihəsinə hər iki tərəfin həqiqətən sadiq olduğunu göstərən mühüm etimad quruculuğu səyləridir. Ticarət və nəqliyyat marşrutlarının bərpası isə sözsüz ki, bütün regionun və hər iki ölkənin iqtisadiyyatlarına çox böyük müsbət təsir göstərəcək.

Beləliklə, bir daha vurğulayırıq ki, indiyədək göstərilən bu səyləri ürəkdən alqışlayır və məmnuniyyətlə dəstəkləyirik.

*- Sizin fikrincə, Zəngəzur dəhlizinin - TRIPP marşrutunun Cənubi Qafqaz regionu, o cümlədən Azərbaycan üçün əsas iqtisadi üstünlükləri nələrdir? Məsələn, tranzit potensialının artması, yeni iş yerlərinin yaradılması, logistika sahəsinin inkişafı baxımından...*

- "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) həqiqətən inqilabi bir layihədir ki, avqustun 8-dən əvvəl çox az adam onu mümkün hesab edirdi. Prezident Trampın səyləri sayəsində TRIPP, fikrimizcə, sülh sazişinin paraflanmasına mane olan sədlərin aradan qaldırılmasına kömək edən əsas amillərdən biri oldu.

Bu sənədin tarixi əhəmiyyət daşıdığını xüsusi olaraq vurğulamaq istərdim. Biz TRIPP-ı Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı 30 ildən sonra ilk dəfə real şəkildə birləşdirən tam multimodal tranzit məkanı kimi təsəvvür edirik. Bu, həm beynəlxalq, həm də dövlətlərarası bağlantını təmin edəcək və həm bütövlükdə regionun, həm də hər iki ölkənin iqtisadiyyatı üçün çox böyük təsirə malik olacaq.

Biz inanırıq ki, TRIPP layihəsi regional bağlantıları, əsl mənada gücləndirmək potensialına malikdir. O cümlədən bu layihə Azərbaycanın region üçün mərkəzə çevrilmək niyyətinin reallaşdırılmasına kömək edəcək, eyni zamanda Mərkəzi Asiya ilə Qərbi Avropa ölkələri arasında tranzitin inkişafına təkan verəcək.

*- ABŞ ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın 2026-cı il və növbəti illər üçün əsas prioritetləri nələrdən ibarətdir?*

- İki ölkə arasında imzalanmış Anlaşma Memorandumunda əməkdaşlıq üçün bir neçə sahə müəyyənləşdirilib. Onların bir çoxu iqtisadi yönümlüdür. Beləliklə, memorandumla bağlı müzakirə etdiyimiz üç əsas prioritet var. Birincisi, bağlantıdır, buna enerji və nəqliyyat bağlantıları daxildir.

İkincisi, ticarət və investisiyalardır, yəni ikitərəfli ticarət və investisiya. Bu kateqoriyaya süni intellekt, kibertəhlükəsizlik və qarşılıqlı maraq doğuran digər sahələr də daxildir. Bundan əlavə, müdafiə və təhlükəsizlik məsələlərinin də müəyyən iqtisadi komponentləri ola bilər.

Biz strateji əməkdaşlığımızın daha konkret məzmununu formalaşdırmaq və nizamnaməmiz çərçivəsində nə görmək istədiyimizi müəyyənləşdirmək məqsədilə Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq edirik. Qeyd etdiyim səfərlərin bəziləri də iqtisadi yönümlü olub. Məsələn, deyə bilərəm ki, elə bir neçə gün öncə ABŞ-nin Ticarət və İnkişaf Agentliyinin (USTDA) nümayəndələri ilə burada görüşümüz oldu. Onlar Rəqəmsal İnkişaf və Nəqliyyat, İqtisadiyyat, Energetika və Xarici İşlər nazirliklərində görüşlər keçirdilər və birlikdə iştirak edə biləcəyimiz, qarşılıqlı maraq doğuran layihələr barədə müzakirələr apardılar. Düşünürəm ki, onlar görüşlərin çox uğurlu olduğu təsəvvürü və bir sıra layihə ideyaları ilə geri döndülər. Hazırda həmin məsələlərin detalları üzərində işləyirik. Məqsədimiz ölkələrimizə qarşılıqlı rifah gətirəcək, mümkün olduğu halda TRIPP ilə əlaqəli ideyalar tapmaqdır.

*- ABŞ, "ExxonMobil"in Azərbaycanda hasilatın səmərəliliyinin artırılması üçün qabaqcıl texnologiyaların tətbiqi ilə bağlı təşəbbüslərini necə dəstəkləyir?*

- "ExxonMobil" üçün mövcud olan imkanlar bizi də çox həvəsləndirir. Avqustun 8-də keçirilən görüşlər çərçivəsində Prezident İlham Əliyev və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff "ExxonMobil" ilə SOCAR arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanmasına şahidlik etdilər. Memorandumun bir hissəsi olaraq, "ExxonMobil" hazırda Azərbaycanda quruda yerləşən neft və qaz ehtiyatlarının potensial inkişafını qiymətləndirir və bu, həqiqətən çox əhəmiyyətlidir. Bu prosesin necə nəticələnəcəyini səbirsizliklə gözləyirik. Qiymətləndirmə hələ davam edir, lakin "ExxonMobil"in burada quruda aparacağı kəşfiyyat perspektivləri bizi çox ruhlandırır.

Biz "ExxonMobil"in səylərini, eləcə də enerji və qeyri-enerji sektorlarında burada biznes qurmaq istəyən bütün ABŞ şirkətlərini tam şəkildə dəstəkləyirik.

*- Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi kontekstində, qeyri-neft sektorlarına Amerika investisiyalarının artırılması istiqamətində hansı addımlar atılır?*

- ABŞ hökumətinin iqtisadi əməkdaşlıq alətləri birbaşa yardım xarakteri daşımır. Onlar qarşılıqlı iqtisadi mənfəəti dəstəkləmək məqsədilə özəl sektorun fəaliyyətini stimullaşdırmaq və katalizator rolunu oynamaq üçün nəzərdə tutulub. Bu, bizim yanaşmamızdır. Məhz buna görə də avqustun 8-də əldə olunmuş razılaşmaların iqtisadi komponentlərinin icrasında ABŞ-nin özəl sektoruna və şirkətlərinə böyük dərəcədə arxalanırıq. Strateji tərəfdaşlığımız və əməkdaşlıq memorandumu çərçivəsində müəyyənləşdirilmiş prioritetlərin bir çoxu neft sektorundan kənar sahələrə aiddir.

Biz artıq süni intellekt, nəqliyyat, logistika, rəqəmsal əməkdaşlıq, müdafiə və təhlükəsizlik kimi mövzular barədə danışmışıq. Bunların hamısı enerji sahəsindən kənar istiqamətlərdir. Biz bu sektorlar üzrə də fəaliyyət göstərəcəyik.

Bundan əlavə, burada olduğum yeddi ay ərzində artıq müşahidə etdiyim bəzi digər potensiallı sahələr də var. Məsələn, daşınmaz əmlak, maliyyə, turizm və kənd təsərrüfatını əməkdaşlıq üçün potensiallı sahələr kimi qeyd edə bilərəm. Nəticə etibarilə, ABŞ investorlarının buraya gəlmək istəməsi üçün cəlbedici şəraitin yaradılması əsasən Azərbaycanın öz öhdəliyindədir. Biz isə bunu dəstəkləmək üçün əlimizdən gələni edəcəyik.

*- Azərbaycanın "yaşıl enerji keçidi" layihələrində, xüsusilə külək və Günəş enerjisi sahəsində Amerika şirkətlərinin iştirakının genişləndirilməsi planlaşdırılırmı?*

- Birləşmiş Ştatlar dünyanın ən güclü və ən innovativ enerji sektoruna malikdir. Yeni Anlaşma Memorandumunun da əsas sütunlarından birini enerji sahəsində əməkdaşlıq təşkil edir.

Bu baxımdan, ABŞ və Azərbaycan şirkətləri arasında əməkdaşlığın artmasını səbirsizliklə gözləyirik. Bildirmək istərdim ki, əgər ABŞ şirkətlərinin gəlir əldə edə biləcəkləri, yatırım edə biləcəkləri və qabaqcıl texnologiyalarını paylaşa biləcəkləri layihələr mövcuddursa, biz onların iştirakını dəstəkləyəcəyik.

*- Orta dəhliz çərçivəsində ABŞ ilə Azərbaycan arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?*

- Düşünürəm ki, perspektivlər çox müsbətdir. Daha əvvəl də qeyd etdiyim kimi, investisiyalarımızın bir hissəsini TRIPP ilə əlaqələndirməyə çalışırıq. Bizim fikrimizcə bu, məntiqlidir. Biz uzun illərdir ki, regionda, xüsusilə də enerji sektorunda iqtisadi inteqrasiyanı dəstəkləmişik və dəstəkləyirik.

Ötən ilin sentyabr ayında Azərbaycana gələn biznes nümayəndə heyəti konkret olaraq Orta dəhliz, eləcə də nəqliyyat və logistika sahələrini müzakirə edib. Bu da ABŞ şirkətlərini məhz həmin sahələr üzrə imkanları görmək üçün buraya gətirməyimizin bir nümunəsidir. Açığı, düşünürəm ki, bundan sonra da özəl sektor nümayəndələrinin buraya gəlişi getdikcə artacaq və biz bu sahədə daha çox imkan müəyyən edə biləcəyik.

*- ABŞ Azərbaycan iqtisadiyyatının rəqəmsal transformasiyasını hansı şəkildə dəstəkləyir? Amerika IT şirkətlərinin və vençur investorlarının bu sahəyə cəlb edilməsi nəzərdə tutulurmu? ABŞ-nin süni intellekt sahəsində təcrübəsini nəzərə alaraq, bu istiqamətdə Azərbaycanla hansı əməkdaşlıq layihələrinin həyata keçirilməsi mümkündür?*

- Şübhəsiz ki, bu, bizim üçün diqqət mərkəzində olan bir sahədir. Qeyd etdiyim kimi, bu, Anlaşma Memorandumunda xüsusi olaraq yer alan istiqamətlərdən biridir. Buradakı həmsöhbətlərimdən də eşitmişəm ki, Azərbaycan ABŞ şirkətləri ilə işləməyə böyük maraq göstərir.

ABŞ bu sahədə dünyanın ən qabaqcıl texnologiyalarına malik olduğuna görə, biz həmin texnologiyaları buraya gətirmək istəyirik. Biz süni intellekt, kibertəhlükəsizlik və rəqəmsal sahələr üzrə qlobal liderik.

Hətta rəqəmsal inkişaf və nəqliyyat naziri ilə görüşüm zamanı onun Vaşinqtona son səfəri barədə danışdıq. O, təkcə Vaşinqtonda olmayıb, həm də Kaliforniyanı ziyarət etmişdi. Orada əməkdaşlıq perspektivləri ilə bağlı imkanlar isə həqiqətən sonsuzdur.

Əlbəttə, sonda sərmayə yatırmaq barədə qərar ABŞ şirkətlərinin özlərindən asılıdır.

Lakin səfirliyin məqsədlərindən biri də Azərbaycandakı imkanları onlara göstərmək və bu səyləri dəstəkləməkdir. Bir sıra nazirliklərdən, məsələn, burada mövcud olan zəngin enerji resursları, o cümlədən bulud məlumat mərkəzi (cloud data hub) və data mərkəzlərinin yaradılması imkanları barədə eşitmişəm. Məhz buna görə də, qarşıdakı aylarda bu imkanları daha ətraflı şəkildə araşdıracağıq.

*- Amerika biznesi Azərbaycan Respublikasında azad edilmiş ərazilərin bərpasında və inkişafında hansı şəkildə iştirak edə bilər?*

- Mənim ötən ilin oktyabr ayında diplomatik korpusun bəzi üzvləri ilə birlikdə Füzuli, Cəbrayıl, Zəngilan və bir sıra digər yerlərə səfər etmək imkanım oldu. Orada bərpa və yenidənqurma istiqamətində gördüyüm irəliləyiş məni həqiqətən çox təsirləndirdi. Həmin səfər zamanı hava limanlarını, dəmir yollarında və avtomobil magistrallarında həyata keçirilmiş işlərin miqyasını görmək mümkün oldu.

Biz orada yenidən qurulmuş məscidləri və sıfırdan inşa edilmiş digər infrastrukturları da müşahidə etdik. Bunları şəxsən görmək mənim üçün çox təsirli oldu. Xüsusilə də minatəmizləmə və oradakı digər çətinliklərə baxmayaraq, görülmüş böyük işlər diqqətimi çəkdi.

Düşünürəm ki, ABŞ şirkətləri mühəndislik və infrastruktur da daxil olmaqla, bütün sahələr üzrə texniki təcrübəyə malikdir. ABŞ-dən Azərbaycana gələn ziyarətçilərin sayı artdıqca, bu cür investisiyaların burada reallaşması ehtimalı da yüksələcək. Buna görə də məqsədimiz iqtisadi əməkdaşlıq üçün bu imkanları davamlı şəkildə formalaşdırmaq və müəyyənləşdirməkdir.

*- Qlobal inflyasiya və bazarlardakı qeyri-sabitlik şəraitində, ABŞ və Azərbaycan arasında hansı maliyyə-iqtisadi əməkdaşlıq formaları daha dayanıqlı və perspektivli hesab olunur?*

- Düşünürəm ki, Anlaşma Memorandumu gələcək iqtisadi əməkdaşlıq üçün çox əla bir təməl yaradır. Çünki o, olduqca genişdir və üç sahəni əhatə edir. Lakin, əslində, mövzuların çox geniş spektrini - bağlantıdan müdafiə və təhlükəsizliyə, eləcə də rəqəmsal inkişaf, süni intellekt və kiber sahələrə qədər hər istiqaməti əhatə edir. Buna görə də hesab edirəm ki, memorandumda müəyyənləşdirdiyimiz əsaslar gələcək əməkdaşlıq üçün möhkəm bir təməl olacaq.

Sənəddə həmçinin qeyd olunur ki, biz yalnız ikitərəfli deyil, eyni zamanda iqtisadi və ticarət əməkdaşlığı sahəsində regional səviyyədə də birgə fəaliyyət göstərəcəyik. Düşünürəm ki, bu da əməkdaşlığımız üçün yaxşı bir bazadır. Əməkdaşlığımızın ölkələrimiz üçün faydalı olacağına əminəm.

## *Ağ Evin etimadı:*
## Azərbaycan qlobal aktor statusunda çıxış edir

### Bakı yeni dünya nizamının əsas qurucularındandır

**Azərbaycan beynəlxalq münasibətlər sistemində, sadəcə, Cənubi Qafqazın lokomotiv dövləti deyil, qlobal qərarların formalaşmasında birbaşa iştirak edən strateji güc mərkəzidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və uzaqgörən xarici siyasət Bakını mürəkkəb geosiyasi düyünlərin çözülməsində etibarlı tərəfdaş statusuna yüksəldib. Xüsusilə son illərdə enerji təhlükəsizliyindən sülh quruculuğuna qədər geniş spektrdə nümayiş etdirilən diplomatik məharət ölkəmizi beynəlxalq təşəbbüslərin əsas ünvanlarından birinə çevirib.**

Xəbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp Sülh Şurası adlı beynəlxalq təşkilat yaratmaq qərarını elan edərək, Azərbaycanı təşkilata təsisçi üzv dövlət olmağa dəvət edib. Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda qeyd olunub ki, gələcək illərdə dünyada dayanıqlı sülhün, rifahın və hamı üçün qüdrətin bərqərar olunması məqsədi naminə Azərbaycan lideri ilə əməkdaşlıq etməyi səbirsizliklə gözləyir. Ağ Ev rəhbəri məktubunda bildirib ki, göstərilən səylər yaxın gələcəkdə əksəriyyəti yüksək hörmətə sahib dünya liderləri olan möhtəşəm və etibarlı tərəfdaşları bir araya gətirəcək.

Prezident İlham Əliyevin Donald Trampa cavab məktubunda bəyan edilib ki, Azərbaycan Sülh Şurasına qoşularaq, onun nəcib missiyasını paylaşacaq. Dövlət başçısı vurğulayıb ki, bu dəvəti Azərbaycan ilə ABŞ-nin qarşılıqlı hörmətə əsaslanan faydalı tərəfdaşlığının, həmçinin Azərbaycanın regional və qlobal miqyasda sülh və sabitliyin təşviqində rolunun tanınmasının rəmzi olaraq qəbul edir: "İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək".

ABŞ kimi qlobal gücün ən kritik sülh layihələrində Azərbaycana təsisçi və strateji tərəfdaş kimi yer ayırması rəsmi Bakının qlobal nüfuzunun və topladığı postmünaqişə təcrübəsinin dünya tərəfindən rəsmi etirafıdır. Bu yeni reallıq Azərbaycanın dünya siyasətinin "sülh və sabitlik ixrac edən" əsas subyektlərindən biri olduğunu təsdiqləyir. Qeyd edək ki, Donald Trampın təşəbbüsü ilə gündəmə gələn Sülh Şurası layihəsi Yaxın Şərqdə onilliklərdir sürən qarşıdurmaların həllinə innovativ baxış bucağı təqdim edir. Bu platforma sadəcə tərəflər arasında vasitəçilik etmək deyil, ortaq mənfəətlər və kollektiv məsuliyyət ruhunda genişmiqyaslı əməkdaşlıq mühiti yaratmağı hədəfləyir. Eyni zamanda regional gərginliyi yumşaltmaqla yanaşı, dünyanın təhlükəsizlik arxitekturasında yeni idarəetmə modellərini sınaqdan keçirmək məqsədi daşıyır.

Bu cür nüfuzlu təşkilatlarda dövlətlərin təmsilçiliyi onların dünya siyasətindəki yerini və sülhə verdiyi real dəyəri əks etdirir. Azərbaycanın Sülh Şurasına dəvət olunması heç də təsadüf deyil. Bu, ölkəmizin Şarm əl-Şeyxdə nümayiş etdirdiyi qətiyyətli mövqeyin və illərdir yürüdülən məqsədyönlü xarici siyasət strategiyasının məntiqi nəticəsidir. Bakı artıq lokal çərçivələri qıraraq, qlobal qərarların qəbulunda iştirak edən mühüm siyasi güc mərkəzinə çevrilib. ABŞ Prezidentinin dəvət məktubundakı "tarixi səylərimizə qoşulmaq" çağırışı Vaşinqtonun Azərbaycana strateji tərəfdaş kimi verdiyi yüksək qiymətin göstəricisidir. Azərbaycanın sadəcə üzv deyil, Şuranın nizamnaməsini hazırlayan qurucu dövlətlər sırasında yer alması ölkəmizin beynəlxalq nüfuzunun institusional təsdiqidir.

Azərbaycan liderinin cavab məktubu ölkəmizin xarici siyasət kursunun sarsılmaz prinsiplərini bir daha xatırlatdı. Bu cavab Azərbaycanın sülh proseslərindəki iştirakının anlıq maraq deyil, uzunmüddətli və strateji bir yol xəritəsi olduğunu nümayiş etdirdi. Rəsmi Bakı özünü dialoqa açıq, proqnozlaşdırılan və məsuliyyətli bir tərəfdaş kimi təqdim edərək qlobal sabitliyə töhfə vermək niyyətini qətiləşdirdi. Coğrafi miqyasından asılı olmayaraq, ölkəmiz postmünaqişə dövrlərinin idarə olunmasında və reinteqrasiya proseslərində "Azərbaycan modeli" kimi xarakterizə olunan uğurlu bir təcrübə yaradıb. Azərbaycanın Vətən müharibəsindən sonra yürütdüyü barış və quruculuq siyasəti bu gün Qəzza və digər mürəkkəb münaqişə zonaları üçün praktiki bir örnək təşkil edir.

Sülh Şurasına təsisçi üzv kimi dəvətə Azərbaycan-ABŞ münasibətləri və Tramp-Əliyev dostluğu prizmasından da yanaşmaq lazımdır. Donald Trampın yenidən prezident seçilməsi və Prezident İlham Əliyevlə olan şəxsi münasibətləri ABŞ-Azərbaycan əlaqələrini son illərin ən yüksək strateji səviyyəsinə daşıyıb. 2025-ci ilin avqustunda İlham Əliyevin Vaşinqtona işgüzar səfəri və Ağ Evdə keçirilən görüşlər bu münasibətlərin "qızıl dövrü" kimi qiymətləndirilir. Tramp və İlham Əliyev arasındakı münasibətlər qarşılıqlı hörmət üzərində qurulub. Hər iki lider klassik bürokratik ləngimələrdən kənar, konkret nəticəyə fokuslanan bir üsluba sahibdir.

Nəticəyönümlü diplomatiya ABŞ-Azərbaycan əlaqələrini kağız üzərindəki bəyanatlardan real, strateji layihələrə daşıyıb. Donald Trampın İlham Əliyevi mütəmadi olaraq "güclü və qətiyyətli lider" kimi xarakterizə etməsi, Ağ Evin Bakını regionda öz taleyini özü təyin edən, heç bir kənar təsirə boyun əyməyən müstəqil güc kimi görməsinin nəticəsidir. Tramp administrasiyası yaxşı anlayır ki, Azərbaycan həm İsrail, həm də türk-islam dünyası ilə eyni dərəcədə dərin və balanslı münasibətlər qura bilən nadir ölkələrdən biridir. Azərbaycanın İsrail ilə strateji tərəfdaşlığı və eyni zamanda islam dünyasındakı nüfuzu onu Vaşinqton üçün vacib "körpü" edir. Bu, Azərbaycanı ABŞ-nin Yaxın Şərq və Mərkəzi Asiya strategiyaları üçün mərkəzi nöqtəyə qoyur.

Tramp administrasiyası Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu da yüksək qiymətləndirir və dəstəkləyir. Terrorizmə qarşı mübarizə və təhlükəsizlik məsələlərində hərbi-texniki əməkdaşlıq yeni dinamika qazanıb. Əgər əvvəllər ABŞ-Azərbaycan münasibətləri əsasən neft-qaz üzərində qurulmuşdusa, hazırda bu əlaqələr qlobal təhlükəsizlik, logistika və yeni dünya nizamının formalaşdırılması müstəvisinə keçib.

Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət edilməsi Bakının artıq təkcə regional deyil, həm də makro-regional təhlükəsizlik memarı kimi qəbul olunduğunu təsdiqləyir. Sülh Şurasının fəaliyyətinin Qəzza ilə məhdudlaşmayacağı, digər münaqişələrin həllinə də qoşulacağı və BMT-yə alternativ kimi beynəlxalq təşkilata çevriləcəyi gözlənilir. Bu da onu göstərir ki, ölkəmiz artıq yalnız Cənubi Qafqazın lideri deyil, həm də uzaq coğrafiyalarda sabitliyin bərqərar olması üçün təcrübəsi bölüşülən etibarlı bir siyasi gücdür.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# REGİONLAR

## Daş Salahlı kəndindən 9 ölkəyə məhsul ixrac olunur

**Ölkəmizin iqtisadi imkanları artdıqca, xüsusən kəndlərimizdə uzun illərdən bəri yığılıb qalmış problemlərin həlli sürətlənir. Bu hesaba Qazaxın Daş Salahlı kəndi də istisna deyil. Görülən genişmiqyaslı işlər kəndin simasını başdan-başa dəyişmişdir.**

Daş Salahlı rayonun ən böyük kəndlərindən biridir. Kənd 2550 evdən və 3000-dək təsərrüfatdan ibarətdir. Bu gün kəndin ərazisində yerləşən müəssisələrdən dünyanın 9 ölkəsinə məhsul ixrac olunur və 10 mindən çox sakini olan kənd əhalisinin əksəriyyəti həmin müəssisələrdə işləyir.

Son illər kəndin abadlaşdırılması istiqamətində genişmiqyaslı tikinti və quruculuq işləri aparılmış, bankomat qoyulmuş, Şəhidlər xiyabanı təmir olunmuş və digər işlər görülmüşdür. Ümumilikdə ötən illər ərzində kənd sakinləri tərəfindən qaldırılmış 51 məsələnin 31-i müsbət həll edilmişdir.

Birinci Qarabağ müharibəsində, həmçinin 44 günlük Vətən savaşında Daş Salahlı kəndinin 23 igid oğlu şəhidlik zirvəsinə ucalmışdır. Yalnız 44 günlük Vətən müharibəsində 2 nəfər müharibə əlili olmuşdur. Ümumiyyətlə, 44 günlük Vətən müharibəsində Daş Salahlı kəndindən 162 nəfər iştirak etmişdir. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatı zamanı qanları ilə tarix yazan qəhrəmanlarımız arasında da Daş Salahlıdan oğullar olmuşdur.



Məsələn, təkcə son vaxtlar kənddə su xətti çəkilmiş, subartezian quyusu qazılmış, arxlar təmizlənlır, işıq, qaz, su və rabitə sahələrində əsaslı dönüş yaradılır. Kəndin ərazisindəki 30 kilometr uzunluğunda olan yollara çınqıl tökülmüş və yollar hamarlanmışdır. Kəndin işıqlandırılması sahəsində də xeyli iş görülmüşdür. Köhnə elektrik dayaqları yenisi ilə əvəz edilmiş, sip kabellər çəkilmişdir. Kəndin mərkəzindən keçən 300 metrlik hissəyə yeni işıq dayaqları basdırılmışdır. Şəxsi evlərlə yanaşı, kənddə olan sahibkarlıq obyektlərinin əraziləri də abadlaşdırılaraq müasir görkəmə salınmışdır. Yol kənarlarına ağaclar əkilmiş, kənddəki poçt binası, eləcə də 2 və 3 saylı körpələr evi-uşaq bağçaları əsaslı şəkildə təmir olunmuşdur.

Dövlət başçısı dəfələrlə demişdir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Odur ki, hər bir rəhbər işçinin əsas vəzifəsi vətəndaşları narahat edən problemləri, qaldırdıqları məsələləri, səsləndirdikləri fikirləri dinləmək, onların həlli istiqamətində əməli işlər görməkdir. Bu baxımdan rayon rəhbərliyi kənd və qəsəbələrin, o cümlədən Daş Salahlının abadlaşdırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirirlər.

Son illər kənddə aqrar sahənin inkişafı, əkin sahələrinin genişləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Nəticədə 2016-cı ildən indiyədək əkin sahəsi 1980,8 hektardan 2514,3 hektara çatmışdır. Əkin sahələrinin su təminatının yaxşılaşdırılması istiqamətində də məqsədyönlü işlər görülmüşdür. Yeri gəlmişkən, qeyd edək ki, Abbasbəyli kəndində yerləşən Coğazçay su anbarından Daş Salahlı kəndinə gələn köhnə dəmir borular istismar müddətini başa vurduğu üçün kənd əhalisinin məişət suyu ilə təminatında müəyyən çətinliklər yaranmışdı. Daş Salahlı kənd bələdiyyəsi tərəfindən sözügedən dəmir borular yeni polietilen borularla əvəzlənmişdir. Bundan başqa, kənddə 10 subartezian quyusu sakinlərin istifadəsinə verilmişdir.

Əhalinin məşğulluğunun təmin olunması istiqamətində də xeyli iş görülmüşdür. 97 nəfər özünüməşğulluq proqramına cəlb olunmuşdur. Onlardan 1 nəfəri şəhid ailəsi üzvü, 26 nəfəri Vətən müharibəsi əlili, 70 nəfəri aztəminatlıdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Astaralılar ötən ilə yekun vurdular

### İstehsal artıb, güzəran yaxşılaşıb, abadlıq işləri genişlənib

**Hesabat yığıncağında çıxış edən RİH-in başçısı Qəzənfər Ağayev 2025-ci ildə rayonda görülmüş işlər, sosial-iqtisadi nəticələr və bu il qarşıda duran vəzifələr barədə danışıb. Qeyd edib ki, ölkədə həyata keçirilən sosial-iqtisadi siyasət Azərbaycanın dayanıqlı inkişafını təmin edib, xalqın rifahının yüksəlməsinə, ölkənin güclü və müasir dövlətə çevrilməsinə zəmin yaradıb.**



Vətəndaşların rifah halının yaxşılaşması, aztəminatlı ailələrin sosial müdafiəsi, sosial sahədə mövcud olan problemlərin aradan qaldırılması ilə bağlı tədbirlərin gücləndirilməsinin diqqət mərkəzində saxlandığını deyən məruzəçi aparılan islahatların, irəli sürülən təşəbbüslərin ölkəmizin dinamik inkişafını təmin etdiyini, sənayenin, kənd təsərrüfatının, turizm sektorunun inkişafına investisiyaların qoyulmasının iqtisadi gücümüzü daha da artırdığını söyləyib. "Müstəqil və suveren Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin qurduğu möhkəm dövlətçilik təməli bu gün də Azərbaycanın uğurlu inkişafının əsasını təşkil edir. Onun ideyaları və siyasi irsi müasir dövlətimizin fəaliyyətində yaşayır və ölkəmizin gələcək inkişafına yol göstərir", - deyə Q.Ağayev vurğulayıb.

Bu gün rayon üzrə 41 yaşayış məntəqəsini əhatə edən 20 min 470 abonent təbii qazdan istifadə edir. Məruzədən məlum oldu ki, 2025-ci ildə abonentlərin normal və təhlükəsiz qaz təchizatının yaxşılaşdırılması və qaz şəbəkəsinin təmiri ilə bağlı müəyyən işlər görülüb. Həmçinin istehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması üçün elektrik xətt təsərrüfatının yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib. Bir neçə ərazidə istismar müddəti başa çatmış transformatorlar, sayğaclar, köhnəlmiş dayaqlar və naqillər yeniləri ilə əvəz edilib.

Bunlardan əlavə, rayonun bütün yaşayış məntəqələrində sürətli internet şəbəkəsi yaradılıb, əhali bir neçə provayder vasitəsilə internet xidmətlərindən istifadə etmək imkanı qazanıb. Bununla da müasir texnologiyalar əsasında rayon ərazisi 100 faiz optik internetlə təmin olunub.

Məruzəçi bildirib ki, ötən il Lovayın su anbarından Ojakəran kəndinə su xətti çəkilərək əkin sahələrinin suvarılması təmin edilib və beləliklə, böyük bir problem həllini tapıb. Sel sularının vura biləcəyi ziyanın qarşısını almaq üçün il ərzində Astaraçayda, Pensərçayda və Ərçivançayda məcratəmizləmə işləri aparılıb.

Ölkədə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafı üçün yaradılmış əlverişli şərait Astara rayonunda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafına böyük təkan verib. Son illər rayonda sitrus meyvələrinin istehsalına diqqət artırılıb, il ərzində yeni sitrus bağları salınaraq ümumilikdə 4 min 666 hektara çatdırılıb. Sitrusçuluğun inkişaf etdiyi ölkələrin təcrübəsi öyrənilərək müasir üsullardan istifadəyə daha çox üstünlük verilir. Bu məqsədlə subtropik meyvəçiliyinin rayonda daha yaxşı inkişaf etdirilməsi üçün sitrus bağlarının yerli iqlim şəraitinə uyğun, yeni texnologiya əsasında əkilməsindən ötrü mütəxəssislərin iştirakı ilə maarifləndirici tədbirlər il ərzində davam edib. Digər sahələrə gəldikdə, rayon üzrə 232 hektar məhsuldar çay plantasiyasından 725 ton yaşıl çay yarpağı toplanaraq çay fabriklərinə təhvil verilib. Çay plantasiyalarının modern üsullar tətbiq edilməklə genişləndirilərək artırılması qarşıya qoyulan prioritet məsələlərdən olub. Hesabat ilində həmçinin çəltik əkini aparılmış 307 hektardan 1226 ton məhsul yığılıb, orta məhsuldarlıq 41 sentnerə çatıb. Bitkiçilik və heyvandarlıq sahələrində də vəziyyət qənaətbəxş olub.

Məruzədə əhalinin məşğulluq məsələsinə də toxunulub. Qeyd edilib ki, Dövlət Məşğulluq Agentliyinin Astara Rayon Xidmət Şöbəsi tərəfindən rayon üzrə 6 min 360 nəfər işaxtaran qeyri-məşğul vətəndaş qeydiyyata alınıb, onlardan 804 nəfəri müxtəlif idarə və müəssisələrdə işlə təmin olunub, 154 nəfəri özünüməşğulluq layihəsinə cəlb edilib.

O ki qaldı turizmə, hesabatdan məlum oldu ki, son zamanlar rayonda yeni turizm obyektlərinin inşa edilərək istifadəyə verilməsi, yaşayış məntəqələrinə gedən yolların asfaltlaşdırılması və əsaslı təmiri ilin bütün fəsillərində gediş-gəlişi asanlaşdırıb, turistlərin və qonaqların rayona marağını daha da artırıb. Xüsusən ucqar dağ kəndlərinin yollarının abadlaşdırılması ilə yeni təbiət mənzərələri üzə çıxıb, Sım şəlaləsi ilə yanaşı, Diqo və Sipi şəlalələrinə, ziyarətgahlara, həmçinin gözəl mənzərəsi olan yaylaq ərazilərinə turistlərin axını çoxalıb. Dəniz sahili ərazilərdə çimərlik turizmi üçün əlverişli şəraitin yaradılması da bu sahənin inkişafına öz töhfəsini verir. Ötən il Alaşa qalasında aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxan qədim tarixə malik tədqiqat elementləri yerli sakinlərlə yanaşı, rayona gələn turistlərin və qonaqların da marağına səbəb olub, yeni turizm marşrutunun yaranması ilə nəticələnib. Sentyabr ayında Sım kəndinə 25-dən çox turizm şirkətinin rəhbərləri üçün infotur təşkil edilərək Astaranın turizm potensialı, zəngin mətbəxi nümayiş olunub. Bunlardan savayı, Astaranın turizm potensialının tanıdılması məqsədilə ötən ilin noyabr ayında 30-dan çox yerli istehsalçı və turizm sənayesi nümayəndələrinin iştirakı ilə "Ekofestival" təşkil olunub. Festivalda yerli məhsulların satış yarmarkası keçirilib, yerli fəal gənclər tərəfindən innovativ təqdimatlar aparılıb.

Bu il görüləcək işlərə gəldikdə, bildirilib ki, məktəb və məktəbəqədər təhsil müəssisələri üçün binaların tikintisi, rayonun elektrik təsərrüfatının yenidən qurulması və qazlaşdırma işlərinin davam etdirilməsi, yaşayış məntəqələrində avtomobil yollarının asfaltlaşdırılması, sahilbərkitmə-məcratəmizləmə işlərinin aparılması, kanalizasiya şəbəkəsinin qurulması, kommunal binaların əsaslı təmiri, imtiyazlı şəxslərin mənzillə təmin olunması ilə bağlı aidiyyəti qurumlar qarşısında məsələlər qaldırılması, parkların genişləndirilməsi, yeni turizm infrastrukturlarının yaradılması və bir çox sosial əhəmiyyətli məsələlərin həyata keçirilməsi qarşıda duran əsas vəzifələrdəndir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Gürcüstanın "Erisioni" ansamblı Gəncədə konsert verib

**Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Azərbaycan və Gürcüstan Mədəniyyət nazirliklərinin, Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı, Gürcüstanın Azərbaycandakı səfirliyinin və Gəncə şəhərindəki Baş Konsulluğunun dəstəyi ilə "Erisioni" Gürcüstan Dövlət Akademik Mahnı və Rəqs Ansamblının konserti olmuşdur.**



Konsertdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki baş konsulu Kaxaber Abdaladze, şəhərin idarə, müəssisə və təşkilat rəhbərləri, eləcə də şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Konsertdən öncə çıxış edən Niyazi Bayramov Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərindən danışaraq demişdir ki, ölkələrimiz arasında əlaqələr siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf edir və belə tədbirlər xalqları birləşdirən və onları bir-birinə daha da yaxınlaşdıran ən güclü körpülərdən biridir. Zurab Pataradze isə çıxışında Azərbaycan və Gürcüstan arasında mövcud olan dostluq münasibətlərindən və belə tədbirlərin xalqlar arasında əlaqələrin möhkəmlənməsində mühüm rol oynamasından danışmışdır. Üç əsrə yaxın zəngin tarixə malik "Erisioni" ansamblının çıxışı tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Qusarlılar taxıl səpinini başa çatdırıblar

**Qusar rayonunda taxıl səpini kampaniyası yekunlaşıb. Mövsüm ərzində, xüsusən, ötən ilin payızında havaların mülayim keçməsi fermerlər üçün əlverişli şərait yaradıb, nəticədə şum və səpin işləri vaxtında və keyfiyyətlə həyata keçirilib. Mütəxəssislərin fikrincə, bu amil gələcək məhsuldarlığa birbaşa müsbət təsir edən əsas şərtlərdən biridir.**

Rayon üzrə ümumilikdə 17520 hektar ərazidə taxıl səpini aparılıb. Bu sahələrin 8550 hektarında buğda, 8970 hektarında arpa əkilib. Statistik rəqəmlərdən də göründüyü kimi, taxılçılıq Qusarda kənd təsərrüfatının əsas istiqamətlərindən biridir.

Son illər Qusarda müasir meyvə bağlarının salınmasına xüsusi diqqət yetirilməsi suvarılan ərazilərdə taxıl sahələrinin müəyyən qədər azalmasına səbəb olub. Bu səbəbdən suvarılan taxıl sahələrinin həcmi 2930 hektar təşkil edib. Yaxın gələcəkdə yeni bağ sahələrinin salınması nəzərdə tutulub. Onu da bildirək ki, minerallarla zəngin bu torpaqlarda yetişən meyvə keyfiyyəti ilə seçilir.



Qusarda qış soyuq və qarlı keçir. Bunun torpağa faydası var. Hazırda rayonun tarlaları ağ örpəyə bürünüb. Bu da gələcəkdə bol məhsuldan xəbər verir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Aqrar Sığorta Fondu şaxtavurmaya görə 915 min manat zərər ödənişləri edib

**Son günlər ölkənin müxtəlif ərazilərində müşahidə edilən qeyri-sabit hava şəraiti - qar yağıntısı, şaxtavurma və donvurma halları digər sahələrlə yanaşı, kənd təsərrüfatına da təsir edir.**



Aqrar Sığorta Fondu müşahidə olunan qeyri-sabit hava şəraitində fermerləri öz əkin sahələrini, xüsusilə də meyvə bağlarını şaxtadan və qar yağmasından sığortalamağa çağırır. Eyni zamanda fond əkinlərini sığortalamış fermerləri öz bağlarındakı vəziyyəti izləməyə və hadisə baş verdikdə fonda vaxtında müraciət etməyə dəvət edir.

Xatırladaq ki, Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan sərfəli aqrar sığorta mexanizmi əkin sahələrini çoxsaylı risklərdən, o cümlədən şaxtavurma (donvurma) və normadan artıq qar yağması riskindən də sığortalayır.

Bu hadisələr nəticəsində əkin sahəsinə dəymiş zərər Aqrar Sığorta Fondu tərəfindən qarşılanır. Artıq şaxtavurma riski üzrə fermerlərə ödənişlər də başlayıb və sürətlə artmaqdadır. Belə ki, İndiyədək Aqrar Sığorta fondu tərəfindən şaxtavurma hadisələri üzrə 915 min manat sığorta ödənişi həyata keçirilib. Aqrar sığorta ödənişləri badam, şaftalı, nektarin, limon, naringi, portağal, ərik, gavalı, gilas meyvələri üzrə həyata keçirilib.

Şaxtavurma riskindən sığortaya böyük maraq səbəbindən sığorta ödənişləri də hər il sürətlə artmaqdadır. 2023-cü ildə şaxtavurma (donvurma) riski üzrə cəmi 5 min manat sığorta ödənişi edildiyi halda, 2024-cü ildə Aqrar Sığorta Fondu tərəfindən sığorta ödənişləri 130 min manata, 2025-ci ildə isə 780 min manata yüksəlib.

Xatırladaq ki, hazırda Aqrar Sığorta Fondu 41 bitki növü və bitkiçilik məhsullarını, eləcə də heyvandarlıq və akvakultura (balıqçılıq) təsərrüfatlarını sığorta edir.

Aqrar Sığorta Fondu meyvə bağlarını və məhsulu dolu, fırtına-qasırğa, sel və subasma, normadan artıq qar yağıntaları, doludan keyfiyyət itkisi, şaxtavurma, vəhşi heyvanların hücumu, 3-cü şəxslərin hərəkətləri və sair risklərdən sığorta edir. Sığorta haqqının 50 faizini isə fermerin yerinə dövlət ödəyir.

***"Azərbaycan"***





# Mədəniyyət





● "Azərbaycan mədəniyyəti - 2040"

## Konsepsiya Azərbaycan mədəniyyətinin inkişafında yeni mərhələdir

**Mədəniyyət xalqların milli kimliyinin aydın göstəricisidir. Mədəniyyətdə həm ulu keçmiş, həm bu gün, həm də gələcək sıx şəkildə birləşir. Mədəniyyət həm də xalqların tarixi yaddaşının və mənəvi varlığının aparıcı qoludur. Bu sahənin inkişafı xalqların tərəqqisini sürətləndirən başlıca amildir.**



Xalqımız həmişə mədəniyyəti ilə tanınıb, dünya səviyyəsində ön sıralarda dayanıb, çoxları bizdən nümunə götürüb, zaman-zaman mədəniyyətimizi, tariximizi öyrəniblər. Azərbaycan mədəniyyətinin qorunması, zənginləşdirilməsi və dünya miqyasında tanıdılması istiqamətində həmişə dövlətimiz tərəfindən müxtəlif tədbirlər həyata keçirilib, qanunlar, konsepsiyalar qəbul edilib. Ardıcıl, məqsədyönlü şəkildə reallaşdırılan dövlət siyasəti nəticəsində bu sahə tərəqqi etmiş, nümunə olmuşdur.

Ümummilli Lider Heydər Əliyev hələ sovet hakimiyyəti illərində Azərbaycan mədəniyyətinin yeni zirvələrə yüksəlməsinə, milli-mənəvi dəyərlərimizin inkişafına, təbliğinə böyük önəm vermişdir. Mədəniyyətin xalqların həyatına, tarixinə göstərdiyi müsbət təsirdən bəhs edən Ulu Öndər demişdir: "Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, milli ruhu yaşatmaq deməkdir". Böyük uzaqgörənliklə deyilən bu müdrik kəlam Heydər Əliyevin mədəniyyət sahəsində gördüyü işlərin məqsəd və məramını açıq şəkildə göstərir.

Ulu Öndərin mədəniyyət siyasəti 22 ildən çoxdur Azərbaycana rəhbərlik edən, dövlətimizi dünyada tanıdan, dövlətçiliyimizi daha da möhkəmləndirən, iqtisadi gücünü artıran Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mədəniyyətimizin tərəqqisini dövlət siyasətinin əsas prioritetlərindən biri hesab edən cənab İlham Əliyev bu sahənin inkişafına böyük diqqət və qayğı göstərir.

Qürur duyulan, fəxr edilən tarixi keçmişə, zəngin irsə və dərin mənəvi köklərə sahib olan Azərbaycan mədəniyyəti məhz dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Uğurla həyata keçirilən tədbirlər, aparılan zəruri təbliğat işləri, imzalanan sərəncamlar milli-mənəvi dəyərlərimizin müasir dövrün çağırışları fonunda etibarlı qorunmasını və gələcək nəsillərə çatdırılmasını yüksək səviyyədə təmin edir. Dövlətimizin başçısı mütəmadi olaraq mədəniyyət və incəsənət xadimləri ilə görüşür, onları dinləyir, gördükləri işləri layiqincə qiymətləndirir.

Prezident İlham Əliyevin rəhbərliyi altında ötən illər ərzində mədəni irsə dövlət dəstəyi artırılmış, bu istiqamətdə müxtəlif irimiqyaslı layihələr uğurla həyata keçirilmişdir. İcra olunan bir-birindən dəyərli islahatlar, tarixi abidələrin bərpası, milli irsin beynəlxalq səviyyədə təbliği və başqa zəruri addımlar ölkə rəhbərinin mədəniyyətimizin inkişafına göstərdiyi əvəzsiz xidmətlərdir. Uzun illərdir ki, paytaxt Bakı beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirildiyi məkana çevrilib. Dünya ölkələri ilə mədəni əlaqələrin daha da sıx qurulması üçün Bakıda beynəlxalq incəsənət, milli rəqs və musiqi, Qəbələdə beynəlxalq musiqi, paytaxtda beynəlxalq caz, Avropa tolerantlıq festivalları və başqa tədbirlər keçirilir. Bütün bunlar mədəniyyətimizin inkişafına və tərəqqisinə böyük təkan verir.

Həyata keçirilən beynəlxalq mədəniyyət tədbirlərinə, irimiqyaslı layihələrə, mütəmadi olaraq aparılan uğurlu islahatlara, bu istiqamətdə imzalanan müvafiq fərman və sərəncamlara əsaslanıb demək olar ki, Prezident İlham Əliyevin mədəniyyət siyasətinin mərkəzində xalqımızın milli dəyərlərinin qorunması, təbliği və daha da zənginləşməsi dayanır.

Mədəniyyətimizin inkişafına, tərəqqisinə daim diqqət və qayğı göstərən Prezident İlham Əliyev 14 yanvar 2026-cı ildə "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Bu sərəncam mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın inkişafı naminə görüləcək zəruri işlərin uzunmüddətli proqramıdır.

Konsepsiyada Azərbaycanın mədəni dəyərlərinin qorunmasının və təbliğinin, beynəlxalq miqyasda tanıdılmasının siyasi, iqtisadi və sosial təsirlərinin genişləndirilməsi nəzərdə tutulub. Sənəddə həmçinin Azərbaycan dilinin, incəsənətinin və ədəbiyyatının mədəniyyətdə payının, funksionallığının, cəmiyyətin tərəqqisində, fərdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün, estetik zövqünün, dünyagörüşünün, həyat fəlsəfəsinin formalaşmasında rolunun artırılması öz əksini tapıb, milli-mənəvi dəyərlərimizin qorunması, dünya ölkələrində təbliğ olunması, tanınması, tarixi abidələrin bərpası istiqamətində və başqa sahələrdə əhəmiyyətli layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Böyük əminliklə demək olar ki, Prezident İlham Əliyevin 14 yanvar 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" ölkəmizin mədəni həyatında mühüm rol oynayacaq, mədəniyyətimizin, incəsənətimizin, ədəbiyyatımızın inkişafı istiqamətində mühüm addımlar atılacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Qarabağın sənət inciləri - Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialı

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialında sərgilənən sənət nümunələri qədim Qarabağ torpağının ruhunu, əsrlər boyu bu məkanda yaşayıb-yaratmış insanların, o cümlədən sənətkarların həyat və məişətini, estetik zövqünü və bədii dünyagörüşünü hiss etməyə, həmin tarixi mühiti təsəvvür etməyə imkan yaradır.

Filialın XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə yararsız hala düşmüş binada şəhər azad edildikdən sonra bərpa işləri aparılıb.



Hazırda muzeydə vaxtilə təxliyə edilmiş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illərdə filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da nümayiş etdirilir. Ekspozisiyada xovlu və xovsuz xalçalar, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, həmçinin zərgərlik və bədii metal nümunələri yer alır.

Ziyarətçilərin eksponatlar haqqında daha dolğun məlumat əldə etmələri üçün ekspozisiyada sensor ekran quraşdırılıb. Ekranda Şuşanın, xüsusilə Şuşanın maddi və qeyri-maddi irs nümunələri, kübar ailələri, xarici kolleksiyalarda qorunan Qarabağ xalçaları, eləcə də Şuşa filialının 1992-2022-ci illər ərzindəki fəaliyyəti barədə ətraflı məlumatlar təqdim olunur.

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialını ziyarət edən qonaqlar Qarabağın zəngin mədəni irsi ilə yaxından tanış olur və xoş təəssüratlarla ayrılırlar.

## Azərbaycanlı rəssamın əsəri ABŞ-də birinci yerə layiq görülüb



ABŞ-də yaşayan və fəaliyyət göstərən azərbaycanlı rəssam Vüqar Quliyevin əsəri Vaşinqtonda təşkil olunmuş rəsm sərgisində birinci yerə layiq görülüb.

AZƏRTAC-ın məlumatına görə, Hill Mərkəzi tərəfindən təşkil olunmuş nüfuzlu 2026 Regional Münsiflər Sərgisində Virciniya və Merilən ştatlarından və paytaxt Vaşinqtondan 800 rəsm əsəri müsabiqəyə təqdim olunub. 124 sənət əsəri seçilərək sərgiyə çıxarılıb və aralarından azərbaycanlı rəssamın yağlı boya ilə çəkdiyi "Astral drift" əsəri birinci yerə layiq görülüb.

Sözügedən sərgidə Vüqar Quliyeva birinci yerə layiq görülməsi ilə bağlı sertifikat və mükafat təqdim olunub. Seçilmiş əsərlər mayın 3-nə kimi "Old Naval Hospital"da sərgilənəcək.

● 23 Yanvar Əl Yazısı Günüdür

## Xəttatlığın dili ilə danışan sənətkar

**Minilliklər boyu formalaşan xəttatlıq təkcə yazı vasitəsi deyil, həm də mədəniyyətin ifadəsidir. Xəttatlıq hərflərin ahəngi, ölçüsü, ritmi və məna dərinliyi ilə insanı yalnız oxumağa deyil, düşünməyə də vadar edir. Məhz bu səbəbdən xəttatlıq sadəcə estetik yaradıcılıq deyil, eyni zamanda ibadət və mənəvi kamillik yolu kimi qəbul edilib.**



### Səbir, nizam və düşüncə fəlsəfəsi

Azərbaycan mədəni irsində xəttatlıq sənəti xüsusi yer tutur. Orta əsrlərdən başlayaraq, ölkəmizin müxtəlif bölgələrində inkişaf edən bu sənət növü rəssamlıq, miniatür və kitab sənəti ilə bağlı şəkildə formalaşıb. Tarixi mənbələr sübut edir ki, Azərbaycan ərazisində fəaliyyət göstərən xəttatlar dini mətnləri, elmi əsərləri, klassik poeziya nümunələrini və dövlət sənədlərini yalnız yazmaqla kifayətlənməyib, onları bədii-estetik dəyərə malik sənət əsərlərinə çeviriblər. Xəttatlıq məktəbləri, dərgahlar və ustad-şagird ənənəsi vasitəsilə bu incə sənət nəsildən-nəslə ötürülüb.

Xəttat təkcə yazan deyil, mətnin ruhunu anlayan, onu estetik formaya salan sənətkar olub. Bu baxımdan, xəttatlıq həm texniki ustalıq, həm də dərin mənəvi hazırlıq tələb edən yoldur.Yazının gözəlliyi oxucunun mətni qavramasını asanlaşdırmaqla yanaşı, onun ruhuna da təsir göstərib. Ona görə də xəttatlar yalnız sənətkar deyil, həm də maarifçi, qoruyucu və dəyişici rolunu oynayıblar. Bu gün muzeylərdə, kolleksiyalarda və sərgilərdə qorunan yüzlərlə xəttatlıq nümunəsi Azərbaycanın zəngin mədəni irsinin canlı şahidləridir.

Müasir dövrdə texnologiyanın sürətlə inkişaf etməsinə baxmayaraq, xəttatlıq sənəti aktuallığını itirməyib. Əksinə, rəqəmsal dünyanın sürətli axını fonunda insanlar daha çox ruhani dərinliyə, səbir və diqqət tələb edən sənətlərə yönəlirlər. Bu sahədə fəaliyyət göstərən ustad sənətkarlar arasında təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da tanınan Gülümxan Bəydəmir xüsusi yer tutur.

### Rəssamlıqdan xəttatlığa aparan sənət yolu

1950-ci il mayın 15-də Şamaxı rayonunun Ərəbşalbaş kəndində - şairlər və sənətkarlar yurdunda dünyaya göz açan Gülümxan Bəydəmir erkən yaşlarından sənətə xüsusi maraq göstərib. Bu maraq onu 1970-ci ildə Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə gətirib. Burada aldığı klassik rəssamlıq təhsili onun gələcək xəttatlıq üslubunun formalaşmasında mühüm rol oynayıb. Xəttat deyir ki, 1971-1973-cü illərdə hərbi xidmətdə olarkən Rusiyanın Xabarovsk vilayətində ilk fərdi sərgisini açması onun yaradıcılıq potensialını göstərən ilk addım olub. Akvarel mənzərəsi ilə iştirak etdiyi müsabiqədə ikinci yer qazanması sənətdə doğru yolda olduğunu sübut edib. Zaman keçdikcə sənətkarın diqqətini daha qədim və daha dərin bir sahə - xəttatlıq sənəti cəlb etməyə başlayıb.



"1976-cı ildə Rəssamlıq məktəbini bitirdikdən sonra bir çox sərgilərdə iştirak etmişəm. Azərbaycanda unudulmaqda olan daş üzərində oyma sənəti ilə məşğul olarkən məni ən çox cəzb edən yüz illərdən bəri daşlara həkk edilmiş xəttatlıq sənəti olub. Hərflərin düzülüşü, ritmi və estetik harmoniyası məndə xəttatlığın incəliklərini öyrənməyə həvəsi yaradıb. Bu maraq məni onu daha dərindən araşdırmağa, öyrənməyə və ustad axtarışına sövq edib. Bu məqsədlə 1995-ci ildə Türkiyənin İstanbul şəhərinə getdim və orada xətt sənətkarlarını axtarmağa başladım", - deyir ustad.

Gülümxan Bəydəmir 2003-cü ildə Kamil Nazik adlı xəttatdan ilk dərslərini almağa başlayıb. Daha sonra isə dünyaca məşhur xəttat Davud Bektaşdan təhsil alaraq sənətini daha da kamilləşdirib. Bu ustad dərsləri sənətkarın xəttatlıq dünyagörüşünü formalaşdırır, onun yazısına estetik dərinlik qatır. Zəhməti əsas zamanda bəhrəsini verir. 2006-cı ildə İstanbulda keçirilən beynəlxalq xətt yarışmasında "Ahmed-Muhammed" adlı əsəri ilə birinci yerə layiq görülür. Bu uğur sənətkarın yaradıcılıq yolunda yeni qapılar açır. 2007-ci ildə Almaniya və Avstriyada keçirilən sərgilərdə iştirak etməsi, eləcə də həmin il Hz. Mövlana Xətt Yarışmasında birincilik qazanması, eyni ildə Bakıda Hz. Mövlananın 500 illik yubileyinə həsr olunmuş sərgidə iki əsərlə təmsil olunması onun adını beynəlxalq sənət mühitində tanıdır.

### "Xəttatlıq mənim üçün mənəvi yoldur"

Gülümxan Bəydəmir sonrakı illərdə ardıcıl olaraq fərdi sərgilər açıb. 2008-ci ildə ikinci, 2010-cu ildə üçüncü, 2013-cü ildə isə Seyid Yəhya Bakuvinin 550 illik yubileyinə həsr olunmuş dördüncü fərdi sərgisi Bakı Rəsm Qalereyasında keçirilib. 2024-cü ildə Xalça Muzeyində Qənirə Paşayevaya həsr olunmuş sərgidə iştirak edib, 2025-ci ildə isə Şirvanşahlar Sarayında beşinci fərdi sərgisi açılıb.

Xəttatın yaradıcılığında ən mühüm və məsuliyyətli işlərdən biri 2014-cü ildə başladığı Qurani-Kərimin yazılması olub. Bu çətin proses səkkiz il davam edib və 2022-ci ildə tamamlanıb. Sənətkar bu işi öz həyatının ən dərin mənəvi sınaqlarından biri kimi qiymətləndirir. Çünki bu əsər təkcə sənət nümunəsi deyil, böyük mənəvi zəhmətin, səbrin və inancın nəticəsidir.

"Xəttatlıq mənim üçün təkcə sənət deyil, eyni zamanda mənəvi yoldur. Bu sənət yalnız gözəl yazı yox, həm də düşünməkdir. Hər yeni sözün gözəlliyi beynimdə yeni kompozisiya qurmağıma, onu necə yazacağıma, hansı növdən və rəngdən istifadə edəcəyimi düşünməyimə səbəb olur. Əsərlərimdə daha çox xəttatlığın Cəli-sülüs növünə üstünlük verirəm. Böyük ölçülü yazılar, güclü kompozisiya və rəng seçimi yazıya xüsusi təsir gücü qazandırır. Əsərin ərsəyə gəlmə müddəti bu sadaladıqlarımdan asılı olaraq dəyişir", - deyir xəttat.

Hazırda Qala kəndində yerləşən şəxsi muzeyində fəaliyyət göstərən Gülümxan Bəydəmir burada həm yaradır, həm də bu sənəti gənc nəslə sevdirməyə çalışır. Xəttat deyir ki, bu sənəti öyrənmək son dərəcə çətin prosesdir belə, xəttatlıq müəllim tələb edir: "Mən rəssam olsam belə, xəttatlığı öyrənmək çox çətin oldu. Müəllimsiz yazılan hərf gözə xoş gələ bilər, lakin səhvləri yalnız peşəkar ustad görə bilər. Xəttatlıqda əsas alətlər qamış qələm, hiss mürəkkəb və aharlanmış kağızdır. Bu materiallar yazının həm texniki, həm də estetik keyfiyyətini artırır".

Rəqəmsal dövrdə xəttatlığa marağın artdığını deyən Gülümxan Bəydəmir bunu məlumat və materiallara çıxışın asanlaşması ilə əlaqələndirir. Lakin o vurğulayır ki, bu sənətə yalnız maraq deyil, həm də mənəvi bağlılıq, səbir və zəhmət lazımdır. İstedadın əhəmiyyətini inkar etməyən xəttat eyni zamanda daim öyrənməyin, yeni üsullara açıq olmağın vacibliyini də qeyd edir. Gülümxan Bəydəmirin yaradıcılığı həm də Azərbaycanın zəngin xəttatlıq irsinin yaşadılması və gələcək nəsillərə ötürülməsi missiyasıdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Azərbaycan realist rəssamlıq məktəbinin banisi

Bəhruz Kəngərli qısa ömrü ərzində çox ilklərə imza atıb. Görkəmli fırça ustası Azərbaycanın sulu boya ilə işləyən ilk rəngkarı, ilk realist boyakarı və Naxçıvanın ilk teatr rəssamı olub. Həm də Azərbaycanın ilk ali təhsilli rəssamı kimi də adı tarixdə qalıb.

Bu il Bəhruz Kəngərlinin anadan olmasının 134-cü ildönümü tamam olur.

Cəmi 30 il ömür sürən Bəhruz Kəngərli yaradıcılıqla, sadəcə, 7 il məşğul ola bilib. Uşaqlıqda keçirdiyi ciddi xəstəlik gənc rəssamın sənətə olan sonsuz sevgisini qətiyyən azaltmayıb, həyat eşqinin alovlanmasına əngəl ola bilməyib.

Ulu Öndər Heydər Əliyev Bəhruz Kəngərlinin zəngin yaradıcılıq irsini belə qiymətləndirib: "Onun əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə, mən insan obrazlarını deyirəm, xüsusən, o ağır dövrün, 1918-1919-1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını öz əsərlərində əks etdirib".

Qədim Naxçıvan torpağı Bəhruz Kəngərli üçün ilham mənbəyi olub. Doğma Naxçıvan onun yaradıcılığında qırmızı xətlə keçib. Bu qədim diyarın ecazkar və füsunkar təbiəti istedadlı rəssam təxəyyülü ilə Bəhruz Kəngərli yaradıcılığında bu gün də yaşayır.

Vaxtilə sovet hökumətinin dağıtdığı bir çox abidələr məhz Bəhruz Kəngərlinin əsərləri sayəsində bərpa olunub.

1921-ci ildə Azərbaycanda açılan ilk böyük sərgidə Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilib. Fırça ustasının yaradıcılığında mənzərə janrı da mühüm yer tutub.





Bəhruz Kəngərli ilk peşəkar rəssam kimi Azərbaycan boyakarlığında realizmin əsasını qoyub, onu yeni ictimai məzmun və janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirib. Bəhruz Kəngərlinin əsərləri onun ev-muzeyi ilə yanaşı, Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskva Dövlət Tarix Muzeyində qiymətli eksponatlar kimi qorunub saxlanılır.

# *Dünya mediası:* "Qarabağ"ın Avropa arzusu davam edir


Today

Home > Sports

Stoppage-time goal lifts Qarabag past Eintracht Frankfurt in Champions League

Qarabag players celebrate together after scoring a late decisive goal against Eintracht Frankfurt during their UEFA Champions League league-phase match in Baku, Azerbaijan, Jan. 21, 2026.


cna

Top Stories Latest News Singapore Asia

Sport

Qarabag boost Champions League playoff hopes with late win over Frankfurt

Soccer Football - UEFA Champions League - Qarabag v Eintracht Frankfurt - Tofiq Bahramov Stadium, Baku, Azerbaijan - January 21, 2026 Qarabag players celebrate after the match REUTERS/Aziz Karimov



Qarabag score dramatic late winner to complete come back win over Frankfurt

Qarabag scored a dramatic stoppage-time winner to end Eintracht Frankfurt's hopes of reaching the Champions League play-offs and keep their own alive.

Behlul Mustafazade became the first Azerbaijani player to score in the competition with the last kick of a topsy-turvy contest, with the result leaving the hosts 18th in the table on 10 points and almost certainly guaranteeing their spot in the play-offs.

Eintracht Frankfurt, who are now eliminated, have collected a meagre four points from seven matches and sit 33rd.

The Germans arrived in Azerbaijan having dismissed head coach Dino Toppmoller on Sunday after just one win in nine games.

And they made the worst possible start when

bbc.com

"Qarabağ"ın UEFA Çempionlar Liqasının əsas mərhələsində Bakıda Almaniyanın "Ayntraxt" komandası üzərində qazandığı tarixi qələbə (3:2) xarici mətbuatda geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Avropanın bir sıra nüfuzlu aparıcı idman nəşrlərində Azərbaycan çempionunun doğma meydanda əldə etdiyi zəfər barədə materiallar dərc olunub.

Nüfuzlu "BeIN Sports" beynəlxalq idman kanalları şəbəkəsi matçın statistikalarını və geniş icmalını təqdim edərək Ağdam təmsilçisinin pley-off şanslarını necə artırdığına diqqət çəkib. Qeyd edilib ki, "Qarabağ" son dəqiqə qolu ilə Çempionlar Liqasındakı pley-off ümidlərini artırdı. Bəhlul Mustafazadənin 90+4-cü dəqiqədə vurduğu qol, Kamilo Duranın dublu və "Qarabağ"ın oyun boyu göstərdiyi əzmkarlıq ön plana çıxarılıb.

Britaniyanın məşhur BBC yayım şirkəti 28 yaşlı müdafiəçinin oyunun taleyini həll edən zərbəsini xüsusi qeyd edərək, onun bu turnirdə qol vuran ilk azərbaycanlı futbolçu kimi tarixə düşdüyünü yazıb. BBC "Qarabağ"ın bu qələbə ilə Avropanın ən güclü 24 komandası sırasına daxil olmaq yolunda nəhəng bir addım atdığını bildirib.

Afrika və Avropada geniş izləyici kütləsi olan "SuperSport" nəşri "Qarabağ" son saniyə qolu ilə almanları məyus etdi" ifadəsini işlədib.

Asiyanın ən böyük xəbər portallarından biri olan "CNA" "Reuters" agentliyinə istinadən qələbənin "Qarabağ"ın turnir cədvəlindəki mövqeyini (18-ci pillə) necə möhkəmləndirdiyindən yazıb.

Dünyanın ən çox oxunan idman nəşrlərindən olan "Sky Sports" və "Eurosport" B.Mustafazadənin qolunu "dramatik sonluq" kimi xarakterizə edib.

Almaniya Bundesliqasının rəsmi saytı olan Bundesliga.com dərc etdiyi rəsmi hesabatda bu məğlubiyyəti "Ayntraxt" üçün ağır zərbə kimi qiymətləndirib. Frankfurt klubunun 2:1 hesabı ilə öndə olduğu halda üstünlüyü əldən verməsi və Bakıdakı atmosferin rəqib üçün nə qədər çətin olması xüsusi vurğulanıb.

İngilis dilində yayımlanan "Türkiye Today" portalı "Qarabağ"ın Avropa arzusunun davam etdiyini vurğulayıb.

Türkiyə millisinin üzvü Can Uzunun vurduğu qolun belə almanları xilas edə bilməməsi diqqətə çatdırılıb.

Beynəlxalq idman xəbərləri platforması olan "VAVEL" Tofiq Bəhramov adına Respublika stadionundakı ab-havanı xüsusi qeyd edib. Stadionda matç boyu möhtəşəm coşqunun hökm sürdüyündən bəhs olunub. "Qarabağ"ın bu qələbə ilə turnir cədvəlində 18-ci pilləyə yüksəlməsi "Avropa nağılının davamı" kimi təsvir edilib.

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Cənubi Koreya süni intellektdən təhlükəsiz istifadə haqqında kompleks qanun qəbul edən ilk ölkədir

Cənubi Koreya dünyada ilk dəfə süni intellekt (AI) modellərinin təhlükəsiz istifadəsini tənzimləyən kompleks qanunu rəsmi olaraq qəbul edib. Ölkə sürətlə inkişaf edən bu sahə ilə əlaqəli dezinformasiya və digər təhlükəli nəticələrlə mübarizə aparmaq üçün tənzimləyici çərçivə yaradıb.




AZƏRTAC xəbər verir ki, Cənubi Koreyanın Elm Nazirliyinin məlumatına görə, bu qanun cümə axşamı günü rəsmi olaraq qüvvəyə minib. Süni intellektin inkişafı və onun etibarlılığını təmin etmək üçün çərçivənin yaradılması haqqında sənəd yeni texnologiyalardan istifadəni tənzimləyəcək.

Qanun AI şirkətlərindən və inkişafetdirici firmalardan AI modelləri tərəfindən yaradıla biləcək saxta məzmun və dezinformasiya ilə mübarizədə daha böyük məsuliyyət daşımalarını tələb edir və hökumətə cərimələr tətbiq etmək və ya pozuntuları araşdırmaq səlahiyyəti verir. Xüsusilə qanun istifadəçilərin gündəlik həyatına və ya təhlükəsizliyinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək məzmun yaratmaq üçün istifadə olunan AI modellərinə, o cümlədən iş müraciətlərində, kredit məsələlərində və tibbi məsləhətləşmələrdə tətbiq edilən texnologiyalara istinad edən "yüksək riskli AI" anlayışını formalaşdırır.

Qanunun pozulması 30 milyon von (20 min 400 dollar) məbləğində cərimə ilə nəticələnə bilər. Eyni zamanda hökumət özəl sektorun yeni qaydalara uyğunlaşmasına kömək etmək üçün cərimələrin tətbiqi məsələsində birillik güzəşt müddəti tətbiq etməyi planlaşdırır. Qanunda həmçinin süni intellekt sənayesinin hökumət tərəfindən təşviqi üzrə tədbirlər də yer alır və elm naziri hər üç ildən bir fəaliyyət planı təqdim etməlidir.

# Hava əsasən yağmursuz keçəcək, yollar buz bağlayacaq

Azərbaycanda yanvarın 23-nə gözlənilən hava proqnozu açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 75-80, gündüz 65-70 faiz təşkil edəcək. Gecə və səhər bəzi şəhərətrafı ərazilərdə yolların buz bağlama ehtimalı var.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 7-12, yüksək dağlıq ərazilərdə 12-16, gündüz 0-5 dərəcə şaxta olacaq. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-11, dağlıq ərazilərdə 13-15 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti müşahidə ediləcək. Gecə və səhər yollar buz bağlayacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10 dərəcə şaxta, gündüz 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7, dağlıq ərazilərdə 10-12 dərəcə şaxta, gündüz 1-5 dərəcə isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda havanın əsasən yağmursuz keçəcəyi, lakin axşama doğru bəzi şərq rayonlarda arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7 dərəcə şaxta, gündüz 2-6 dərəcə isti, dağlarda gecə 7-12, yüksək dağlıq ərazilərdə 12-16, gündüz 0-5 dərəcə şaxta olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda havanın əsasən yağmursuz keçəcəyi, lakin axşama doğru bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-4 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti, dağlarda gecə 4-7 dərəcə şaxta, gündüz 0-4 dərəcə isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

# Fransada uşaqların qorunması ilə bağlı ciddi problemlərin olduğu üzə çıxıb

Fransada uşaqların mühafizəsinə dair sistemdə azyaşlıların cinsi zorakılığa, istismara və fahişəliyə məruz qalmasının qarşısının alınmasında ciddi çatışmazlıqlar var. Mütəxəssislərin qiymətləndirmələrinə görə, ölkədə təxminən 20 min azyaşlı fahişəliyə cəlb olunub və onların mühüm hissəsi Uşaqlara Sosial Yardım Xidməti (ASE) sistemində yerləşdirilənlərdir.



AZƏRTAC xəbər verir ki, uşaq hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış vəkil Mişel Amas vəziyyəti "faciəvi" adlandırır. Onun sözlərinə görə, qorunmalı olan uşaqlar elə dövlətin himayəsində olduqları müddətdə cinsi zorakılığın, təkrar hücumların və hətta təşkilatlanmış fahişəliyin qurbanına çevrilirlər. "Fransada Uşaqlara Sosial Yardım Xidmətinə aid olan müəssisələrdən çıxaraq fahişəlik edən 20 min uşaq var", - deyə o vurğulayır.

Amas bildirir ki, uşaqların sözügedən xidmətə aid müəssisələrindən qaçması çox vaxt yanlış təqdim olunur: "Onlar qaçmırlar və şəbəkələrin təsiri altındadırlar".

Vəkil diqqətə çatdırır ki, daha sarsıdıcı məqam bəzi uşaq evlərində baş verən zorlamaların cinayət təqibinə çıxarılmamasıdır. "Zorakılıq çox vaxt azyaşlıların öz aralarında baş verir. Yetərincə nəzarət və resursu olmayan müəssisələrdə uşaqlar tək buraxılırlar. Bu da yeni zorakılıq halları yaradır. Uzunmüddətli cinsi istismar isə uşaqların psixoloji bərpasını demək olar ki, mümkünsüz edir. İlk iki ayda müdaxilə həlledici əhəmiyyət daşıyır", - deyə o bildirir.

Mişel Amas bir sıra nazirliklərlə birlikdə bu sahədə qanunvericilik təşəbbüsləri üzərində işlədiklərini deyir.

Qeyd edək ki, mövcud hüquqi mexanizmlərə baxmayaraq, Fransa onların icrasında ciddi problemlər yaşayır. Bu səbəbdən ölkə artıq bir neçə dəfə BMT-nin Uşaq Hüquqları Komitəsi tərəfindən azyaşlıların qorunmasında ciddi nöqsanlara görə qınanıb. Avropa Şurası da dövlət qurumlarında cinsi zorakılığa qarşı effektiv müdafiənin təmin olunmamasından narahatlığını ifadə edib.

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Bəhmən Mirzəyevə əzizi

**TƏRLAN XƏLİLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Elçin Məhəmməd oğlu Mehdiyevə atası

**MƏHƏMMƏD MEHDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Möhübbət, Fazil və Əlişir Fərəcovlar əzizləri

**TUQAY SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3240**
**Sifariş 91**

**Qiyməti 60 qəpik**